EVDƏ QAL, SAĞLAM QAL!

**Ölkənin meliorasiya və su təsərrüfatı: problemlər, həyata keçiriləcək yeni layihələr**



Bax 3

**"SƏS" qəzetinin kollektivi adından Prezident İlham Əliyevə minnətdarlıq məktubu ünvanlanıb**




Bax 4



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 128 (6092) 29 iyul 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## "Qurban bayramı humanizm və mərhəmətin rəmzidir"

*Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib*



Bax 2

## İbrahim Kalın: "Türkiyə sonadək Azərbaycanın yanında olmaqda davam edəcək"



Biz Azərbaycanın yanındayıq. Azərbaycanın bütövlüyü və təhlükəsizliyi bizim bütövlüyümüz və təhlükəsizliyimizdir. Bu məsələdə zərrə qədər də tərəddüdümüz yoxdur. 1992-ci ildən bölgədə münaqişə mövcuddur və burada işğalçı tərəf Ermənistandır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidentinin müşaviri İbrahim Kalın gündəlikdə...

Bax 2

## Avstraliya nəşri: Ermənilər "ASALA"-nı bərpa edir

Bax 5

Avstraliyada ingilis dilində nəşr olunan "Turkish news press" qəzeti Sidneydə fəaliyyət göstərən Avstraliya Azərbaycanlıları Assosiasiyasının (AAA) bu ölkənin federal parlamentinə müraciəti əsasında ermənilərin "ASALA" terror təşkilatını bərpa etmək niyyəti barədə məqalə...




## Təklənmiş Ermənistan Azərbaycan və Türkiyənin hərbi gücü qarşısında diz çökür

*Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin nəhəng miqyaslı hərbi təlimətə start verməsi xəbəri işğalçı Ermənistanın hərbi-siyasi dairələrini ciddi şəkildə narahat etməyə başlayıb. Belə ki, reallıqdan çıxış edən bir sıra erməni şərhçiləri hakimiyyətə yaxın deputat və siyasi təhlilçilərdən fərqli olaraq, hadisələrin heç də onların xeyrinə inkişaf...*



Bax 6

## Marqarita Simonyan: "Rusiyanın Ermənistana tüpürmək üçün mənəvi hüququ var"

RT-kanalının baş redaktoru Marqarita Simonyanın Ermənistan-Rusiya münasibətləri ilə bağlı postu erməni dairələrini və Ermənistanı kəskin şəkildə silkələyib. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Pashinyan RBK-TV-yə müsahibəsində deyib...



Bax 5

## Pele Ronaldo və "Yuventus"u təbrik etdi

Dünya futbolunun canlı əfsanəsi Pele "Yuventus"u A seriyasının qalibi olmasına münasibət bildirib. Xarici KİV-lərin bu barədə yazdıqlarına görə, dünya futbolunun canlı əfsanəsi Turin klubunun çempionluq qazanmasında Kriştiano Ronaldonun...



Bax 16

**"Şəhid atanın nankor qızı"**



Bax 14

**Azərbaycanda daha 631 nəfər koronavirusdan sağaldı**



Bax 9

**Ermənistanın Azərbaycana qarşı son təxribatları ilə əlaqədar Londonda dinc aksiya və yürüş keçirilib**



Bax 9

# "Qurban bayramı humanizm və mərhəmətin rəmzidir"

*Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib*

***Prezident İlham Əliyev Azərbaycan xalqını və dünyanın müxtəlif guşələrində yaşayan soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə təbrik edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı insanlar arasında həmrəylik və qardaşlığın, humanizm və mərhəmətin rəmzi olan Qurban bayramının İslam dininin əsas bayramlarından biri olduğunu qeyd edib. Vurğulayıb ki, müsəlmanlar bu əlamətdar gündə Uca Yaradanın adına qurbanlarla Allaha yaxınlığın sevincini yaşayır, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirirlər.

Təbrikdə daha sonra deyilir: "Yüz illərdir ki, ayrı-ayrı xalqların və dinlərin mənsublarının mehriban ailə kimi yaşadıqları Azərbaycanda qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayış mühitinin formalaşmasında və etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında



İslam dininin müstəsna rolu olmuşdur.

Hər il ölkəmizdə keçirilən dini bayramlar mütərəqqi milli-mənəvi dəyərlərin, sosial yardımlaşmanın və xeyirxahlıq duyğularının təntənəsinə çevrilir. Builki Qurban bayramı dünyanın qarşılaşdığı çətin sınaq dövrünə təsadüf etsə də, mömin vətəndaşlarımız Allah və din yolunda mənəvi borclarını layiqincə yerinə yetirir, öz nəcib əməlləri ilə cəmiyyətimizdə birlik və bərabərlik ovqatını daha da gücləndirirlər.

Əziz bacı və qardaşlarım!

Bu bayram günlərində Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin ölməz xatirəsini minnətdarlıqla yad edir, onların yaxınlarına və bütün xalqımıza səbir diləyirəm. İnanıram ki, xalqımızın firavanlığı və əmin-amanlığı, Vətənimizin çiçəklənməsi və tərəqqisi naminə etdiyiniz dua və diləklər gerçəkləşəcəkdir.

Bir daha hər birinizə səmimi bayram təbriklərimi çatdırır, ailələrinizə cansağlığı və xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!".

## Ərəb KİV-lərində Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı barədə məqalələr dərc olunub

***Ərəb KİV-lərində Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribat barədə müsahibələri əsasında ölkəmizin mövqeyini əks etdirən məqalələr dərc olunub.***




AZƏRTAC xəbər verir ki, Birləşmiş Ərəb Əmirliklərinin "Dubai Global News", "Emirates Tourism", "Me Business", eyni zamanda İslam Əməkdaşlıq Təşkilatının Milli Xəbər Agentlikləri Birliyi (UNA), Misir və Livanın "Əl-Ahd Əl-Duvali", "Əl-Qimmah News", "Əl-Diplomasy", "Egypt News", "Əl-Xabbar", "Vasat Əl-Bələd", "Kalemat Əl-Arab", "Vol News" kimi digər ərəb və ingilisdilli xəbər agentlikləri, qəzet və internet resurslarında dərc edilmiş məqalələrdə ATƏT-in Minsk qrupunun həmsədrləri və bütün beynəlxalq birlik tərəfindən Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına yönəlmiş səyləri gücləndirmək zərurəti vurğulanıb.

Məqalələrdə mövcud vəziyyətin inkişafı ilə əlaqədar olaraq Ermənistan tərəfindən törədilmiş son təxribatların Prezident İlham Əliyev tərəfindən Təhlükəsizlik Şurasının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin iclaslarında tam qiymətləndirildiyi qeyd olunub.

Münaqişənin nizamlanmamış statusunun regionda sülhə və təhlükəsizliyə təhdidin əsas mənbəyi olması, son hadisələrin erməni tərəfinin regionda vəziyyətin kəskinləşməsi, gərginlik yaradılması və iki ölkə arasında dövlət sərhədi və təmas xətti boyunca eskalasiya üçün bu cür hərbi təxribatlardan daim istifadə etməsi diqqətə çatdırılıb. Bununla yanaşı, vurğulanıb ki, danışıqlar prosesinin mahiyyəti Azərbaycan ərazilərinin işğaldan azad olunmasına və azərbaycanlı qaçqınların öz yurdlarına geri dönməsinin təmin edilməsinə, Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün bərpa olunmasına yönəlməlidir.

Prezidentin köməkçisi müsahibələrində Ermənistanı üzvü olduğu hərbi-siyasi təşkilatları, digər üçüncü tərəfləri münaqişəyə cəlb etmək niyyətində olmaqda ittiham edib. Məqalələrin sonunda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə oxuculara qısa məlumat verilib.

## İbrahim Kalın: "Türkiyə sonadək Azərbaycanın yanında olmaqda davam edəcək"



Biz Azərbaycanın yanındayıq. Azərbaycanın bütövlüyü və təhlükəsizliyi bizim bütövlüyümüz və təhlükəsizliyimizdir. Bu məsələdə zərrə qədər də tərəddüdümüz yoxdur. 1992-ci ildən bölgədə münaqişə mövcuddur və burada işğalçı tərəf Ermənistandır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidentinin müşaviri İbrahim Kalın gündəlikdə olan məsələləri dəyərləndirərkən ifadə edib.

Azərbaycan ilə Türkiyənin hərbi təlimlər keçirəcəyini diqqətə çatdıran İbrahim Kalın deyib ki, bizim hərbi və təhlükəsizlik sahəsinə dair əməkdaşlıq müqaviləmiz var. Azərbaycana təhdid haradan gəlirsə-gəlsin, Türkiyə sonadək Azərbaycanın yanında olmaqda davam edəcək. Lakin bu, münaqişənin diplomatik yolla həllinə qapıların bağlanması kimi başa düşülməməlidir.

Prezident Rəcəb Tayyib Ərdoğanın rusiyalı həmkarına "Ermənistanla əlaqələrinizdən istifadə edərək gərginliyi azaldın" dediyini diqqətə çatdıran müşavir dövlət başçıları arasında baş tutan telefon danışığının münaqişənin siyasi yolla həllinə yönələn səy olduğunu vurğulayıb. Əminliklə bildirilib ki, Türkiyə və Rusiya dövlət başçılarının müzakirələri müsbət nəticələr verəcək.

## Türkiyə KİV-lərində Azərbaycanla bağlı materiallara geniş yer ayrılır

Ermənistan ordusunun Azərbaycanın Tovuz rayonu istiqamətindən ölkəmizə hücum cəhdləri və bunun fəsadları, Azərbaycan Silahlı Qüvvələrinin düşmənə tutarlı cavab verməsi, xarici ölkələrdə ordumuza dəstək aksiyaları, erməni vandalların soydaşlarımıza hücumları, Azərbaycan-Türkiyə əlaqələri və digər məsələlər Türkiyənin aparıcı kütləvi informasiya vasitələrinin əsas mövzusu olmaqda davam edir.




AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq ölkəmizdə hər iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə iyulun 29-dan avqustun 10-dək keçiriləcək birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri qardaş ölkə KİV-lərində Azərbaycan mövzusunu daha da aktuallaşdırıb.

Anadolu və İHA xəbər agentlikləri, TRT HABER, A HABER, TRT AVAZ, HABER TÜRK, CNN TÜRK, BENGÜ TÜRK telekanalları, "Takvim", "Yeni çağ", "Yeşil İğdır", "15 Temmuz", "Milliyet", "Sabah" qəzetləri, eləcə də əyalətlərdə fəaliyyət göstərən çoxsaylı nəşrlər qeyd olunan mövzulara bağlı Türkiyə ictimaiyyətini məlumatlandırmaqda davam edir. Yayılan informasiyalarda, analitik yazılarda mövzuya dair foto və videolar da yer alır.

# Ölkənin meliorasiya və su təsərrüfatı: problemlər, həyata keçiriləcək yeni layihələr

*İlham Əliyev: " Su həm həyatdır, həm inkişafdır, həm təhlükəsizlikdir. Ona görə bu məsələlərə laqeyd yanaşmaq olmaz "*

***Uzun illər ərzində aparılan ölkədə aparılan böyük quruculuq işləri içərisində irimiqyaslı meliorasiya və su təsərrüfatı sistemləri və qurğuları tikilib istismara verilmiş, çoxsahəli meliorasiya və su təsərrüfatı kompleksi yaradılmışdır. Bununla belə, müasir dövrdə ölkənin dinamik sosial-iqtisadi inkişafı bu sahədə iqtisadi münasibətlərin təkmilləşdirilməsini, dövlət idarəetməsinin və təsərrüfat fəaliyyətinin bazar iqtisadiyyatı prinsiplərinə uyğun olaraq həyata keçirilməsini tələb edir. Prezident yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş videoformatda keçirilən müşavirədə də ölkə Prezidenti İlham Əliynv bu sahədə mövcud olan problemlər və görüləcək işlər haqında danışıb və tapşırıqlarını verib.***



### "Nədir, siz istəyirsiniz Azərbaycan səhraya dönsün?"

"Dediyim kimi, indi mənə hər gün 10-dan çox məktub gəlir. Mən Prezident Administrasiyasına, Nazirlər Kabinetinə tapşırıq verirəm. Onlar baxırlar, operativ şəkildə həll edirlər. Axı bu onların, demək olar ki, əsas işi deyil. Bunu aidiyyəti qurumlar etməlidirlər. Nə üçün bu məktublar mənə yazılır? Ona görə ki, aidiyyəti qurumlara yazılanda onlar əhəmiyyət vermirlər, başdan edirlər. Nə qədər belə faktlar var. Biz nə qədər buna dözməliyik?".

Bunu Prezident İlham Əliyev su təsərrüfatının vəziyyətinə dair videoformatda keçirilən müşavirə zamanı deyib. Dövlət başçısı bildirib ki, vəziyyətin tam təhlili zamanı bu il aprel ayında xüsusi komissiya yaradılıb: "artıq komissiya üç aydır ki, işləyir və bu müddət ərzində gördüyü işlər, mövcud problemlərlə bağlı müntəzəm olaraq mənə məlumat verib. Komissiyanın rəhbəri Baş Nazirin müavini Şahin Mustafayevdir. Komissiyanın tərkibində nazirlər, aidiyyəti qurumların rəhbərləri fəaliyyət göstərirlər. Əgər bütün aidiyyəti qurumlar öz işini düzgün qursaydılar, bu komissiyaya ehtiyac olmayacaqdı. Necə ola bilər ki, üç ay ərzində işləyən komissiya bəlkə də son 20 il ərzində görülən, təhlil və təklif baxımından daha dəyərli, əhəmiyyətli nəticə hasil edib? Deməli, bunu etmək mümkündür. Sadəcə olaraq, heç kimin vecinə deyildi, biri-birinin üstünə yıxırdı. Ortalıqda da nə - quraqlıq. Bu problem iki ildir var və gələn il də ola bilər. İndi iqlim dəyişikliyi elə məsələdir ki, bunu bütün dünya müzakirə edir. Bəzi hesablamalara görə, əgər operativ tədbirlər görülməsə, 2030-cu ildə ölkəmizdə səhralaşma prosesi sürətlə gedəcək. Nədir, siz istəyirsiniz Azərbaycan səhraya dönsün? Ona görə bu münasibətə son qoyulmalıdır. Qüsurlara yol verən, bu məsələyə laqeyd yanaşan bütün vəzifəli şəxslər cəzalandırılmalıdır".

### Prezident su təsərrüfatında yaranmış nöqsanlara görə bəzi qurumları tənqid etdi

Dövlət başçısı bildirib ki, biz müasir texnologiyaların, o cümlədən müasir suvarma sistemlərinin mövcud olduğu taxılçılıq təsərrüfatlarında hər hektardan təqribən 70-80 sentner buğda alırıq: "Bu, inkişaf etmiş ölkələrin səviyyəsindədir. Yəni bu, dünyada ən yüksək səviyyədir, bundan yüksək səviyyə yoxdur. Əgər su olmasa, biz buna nail ola bilərikmi? Biz indi taxılçılıqda müasir texnologiyaların tətbiq edilməsi ilə mövcud əkin sahələrində, bəlkə də bir qədər az əkin sahələrində daha çox məhsul istehsal edə bilərik, idxaldan daha az asılı ola bilərik. Su həm həyatdır, həm inkişafdır, həm təhlükəsizlikdir. Ona görə bu məsələlərə laqeyd yanaşmaq olmaz. Açıq deməliyəm, bu iş başlı-başına buraxılıb, heç kim bu məsələ ilə məşğul olmayıb. Aidiyyəti qurumların hər biri öz işləri ilə məşğul idi, koordinasiya aparılmamışdır. Azərsu, meliorasiya qurumları, sadəcə olaraq, dövlət investisiya proqramı müzakirə olunarkən fəallaşırdılar ki, onlara nə qədər dövlət büdcəsindən pay düşəcək. Bəzi hallarda onların təklif etdikləri layihələr, ümumiyyətlə, diqqətəlayiq deyildi. Sadəcə olaraq görürdüm ki, burada məqsəd dövlət vəsaiti götürüb ondan istifadə etməkdir. Amma ondan sonra bu layihələrin səmərəliliyinə kimsə baxıb? Kimsə bunu təhlil edib? Yox. Ona görə bəzi böyük həcmdə investisiya qoyulmuş layihələr faktiki olaraq heç bir səmərə verməyib. Necə ola bilər ki, suyun mənbəyi düzgün təhlil edilmir? O qədər böyük xərc çəkilir, boru xətləri çəkilir, vətəndaşlar buna sevinir. Sonradan min dənə bəhanə gətirirlər ki, belə oldu, elə oldu, su çatmadı, yeni mənbə axtarmalıyıq, yenə vəsait verin, yeni mənbə axtaracağıq. Buna son qoyulmalıdır. Ona görə mən bütün bu işləri mütəşəkkil qaydada tənzimləyəcəyəm. Aidiyyəti qurumlara göstərişlər verilib. Ciddi nəzarət mexanizmi olmalıdır. İlk növbədə, xərclərə ciddi nəzarət mexanizmi olmalıdır. Yoxsa Azərsudan, "Meliorasiya və Su Təsərrüfatı" Səhmdar Cəmiyyətindən sifariş gəlir, mənə bu qədər pul lazımdır ki, bunu edim. Amma sonra baxıb görürlər ki, bunun texniki-iqtisadi əsaslandırması yoxdur. Bu rəqəmlər haradan götürülüb? Havadan".

Prezident İlham Əliyev deyib ki, investisiya proqramına ciddi nəzarət yox idi, nəyi sifariş edirdilər, onu da verirdilər: "Bəs sonra necə xərclənirdi? Buna son qoyulmalıdır. Ona görə bugünkü müşavirədə mən giriş sözümdə deyirəm hansı işlər görülüb. Amma bu işlərin görülməsi nəticəsində daha böyük səmərə əldə oluna bilərdi. Əfsuslar olsun ki, bu, belə deyil. Bundan sonra bu işlər yalnız koordinasiya şəklində aparılmalıdır. İndi mənə məlumat verilir ki, bizdə heç vaxt su balansı tərtib edilməmişdir. Necə ola bilər? Bizim enerji balansımız tərtib olunur. Buna görə biz bilirik ilboyu bu sahədə nə etmək lazımdır? Hansı quruma nə qədər yanacaq lazımdır? Məgər su balansını tərtib etməyi Prezidentmi deməlidir?! Bunu aidiyyəti qurumlar etməlidirlər. Bizim yeraltı, yerüstü su ehtiyatlarımız qiymətləndirilməyib. Son dəfə sovet vaxtında qiymətləndirilib, ondan sonra qiymətləndirilməyib. İndi artezian quyularının qazılması prosesi gedir. Amma baxmaq lazımdır, harada qazılmalıdır, necə qazılmalıdır? Yeraltı su mənbələrinə bunun təsiri necə olacaq? Düzgün yerlər seçilməlidir. Çünki mən deyirəm, burada əsas məqsədi bu qurumlar onda görürlər ki, pul ver artezian qazım, pul ver su çəkim, pul ver nə bilim bunu edim. Yaxşı, bunu veririk, amma sonra? Bir çox hallarda səmərəsi olur. Xərclərə nəzarət çox aşağı səviyyədədir".

### "Son 15 il ərzində yaradılmış böyük su anbarlarının həcmi 470 milyon kubmetrdir"

"Hesab edirəm ki, Taxtakörpü su anbarının tikintisi tarixi layihədir. Çünki bu anbarın su tutumu kifayət qədər böyükdür - 270 milyon kubmetr. Eyni zamanda, Taxtakörpü su anbarından Ceyranbatan su anbarına qədər yeni beton kanalı tikilibdir. Taxtakörpü su anbarının xüsusi əhəmiyyəti ondadır ki, Samur çayının suları orada yığılır, təbii yollarla təmizlənir və beləliklə yeni bir rezervuardan Ceyranbatan anbarına su gəlir. Çünki buna qədər Samur çayından birbaşa kanal vasitəsilə su Ceyranbatana gəlirdi. Əgər ortada bu böyük su hövzəsi olmasaydı, biz bu gün Bakını içməli su ilə təmin edə bilməzdik. Bu, birmənalıdır. Ona görə bu layihənin icrası və ümumiyyətlə Samur çayının sularının ədalətli bölüşdürülməsi üçün çox böyük işlər görülüb. Eyni zamanda, bu, Şabran, Siyəzən, Xızı rayonlarında suvarılan əkin sahələrini böyük dərəcədə artırıb, təqribən 30 min hektar suvarılmayan torpaqlara su verilir və indi o torpaqlarda geniş kənd təsərrüfatı işləri görülür".

Dövlət başçısı digər böyük layihə kimi Ceyranbatan su anbarının yenidən qurulması və müasir təmizləyici qurğuların inşa edilməsindən də danışıb: "O vaxt layihə başa çatanda bu təmizləyici qurğu dünyanın ən böyük təmizləyici qurğusu hesab olunurdu. O vaxtdan bu günə qədər bəlkə də haradasa daha da böyük qurğular tikilib. Amma söhbət ondan getmir. Əsas məsələ odur ki, Bakı şəhərinə keyfiyyətli suyun verilməsi artıq mümkün olub. Təbii ki, mən Şəmkirçay su anbarının əhəmiyyətini də qeyd etməliyəm. Bu gün Şəmkirçay su anbarı bizim su resurslarının yığılmasında və bölüşdürülməsində xüsusi rol oynayır. Bu anbarın su tutumu 165 milyon kubmetrdir və qərb zonasının bir neçə rayonu bu imkanlardan faydalanır, orada əkin sahələri genişləndirilir. Beləliklə, Taxtakörpü şimal zonasının, Bakının, Şəmkirçay qərb bölgəsinin su ilə təminatında mühüm rol oynayır. Bununla paralel olaraq, son illərdə cənub zonasında yerləşən Göytəpə və Tovuzçay su anbarları da inşa edilib. Son 15 il ərzində yaradılmış böyük su anbarlarının həcmi 470 milyon kubmetrdir. Mütəxəssislər bunu yaxşı bilir, bu, çox böyük rəqəmdir".

### "Əgər bu gün Oğuz-Qəbələ-Bakı su kəməri olmasaydı, Bakı şəhərinin su problemləri çox kəskinləşə bilərdi"

Dövlət başçısı içməli su layihəsi, həm də suvarma suyu layihələrindən də danışaraq bildirib ki, son illərdə Azərbaycanda həyata keçirilən nəhəng su layihələri vəziyyəti tamamilə müsbət tərəfə dəyişib: "Mən onların arasında Oğuz-Qəbələ-Bakı su kəmərini xüsusilə qeyd etmək istərdim. Bu kəmərin çox böyük əhəmiyyəti var. İlk növbədə, böyük həcmdə təmiz içməli su Bakı şəhərinə çatdırılır. Nəzərə alsaq ki, bizim su resurslarımızın böyük hissəsi xarici ölkələrdə formalaşır, Oğuz-Qəbələ-Bakı su kəməri sırf yerli mənbə üzərində inşa edilmiş böyük layihədir. Bu layihənin inşası demək olar ki, bizim ilk neft gəlirlərimiz əldə olunandan sonra başlamışdır. O vaxt mən demişdim ki, biz qara qızılı insan kapitalına çevirməliyik və Oğuz-Qəbələ-Bakı su kəməri bunun əyani sübutudur. Çünki bizim neft gəlirlərimiz 2006-cı ildən sonra ölkəyə gəlməyə başlamışdır. O vaxt Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara verildi. O zaman bizim gəlirlərimiz, əlbəttə ki, çox aşağı səviyyədə idi. Ancaq, ilk növbədə, biz bu gəlirləri məcburi köçkünlərin problemlərinin və su məsələlərinin həllinə yönəltdik. İndi mütəxəssislər yaxşı bilirlər ki, əgər bu gün Oğuz-Qəbələ-Bakı su kəməri olmasaydı, Bakı şəhərinin su problemləri çox kəskinləşə bilərdi".

### "İmkan vermək olmaz ki, xərclər süni şəkildə şişirdilsin"

Dövlət başçısı qeyd edib ki, su ehtiyatlarının qiymətləndirilməsində və su ehtiyatlarını artırma ehtimalının dəyərləndirilməsində və bütün digər işlərdə alimlər mütləq iştirak etməlidirlər: "Hesab edirəm ki, bütün bu işlərdə aidiyyəti qurumlarla yanaşı, ictimaiyyət nümayəndələri də iştirak etməlidir. Komissiya öz işinə ictimaiyyət nümayəndələrini də cəlb etsin. İlk növbədə, alimlər bu işlərdə fəal rol oynamalıdırlar".

Dövlət başçısı sözügedən məsələyə mütəxəsislərlə yanaşı vətəndaş cəmiyyəti və mətbuat nümayəndələrinin də iştirakının vacib olduğunu deyib: "Bu işlərə ekologiya üzrə mütəxəssisləri mütləq cəlb edin. Biz sudan elə istifadə etməliyik ki, bunun ekoloji tarazlığa mənfi təsiri olmasın. Çünki biz tarixdən bilirik ki, bəzi ölkələrdə böyük su layihələri icra edilirdi. Amma mənbələr və su ehtiyatları düzgün təhlil edilmirdi. Ona görə indi suvarma üçün bunun yaxşı təsiri olubdur, amma ekoloji vəziyyəti gərginləşdiribdir. Ona görə mütləq ekologiya üzrə mütəxəssislər cəlb edilməlidir. Qeyri-hökumət təşkilatlarını cəlb edin. Vətəndaş cəmiyyəti nümayəndələri də bu işlərdə fəal olsunlar. Sizin bəlkə də görə bilmədiyiniz məsələləri onlar diqqətə çatdıracaqlar. Media nümayəndələrini cəlb edin. Hesab edirəm ki, geniş mətbuat konfransı keçirilməlidir. Ümumiyyətlə, bütün dövlət qurumları mətbuatla çox sıx əlaqədə olmalıdır. Görülmüş işlər haqqında müntəzəm olaraq məlumat verməlidirlər".

"Bizim bu müşavirəmiz də bir növ vətəndaşlara verilən hesabatdır"-deyən dövlət başçısı onu da deyib ki, onlardan təkliflərin verilməsi işlərin müsbət həllində öz təsirini göstərə bilər: "Eyni zamanda, vətəndaşlar bilsinlər ki, biz hansı işləri görməyi planlaşdırırıq, onlardan da təkliflər gözləyirik. Çünki əgər bu müşavirələri biz qapalı şəkildə keçirsək, heç kim bilməyəcək, onda yerlərdən təkliflər gəlməyəcək. Ona görə bu müşavirə də ictimaiyyət üçün açıq olacaq. Yerlərdən təkliflər, əlbəttə, hesab edirəm ki, işimizə kömək göstərəcək".

**RƏFİQƏ KAMALQIZI**

# “SƏS” qəzetinin kollektivi adından Prezident İlham Əliyevə minnətdarlıq məktubu ünvanlanıb

Məlum olduğu kimi, iyulun 22-də prezident İlham Əliyev Milli Mətbuatın 145 illik yubileyi münasibətilə bir sıra sərəncamlar imzalayıb və həmin sərəncamlara müvafiq olaraq KİV əməkdaşları fəxri adlara və təltiflərə layiq görülüblər. Sevindirici və qürurverici haldır ki, belə bir yüksək qiymətləndirmə “SƏS” qəzetinə də nəsib olub. Belə ki, “SƏS” qəzetinin baş redaktoru Bəhruz Quliyev “Əməkdar jurnalist”, qəzetin informasiya şöbəsinin müdiri Rəfiqə Hüseynova isə “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif olunublar. Söz yox ki, təltif edilən hər bir həmkarlarımız kimi, bizlər də göstərilən diqqətə və verilən yüksək qiymətə görə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə öz dərin minnətdarlığımızı Ona ünvanladığımız təşəkkür məktubu ilə bildirməklə yanaşı, daim Ulu Öndər Heydər Əliyev ideyalarına və bu ideyaların Prezident İlham Əliyev cənabları tərəfindən davamı siyasətinə sadiq qalacağımızı əminliklə vurğulamışıq:




Möhtərəm cənab Prezident.

Ümummilli Liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı kimi Siz hər zaman mətbuatın inkişafına və tərəqqisinə olan dəstəyinizi göstərməklə yanaşı, jurnalistləri ən yaxın köməkçiləriniz kimi qiymətləndirmisiniz. Mətbuatımızın yubileylərinin qeyd edilməsində, media nümayəndələrinin təltif olunmasında, jurnalistlərin sosial və mənzil-məişət probleminin həlli istiqamətində daim təqdirəlayiq addımlar atmağınızla yanaşı, həm də öz qayğınızı əsirgəməmisiniz. Bu sahəyə aid imzaladığınız sərəncamlarınız və verdiyiniz mühüm qərarlarınız mətbuatımızın 145 illik yubileyində də öz təsdiqini tapmış oldu. Xüsusilə, dünyanı cənginə alan COVİD-19 pandemiyası və işğalçı Ermənistanın hərbi təxribatlarına qarşı mübarizə tədbirlərinin gücləndirildiyi bir vaxtda, Sizin mətbuat nümayəndələrini təltif etməyiniz bizlərə sonsuz fərəh və sevinc hissləri yaşatmış oldu. Müstəqil mətbuatımızın və Ulu Öndər Heydər Əliyev ideyalarına söykənən, eləcə də, dövlətçilik ənənələrimizin ilk carçılarından olan “SƏS” qəzetinin əməkdaşlarının da bu sırada yer alması bizə ikiqat sevinc yaşatmış oldu. Əməyimizə verdiyiniz yüksək qiymətə görə, Sizə öz dərin minnətdarlığımızı bildiririk. Sizi əmin edirik ki, “SƏS” qəzetinin kollektivi öz dövlətçilik mübarizəsi ənənəsi ilə bundan sonra da həyata keçirdiyiniz siyasəti var gücü ilə dəstəkləyəcək, öncül təbliğatçınız və əqidə dəstəkçiniz olmaqla sədaqətini nümayiş etdirəcək.

Möhtərəm Zati Aliləri.

Sizə ölkəmizin tərəqqisi, dövlətçiliyimizin və müstəqilliyimizin möhkəmləndirilməsi işinizdəki yorulmaz fəaliyyətinizdə davamlı uğurlar, qələbə və zəfərlər arzu edirik.

Hörmətlə,

*“SƏS” qəzetinin kollektivi adından*
*Bəhruz Quliyev*

# Rumıniyanın “News24hours” xəbər portalı Ermənistan təxribatı barədə məqalə yayıb

Rumıniyanın nüfuzlu “News-24hours.ro” xəbər portalı Azərbaycanın Rumıniyadakı səfiri Hüseyn Nəcəfovun “Ermənistanın növbəti təxribatının arxasında nə dayanıb?” sərlövhəli geniş məqaləsini dərc edib. Məqalədə iyulun 12-də Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə Ermənistan və Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycanın mövqelərini atəşə tutduğu, cavab atəşi nəticəsində Ermənistanın hücum və strateji əhəmiyyətli yeni ərazilərin ələ keçirilməsi cəhdinin qarşısının alındığı vurğulanıb. H.Nəcəfov Ermənistan silahlı qüvvələrinin Azərbaycan mövqelərinə atəş açdığını və 12 hərbçimizin həlak olduğunu, habelə məqsədyönlü şəkildə Azərbaycanın yaşayış məntəqələrini və mülki insanları hədəfə aldığını, 76 yaşlı mülki şəxsin həlak olduğunu, çox sayda yaralıların olduğunu bildirib. Bu təxribatın düşünülmüş təcavüz aktı kimi qiymətləndirildiyini bildirən diplomat Ermənistanın bu yolla Dağlıq Qarabağ münaqişəsindən diqqəti yayındırmağa və danışıqlar prosesini pozmağa çalışdığını, regionda yeni gərginlik ocağı yaratmağa cəhd göstərdiyini, üçüncü tərəfləri və üzv olduğu hərbi-siyasi təşkilatı Ermənistan-Azərbaycan münaqişəsinə cəlb etməyə və Azərbaycana qarşı törətdiyi işğal və təcavüzün məsuliyyətindən boyun qaçırmağa çalışdığını, eyni zamanda, Şərq-Qərb dəhlizi və Azərbaycanın neft-qaz kəmərlərinə təhlükə yaratmağa səy göstərdiyini və gərginlik yaratmaqla Ermənistanın ölkədaxili ciddi sosial-iqtisadi problemlərdən diqqəti yayındırmağa çalışdığını qeyd edib. Azərbaycanın Tovuz rayonunun böyük regional layihələrin icrası baxımından strateji əhəmiyyətə malik olduğu, Avropanın enerji təhlükəsizliyinin şaxələndirilməsinə töhfə verməklə Azərbaycanın enerji ehtiyatlarının dünya bazarına çıxarılması üçün bütün infrastrukturun bu bölgədə yerləşdiyi qeyd edilərək, dövlət sərhədinin bu hissəsində strateji yüksəkliklərin ələ keçiriləcəyi təqdirdə, Ermənistanın Azərbaycan üçün əhəmiyyətli enerji və nəqliyyat kommunikasiyalarını təhdid edə biləcəyi vurğulanıb. Bundan əlavə, Ermənistan tərəfindən Mingəçevir Su Elektrik Stansiyasının bəndini raket zərbələri ilə məhv etmək təhlükəsinin dəfələrlə ifadə olunduğu, Naxçıvana və Azərbaycanın digər ərazilərinə iddiaların irəli sürüldüyü diqqətə çatdırılıb.




Məqalədə Ermənistanın təxribatlarına qarşı Bakının mərkəzində, eləcə də respublikamızın digər şəhər və rayonlarında Azərbaycan Prezidentinə və Milli Ordumuza dəstək yürüşlərinin keçirildiyi, 50 mindən çox Azərbaycan vətəndaşının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin bölmələrinə müraciət edərək könüllü şəkildə orduda xidmət etmək və hərbi əməliyyatlarda iştirak etmək arzusunda olaraq qeydiyyatdan keçdiyi bildirilib. Son günlərdə dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların Ermənistanın təxribatlarına qarşı keçirdikləri etiraz aksiyaları barədə məlumatlar öz əksini tapıb. Qeyd olunub ki, Amerikanın Los-Anceles şəhərində və bəzi Avropa ölkələrinin paytaxtlarında azərbaycanlıların öz Vətənini dəstəkləmək üçün müvafiq dövlət orqanları ilə əvvəlcədən razılaşdırılmış dinc, vətənpərvərlik aksiyaları erməni diasporunun nümayəndələri tərəfindən fiziki zorakılıq, aqressiya və qeyri-insani nifrət hissi ilə üzləşib. Yaxşı hazırlıq və təlim keçmiş təhrikçilər dinc nümayişçilərə hücum çəkərək onlara xəsarət yetiriblər. Bir sıra hallarda aqressiv erməni qrupları həmin vaxt azlıqda qaldığına görə azğınlaşmış kütləyə müqavimət göstərə bilməyən azərbaycanlılara hücum ediblər. Həmçinin, Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən təcavüzünün və sərhəddə törətdiyi təxribatların bütün hüquq normalarına zidd olduğu, Ermənistanın BMT Nizamnaməsini və beynəlxalq hüququn prinsiplərini kobud şəkildə pozaraq Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətrafındakı yeddi rayonunu işğal etdiyi, bu ərazilərdə yaşayan bir milyondan çox azərbaycanlının etnik təmizləməyə məruz qaldığı, BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qəbul etdiyi qətnamələrdə Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğu, Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin və sərhədlərinin toxunulmazlığının bir daha təsdiq edildiyi, erməni işğalçı qoşunlarının Azərbaycan Respublikasının işğal edilmiş bütün ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasının tələb edildiyi, qaçqın və məcburi köçkünlərin geri dönmələrini təmin etməklə, regionda qarşılıqlı əlaqələrin bərpasına çağırıldığı diqqətə çatdırılıb. Eyni zamanda, müxtəlif beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən çoxsaylı sənədlərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyinin əks olunduğu qeyd edilib. Ermənistanın sərhəddə törətdiyi təxribatların rəsmi Yerevanın Ermənistan-Azərbaycan münaqişəsinin danışıqlar yolu ilə həllində maraqlı olmamasının növbəti sübutu kimi dəyərləndirilib və bu təcavüz aktının məsuliyyətinin Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyü, Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinə qarşı layiqli cavab zərbəsi ilə sərhədlərimizin toxunulmazlığını və mülki əhalinin qorunmasını təmin etdiyi vurğulanıb.

# Amerikalı israillilərin ən böyük təşkilatı Los-Ancelesdə azərbaycanlılara qarşı erməni vəhşiliklərini pislədi

***Amerikalı israillilərin ən böyük təşkilatı olan nüfuzlu İsrail-Amerika Şurası (IAC) iyulun 21-də Azərbaycanın Los-Ancelesdəki baş konsulluğunun qarşısında erməni daşnaklarının Azərbaycan icmasının üzvlərinə qarşı törətdikləri vəhşilikləri pisləyib.***

Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan AZƏRTAC-a verilən məlumata görə, IAC-ın yaydığı açıqlamada Baş Konsulluğun qarşısında toplaşmış azərbaycanlılara hücumun qəbuledilməz olduğu bildirilib. Həmçinin, təhlükəsiz şəkildə söz və toplaşmaq azadlığının qorunub saxlanılmasının vacibliyi diqqətə çatdırılıb və dinc nümayişçilərə qarşı zorakılığın ABŞ cəmiyyətinə və demokratik dəyərlərə təhdid olduğu qeyd edilib. Sonda təşkilat xəsarət alanların tez bir zamanda sağalmasını diləyib və hüquq-mühafizə orqanlarının bu istintaq işini yekunlaşdıracağına və onun nəticələrinə uyğun qətiyyətlə hərəkət edəcəyinə əminliyini ifadə edib.




Qeyd edək ki, Los-Ancelesdə fəaliyyət göstərən IAC dünyada ən sürətlə inkişaf edən yəhudi təşkilatıdır. 2007-ci ildə yaradılmış IAC 250 minə yaxın amerikalı israillini özündə birləşdirir. Los-Ancelesdəki baş konsulluğumuz bu təşkilatla uzun illərdən bəri sıx dostluq münasibətləri saxlayır.

# Avstraliya nəşri: Ermənilər "ASALA"-nı bərpa edir




Avstraliyada ingilis dilində nəşr olunan "Turkish news press" qəzeti Sidneydə fəaliyyət göstərən Avstraliya Azərbaycanlıları Assosiasiyasının (AAA) bu ölkənin federal parlamentinə müraciəti əsasında ermənilərin "ASALA" terror təşkilatını bərpa etmək niyyəti barədə məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, "ASALA" qayıdır!" adlı məqalədə iyulun 12-dən 16-dək Ermənistan silahlı qüvvələrinin Tovuz rayonu istiqamətində Azərbaycanla sərhəddə törətdiyi hərbi təxribatla bağlı dünyanın bir sıra ölkələrində yaşayan ermənilərin bu ölkələrdəki azərbaycanlılara qarşı təcavüz və vandalizm aktlarına dair məlumatlara geniş yer verilib. Qeyd edilir ki, ABŞ-ın Los-Anceles şəhərində keçirilən aksiya zamanı erməni gənclərin üzərində "ASALA" ("Ermənistanın azadlığı uğrunda erməni məxfi ordusu") yazılmış köynəklər geyərək hərəkət etməsi barədə internetdə yayılan fotolar böyük narahatlıq doğurur. Həmin aksiya zamanı 3 mindən çox erməninin polis səddini aşaraq oradakı 50 azərbaycanlıya hücum etməsi avstraliyalı oxucuların diqqətinə çatdırılır. Bildirilir ki, bu hücum nəticəsində ağır xəsarət alan altı nəfər, o cümlədən azərbaycanlı qadınlar xəstəxanaya yerləşdiriliblər. Buna bənzər cinayətlər Avropanın müxtəlif şəhərlərində də törədilib. Hazırda Los-Anceles polisi həmin hücumu azərbaycanlılara qarşı nifrət zəminində törədilmiş cinayət kimi araşdırır.

Məqalədə iyulun 12-dən sonra internetdə Avropanın bir çox şəhərlərində ermənilərin dinc azərbaycanlı nümayişçilərə hücum etməsi barədə çoxsaylı videoların olduğuna diqqət yönəldilir. Qeyd olunur ki, həmin videolarda ermənilərin dinc azərbaycanlıları izləməsi və onlara xəsarət yetirməsi aydın görünür.

Yazıda uzun müddət dünya ölkələrində törətdiyi terror aktları ilə tanınan "ASALA" təşkilatı barədə ətraflı məlumat da öz əksini tapır. Diqqətə çatdırılır ki, ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsinin 1984-cü ildə tərtib etdiyi "Ermənistanın azadlığı uğrunda erməni məxfi ordusu: davam edən beynəlxalq təhlükə" adlı hesabatında bu təşkilatın törətdiyi cinayətlər barədə ətraflı məlumat verilir. Bildirilir ki, 1980-ci illərdə Avstraliyanın Sidney və Melburn şəhərlərində türk diplomatlara qarşı terror aktı törədilib. Həmin cinayətlərə görə məsuliyyəti "ASALA" öz üzərinə götürsə də, heç kim həbs olunmayıb.

Vurğulanır ki, həmin hadisələri bu gün də yaxşı xatırlayan Avstraliyanın türk və Azərbaycan icmasının üzvləri bu ölkənin hökumət strukturlarını, yerli əhalini, deputatları sayıqlıq nümayiş etdirməyə, erməni terrorunun qarşısını almağa çağırırlar.

Məqalədə, həmçinin Ermənistandan Azərbaycana qarşı işğalçı siyasəti dayandırması, qonşu dövlətlərin əraziləri hesabına "böyük Ermənistan dövləti" yaradılmasına xidmət edən siyasətindən əl çəkməsi tələb edilir. Qeyd edilir ki, bu regionda və bütün dünyada sülhün bərqərar olması məhz Ermənistanın öz işğalçı siyasətindən əl çəkməsi nəticəsində mümkün ola bilər. Məqaləyə erməni vandalizmini təsdiqləyən fotolar da əlavə olunub.

# Marqarita Simonyan: "Rusiyanın Ermənistana tüpürmək üçün mənəvi hüququ var"

RT-kanalının baş redaktoru Marqarita Simonyanın Ermənistan-Rusiya münasibətləri ilə bağlı postu erməni dairələrini və Ermənistanı kəskin şəkildə silkələyib. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Pashinyan RBK-TV-yə müsahibəsində deyib.

Xatırladaq ki, iyulun 18-də Marqarita Simonyan özünün Telegram kanalında Ermənistan hakimiyyətinə müraciət yazıb. "Rusiyadan davamlı şəkildə gördüyünüz yaxşılıq və müdafiəyə cavab olaraq Krımı tanımadınız. Çünki bu, Ermənistanın daxili işidir. Yalnız siyasi qisas naminə, Rusiyanın daimi müttəfiqi olan Robert Koçaryanı həbs etdiniz. Ölkənizdəki gənclərə Rusiyada hökuməti necə devirəcəyinizi öyrədən anti-Rusiya QHT-ləri formalaşdırdınız. Siz Qafqazda anti-Rusiya qüvvələri üçün tramplin oldunuz", deyə müraciətdə bildirilir. Marqarita Simonyan Rusiyanın bundan sonra Ermənistana qarşı nə etsə haqlı olduğunu vurğulayıb. "Sizin etdiyiniz hər şeydən sonra Rusiyanın sizə tüpürmək və sizi silib atmaq üçün mənəvi hüququ var", deyə kanalın baş redaktoru bəyan edib.

# Eldar İbrahimov: "Ermənilərin zorakılığı onların terrorçu mahiyyətini nümayiş etdirir"



"Ordumuzun düşmənə layiqli cavab verməsi Azərbaycan cəmiyyətində yüksək əhval-ruhiyyə yaradıb. O cümlədən, xaricdə yaşayan soydaşlarımız bu günlərdə dövlətimizlə, ordumuzla dinc həmrəylik nümayişləri keçirərək düşmənin işğalçılıq siyasətini, Tovuz istiqamətində törətdiyi növbəti təxribatı pisləyirlər. Soydaşlarımızın yaşadıqları ölkələrin qanunları çərçivəsində belə dinc aksiyalar keçirmələri onların vətənpərvərliyini təcəssüm etdirməklə yanaşı, həm də müstəsna hüquqlarıdır. Ermənilərin isə xaricdə yaşayan soydaşlarımızın keçirdikləri belə dinc aksiyalara dözümsüz yanaşmaları onların əsl simasını, terrorçu mahiyyətlərini açıb göstərir. Son bir həftə ərzində Azərbaycanın Fransa, Böyük Britaniya, İsveç, Polşa, Avstraliya, ABŞ, Niderland və Belçikada diplomatik nümayəndəliklərinə, həmçinin dinc aksiya keçirən soydaşlarımıza qarşı radikal erməni qüvvələri tərəfindən son dərəcə aqressiv təxribatçı əməllər törədilir". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin İntizam komissiyasının sədri, Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü Eldar İbrahimov deyib.

E.İbrahimov bildirib ki, dövlət sərhədinin Tovuz istiqamətində törədilən son təxribatın bütün məsuliyyəti düşmən dövlətin hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Eyni zamanda, respublikamızın bir sıra ölkələrdəki diplomatik nümayəndəliklərinə və aksiya keçirən dinc azərbaycanlılara qarşı törədilən təxribat və terror hadisələri də Ermənistan rəhbərliyinin təşəbbüsü ilə baş tutur. Rəsmi Yerevan xarici ölkələrdə azərbaycanlılara qarşı terroru sanksiyalaşdırıb və beynəlxalq miqyasda ermənilərin azərbaycanlılara qarşı yeni terror dalğası başlayıb.

Erməni təxribatlarının ara verməyinə diqqət çəkən E.İbrahimov bildirib ki, işğalçı dövlətin baş naziri Nikol Paşinyan, əslində, azərbaycanlılara qarşı yeni etnik müharibə elan edib. İşğalçılıq siyasətini dövlət siyasəti səviyyəsinə yüksəldən Ermənistanın silahlı qüvvələri Azərbaycanla açıq döyüşlərdə uğur qazana bilməyib. Buna görə də düşmən tərəf öz mənfur planlarını həyata keçirmək üçün daim təxribatlara və terror əməllərinə əl atır. Bunu son hadisələr də bir daha təsdiqləyir.

Millət vəkilinin sözlərinə görə, döyüş meydanında lazımi dərsini alan düşmən, necə deyərlər, bundan sonra cəbhəni dəyişib: "Azərbaycanın diplomatik nümayəndəliklərinin binalarına, eləcə də dinc azərbaycanlı nümayişçilərə qarşı törədilən təxribatlar özündə vandalizm və terror elementlərini ehtiva edir. Ermənilərin Azərbaycanın xarici ölkələrdəki səfirliklərinə və soydaşlarımıza qarşı təxribatlara əl atmaları açıq-aydın cinayət məsuliyyəti doğuran əməllərdir. Çoxsaylı aksiya iştirakçılarına ermənilər tərəfindən fiziki güc tətbiq olunub, onlara xəsarət yetirilib, sərbəst toplaşmaq və öz fikirlərini ifadə etmək hüquqları pozulub. Bu hadisələrə həmin ölkələrin hüquq-mühafizə orqanları hüquqi qiymət verməlidir. Həmçinin, hesab edirəm ki, soydaşlarımız ermənilərin təxribatına uymamalı, bütün addımları qanun çərçivəsində atmalıdırlar. Bugünlərdə respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın həmvətənlərimizə müraciəti də bu baxımdan olduqca önəmlidir".

# Zakir Həsənov Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edib



Müdafiə naziri general-polkovnik Zakir Həsənov Qurban bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edib. SİA xəbər verir ki, təbrikdə deyilir: "Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki əməkdaşlar!

Müsəlman dünyasının mənəvi birlik, həmrəylik, qardaşlıq rəmzi olan Qurban bayramı münasibətilə Sizi ürəkdən təbrik edir, müqəddəs və şərəfli xidmətinizdə hər birinizə uğurlar arzulayıram. Mütərəqqi islami dəyər və ənənələrin uca tutulduğu Azərbaycanda dövlət səviyyəsində, ümumxalq bayramı kimi qeyd olunan Müqəddəs Qurban bayramı cəmiyyətimizdə milli-mənəvi dəyərlərə möhkəm bağlılığın, humanizm, xeyirxahlıq və mərhəmət duyğularının təntənəsidir. Azərbaycana rəhbərliyinin bütün dövrlərində ümummilli lider Heydər Əliyevin apardığı dövlət quruculuğu siyasəti, azərbaycançılıq ideyası milli-mənəvi amilləri yüksək tutaraq adət-ənənələrimizin, islami və bəşəri dəyərlərin qorunub saxlanmasına xidmət etmişdir. Ulu Öndərin layiqli varisi möhtərəm Prezident cənab İlham Əliyevin bu gün davam etdirdiyi uğurlu siyasət nəticəsində dövlətçiliyimizin iqtisadi dayaqları daha da möhkəmlənib. Azərbaycan demokratik dövlət quruculuğu prosesində böyük nailiyyətlər əldə etmiş, islami və bəşəri, milli-mənəvi dəyərlərə hörmətlə yanaşan, humanist, tolerant dövlət olaraq dünyada şöhrət qazanmışdır.

Bu müqəddəs bayram günündə Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsini hörmətlə yad edir, onların ailə üzvlərini və yaxınlarını, bu yolda sağlamlığını itirmiş silahdaşlarımızı və əziz veteranları Qurban bayramı münasibətilə səmimi qəlbdən təbrik edirəm. Əminəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrə bundan sonra da sadiq qalan şəxsi heyət döyüş və mənəvi-psixoloji hazırlığını daha da artıraraq Ali Baş Komandanın rəhbərliyi altında hər an döyüşlərə hazır olacaqdır. Sizi Müqəddəs Qurban bayramı münasibətilə bir daha ürəkdən təbrik edir, hamınıza möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə müvəffəqiyyətlər arzulayıram. Bayramınız mübarək olsun!".

# XİN: "Ermənistanın təxribatı öncədən planlaşdırılmış təcavüz aktı idi"



"Təcavüzkar və ilhaqçı siyasəti, hərbi təxribatları, mülki şəxsləri hədəfə alaraq, o cümlədən, beynəlxalq humanitar hüququ tapdalayan, gündəlik əsasda cəbhənin müxtəlif istiqamətlərində atəşkəsi kobudcasına pozan, bölgədə gərginliyin alovlanması məsuliyyətini bilavasitə daşıyan Ermənistanın nə atəşkəsə riayət olunmasından, nə də təxribatçı əməllərdən çəkinməkdən danışmağa haqqı var".

XəzərXəbər-in məlumatına görə, Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayevanın bəyanatında bu fikirləri səsləndirib. L.Abdullayeva söyləyib ki, bu ilin 12 iyulunda Azərbaycanın Tovuz rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin törətdiyi hərbi təxribat öncədən planlaşdırılmış növbəti təcavüz aktı idi. "Bu gücdən istifadə cəhdinin bütün məsuliyyəti Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərindədir.

Ermənistan rəhbərliyinin danışıqlar prosesinin formatını və mahiyyətini qəsdən pozmağa yönəlmiş siyasəti və ziddiyyətli açıqlamaları açıq şəkildə nümayiş etdirir ki, bu ölkə işğala əsaslanan status-kvo vəziyyətinin möhkəmləndirilməsinə çalışır.

Lakin vurğulamaq istərdik ki, təcavüzkar Ermənistanın danışıqlara hər hansı qeyd-şərt qoymaq və danışıqların formatını dəyişdirmək cəhdləri qəbuledilməzdir", - deyə L.Abdullayeva əlavə edib.

XİN rəsmisi vurğulayıb ki, Azərbaycanın işğal olunmuş ərazilərindəki mövcud status-kvo vəziyyəti qəbuledilməzdir: "Çünki o, regional sülh və təhlükəsizlik üçün ciddi təhdid təşkil edir. İşğala əsaslanan status-kvonun dəyişdirilməsi üçün Ermənistan qoşunları BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq Azərbaycanın bütün işğal olunmuş ərazilərindən çıxarılmalıdır".

# Təklənmiş Ermənistan Azərbaycan və Türkiyənin hərbi gücü qarşısında diz çökür

*KİV-lər Paşinyanın adamlarının yalanlarını üzlərinə vurur və ölkələrinin ciddi təhlükə altına düşdüyünü car çəkirlər*

***Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin nəhəng miqyaslı hərbi təlimətə start verməsi xəbəri işğalçı Ermənistanın hərbi-siyasi dairələrini ciddi şəkildə narahat etməyə başlayıb. Belə ki, reallıqdan çıxış edən bir sıra erməni şərhçiləri hakimiyyətə yaxın deputat və siyasi təhlilçilərdən fərqli olaraq, hadisələrin heç də onların xeyrinə inkişaf etmədiyini etiraf edirlər. SİA xəbər verir ki, bu barədə armenianreportun təqdim etdiyi məqaləsində də qeyd edilir. Belə ki, parlamentin "Mənim addımım" fraksiyasının rəhbəri, baş nazir Nikol Paşinyanın ən yaxın adamı kimi tanınan deputat Lilit Makuntsun sözügedən hərbi təlimlərin ölkəsində təlaş yaratmaması üçün irəli sürdüyü gülünc iddialarına, məhz adıçəkilən erməni saytındakı məqalədə dolğun cavab verilib.***

**Armenianreport "Mənim addımım" blokunun rəhbəri Lilit Makuntsun yalanlarını üzünə çırpır**

Qeyd edək ki, L.Makunts bir müddət əvvəl sərsəmləyərək, Azərbaycanın guya öz Silahlı Qüvvələrinə etibarının olmamasına görə Türkiyəni münaqişəyə (Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ-R.R.) cəlb etməsi istiqamətində addımlar atdığını bildirmişdi. O, hətta Türkiyənin bu addıma getməyəcəyini də iddia edərək bildirmişdi ki, adıçəkilən ölkə tərəf kimi münaqişədə iştirak etməyəcək və s. Amma...

Amma Ermənistanda çox insan bu fikirlərlə razı deyil və bu xüsusda armenianreportdakı qeydləri incələyəməyə dəyər. Misal üçün, məqalədə qeyd olunur ki, məhz L.Makuntsun öz fikirlərini səsləndirdiyi gün Azərbaycanın Müdafiə Nazirliyi Azərbaycan və Türkiyə arasında olan hərbi əməkdaşlığa müvafiq olaraq, Naxçıvanda quru qoşunlarının və hərbi hava qüvvələrinin birgə iştirakı ilə iri miqyaslı, habelə döyüş atışları ilə taktiki yay təlimləri keçiriləcək. Birgə təlimlərdə hər iki ölkənin ordularına məxsus şəxsi heyət, zirehli texnika, artilleriya qurğuları və minomyotlar, eləcə də hərbi aviasiya, havadan müdafiə vasitələri cəlb olunacaq.

**Erməni müəllif: "Məhz həmin şərti düşmən bizim ordudur və bu, gerçəkləşmiş faktdır"**

SİTAT: "Yəni türk qoşunları atrıq Naxçıvandadır. Əgər bu, türk tərəfinin Ermənistana yaratdığı təhlükəsi demək deyilsə, bəs nədir?! Bilmirəm, xanım Makunts kursdadır ya yox, amma bu kimi təlimlər şərti düşmənə qarşı keçirilir. Məhz həmin şərti düşmən bizim ordudur və bu, gerçəkələşmiş faktdır. Hansı ki, Azərbaycan-Türkiyə birgə zərbələri bizim ölkəmizin ərazisinə ən rahat şəkildə vurula bilər. Bundan əlavə, rəsmi Ankara heç vaxt öz planlarını gizlətməyib. Bu baxımdan, "Mənim addımım" fraksiyanın rəhbərinə yenidən nələrisə xatırlatmağa məcburam".

**"Rusiya və KTMT Türkiyənin sərt bəyanatlarına adekvat cavab vermədi"**

Müəllif yazmağa davam edir: "Türkiyə heç vaxt və heç zaman dost və qardaş xalqları təhlükələrlə təkbaşına buraxmayacaq" - prezident Rəcəb Tayyib Ərdoğan Ankarada Türkiyənin dövlət idarəçiliyinin dəyişdirilməsinin 2-ci ildönümündəki mərasimdə çıxış edərkən bəyan edib. "Suriyanın şimalında və Liviyada olduğu kimi, dostlarımızın köməyinə çatmaq üçün qərarlıyıq. Türkiyə Ermənistanın hücumları fonunda təxirə salınmadan Azərbaycanı dəstəkləyəcək", türkiyəli prezident deyib. Ermənistana bundan da açıq şəkildə təhdid ayrı cür necə izah etmək olar?! Halbuki, qeyd etmək istərdim, Rusiya və KTMT-də olan müttəfiq ölkələr tərəfindən adekvat olaraq bu kimi sərt cavablar verilmədi. Eləcə də NATO rəhbərliyi cavab vermədi, ancaq məntiqlə yanaşdıqda, biz bu alyansın üzvü olan ölkə tərəfindən təhdid olunmuşuq. Özü də Türkiyə tərəfindən bu cür bəyanatların sayı kifayət qədərdir. Məgər L.Makunts bütün bunları görməyib?! Məgər hakimiyyətdə olarkən başını quma salmaq istəyi problemin həllinə zəmanət verir?!"







**Erməni müəllif məhz erməni həyasızlığı ilə dünya ictimaiyyətnin baş verənlərə biganə qaldığını şikayət edib**

Armenianreport xatırladır ki, bu yaxınlarda Azərbaycanın müdafiə nazirinin müavinləri - general-polkovnik Kərəm Mustafayev və digər müavini, general-leytenant Ramiz Tahirov Türkiyəyə səfər etmişdilər. Erməni müəllif həmin səfərin Tovuzda baş verən hadisələr zamanı reallaşdığını qeyd edərək yazır ki, hakimiyyət bundan da nəticə çıxarmalı idi. "Lakin onlar (erməni hökuməti-R.R.) lazım olan tərzdə reaksiya vermədilər", müəllif yazır: "Ancaq həmin vaxt azərbaycanlı hərbi məmurlar Tütkiyənin müdafiə sənayesinin direktoru İsmayıl Demirlə görüşüblər. Hansı ki, bu görüşdən sonra o özünün Tvitter səhifəsində yazımışdı: "Bizim PUA-lar, bizim raketlər Azərbaycanın xidmətindədir".

Müəllif bu fikirləri təbii ki, erməni həyasızlığı ilə öz ölkəsinə təhdid kimi qiymətləndirib və eyni zamanda, həmin Türkiyənin NATO-nun üzvü olduğunu xatırladıb. Eyni zamanda, bu halda da dünya ictimaiyyətinin (?!) adekvat reaksiyasının olmamasını şikayət edib.

**Erməni müəllif davam edir: "Qələbə onda olur ki, düşmənin strateji yüksəkliklər ələ keçirilir, bu isə baş verməyib"**

"Ancaq bunun yerinə, "Mənim addımım" fraksiyasının rəhbərliyi tərəfindən qeyri-adekvat reaksiya var", xatırladan armenianreport yazır ki, onlar Türkiyənin tərəf kimi münaqişədə iştirak etməməsi qənaətindədirlər: "Mən sadəcə ən kiçik məna axtarmağa çalışıram ki, onlar öz rəhbərləri qarşısında xidmət göstərmək üçün öz bəyanatlarında nəyi demək istəyiblər? Bu, nəinki səhv fikirdir, həm də kritik və təhlükəli yoldur".

Armenianreportun müəllifi hakimiyyətin ölkədə eyforiya atmosferi yaratmağa çalışdıqlarını da yazaraq qeyd edir ki, baş verən hadisələrdə qələbə əldə olunmayıb və heç bir yüksəklik və s. ələ alınmayıb. SİTAT: "Qələbə onda olur ki, düşmənin strateji yüksəklikləri ələ keçirilir, bu isə baş verməyib. Qarşı tərəfin hərbi əməliyyatlardan imtinası, daha müfəssəl desək, kampitulyasiyası da olmayıb..."

**Real və dürüst etiraf: "Biz bir dəfə Azərbaycan Ordusunu doğru-dürüst qiymətləndirməməyimizin ağır nəticəsini görmüşük"**

Erməni təhlilçi bütün bunların yerinə Azərbaycanın türk müttəfiqləri ilə birgə gücünü artırdığını bildirir və bu gücün Ermənistana, eləcə də "DQR"ə təhlükə saçdığını etiraf edib. O cümlədən, Paşinyan hakimiyyətinin mövcud təhlükəni rədd etməsini səhv və cinayət adlandırıb. Lakin bu da son deyil...

Armenianreport Azərbaycan Ordusunun 2016-cı il Aprel zəfərini də xatırladıb. SİTAT: "Biz bir dəfə Azərbaycan Ordusunu doğru-dürüst qiymətləndirməməyimizin ağır nəticəsini görmüşük. Haraya çevirsək də, 2016-cı ilin aprelində düşmən bir sıra əraziləri tutmağa müvəffəq oldu. İndi isə o açıq şəkildə həmin istiqamətdə vurmaq niyyətindədir. Eyni zamanda, Naxçıvan istiqamətindən də. Və Türkiyə bu məsələdə açıq şəkildə dəstək göstərir və göstərməyə davam edəcək. Lakin gəlin-görək, Rusiyanın dəstəyi necə olacaq - bax bu, böyük sualdır. Xüsusilə, mövcud hakimiyyət (Paşinyan iqtidarı-R.R.) olmazın dərəcədə müttəfiqimizlə münasibətləri pozub. Ancaq Lilit Makunts əlbəttə ki, heç vaxt bu barədə danışmayacaq...".

***Rövşən RƏSULOV***




Patrimonio@ctual.com

La embajada de Azerbaiyán en España informa de nuevos ataques de Armenia a sus embajadas

Publicado por: admin en: 27 julio 2020 En: El Mundo al Día, Patrimonio Actual, Últimas Noticias Sin Comentarios

Embajada de Azerbaiyán en Australia

La última semana, han tenido lugar las acciones provocativas de carácter extremadamente agresivas perpetradas por los extremistas armenios contra los miembros de la comunidad azerbaiyana en el extranjero

La nota de prensa nos comunica que durante las manifestaciones pacíficas de la población civil contra la provocación militar de las fuerzas armadas de Armenia en la frontera estatal entre Armenia y Azerbaiyán en dirección a la región de Tovuz, el 12 de julio de este año, y contra las acciones agresivas contra las misiones diplomáticas de la República de Azerbaiyán.

Las provocaciones armenias con los elementos de vandalismo y terrorismo perpetradas contra los manifestantes azerbaiyanos que han expresado pacíficamente su postura y contra las sedes de las misiones diplomáticas de Azerbaiyán en Francia, Gran Bretaña, Suecia, Polonia, Australia, Estados Unidos, los Países Bajos, Bélgica están dirigidas deliberadamente contra la comunidad y los diplomáticos azerbaiyanos y sus bienes, por lo que son calificados como delitos penales.

Este vandalismo de los radicalistas armenios no es nuevo ni para Azerbaiyán, ni para otros países que enfrentan al terrorismo armenio. En los años 1970-1980, ASALA y otras organizaciones terroristas armenias mataron a más de 70 personas; perpetraron más de 235 atentados terroristas en 22 países, incluidos los atentados contra 24 diplomáticos turcos.

Tras la declaración de la independencia de la República de Armenia, en 1991, para realizar sus reclamaciones territoriales contra Azerbaiyán, el terrorismo se ha convertido en uno de los medios de aplicación de la política estatal. Los atentados terroristas armenias fueron ampliamente perpetrados durante la ocupación de Nagorno Karabaj y sus siete distritos adyacentes de Azerbaiyán, así como en las demás regiones de la República de Azerbaiyán.

Continúan comentando desde la misión diplomática en España: condenamos firmemente los crímenes de odio, perpetrados deliberadamente por los radicalistas armenios contra los diplomáticos azerbaiyanos y los miembros de las comunidades azerbaiyanas. Esperamos la actividad responsable de las autoridades encargados de garantizar la seguridad pública para atender de modo preventivo las acciones semejantes a las provocaciones en los países mencionados.

Recordamos que, conforme al Convenio sobre las Relaciones Diplomáticas, firmado en Viena en 1961, es responsabilidad del estado receptor garantizar la protección de las misiones diplomáticas de cualquier interferencia o daño, así como garantizar la seguridad, la inviolabilidad del diplomático y tomar medidas pertinentes para evitar cualquier agresión que afecte su identidad, libertad y honor.

La comunidad internacional exige que los actos de vandalismo perpetrados por los radicalistas armenios sean investigados por los organismos encargados de hacer cumplir la ley en los países mencionados y que se dé una valoración jurídica a los actos delictivos mencionados.

Síguenos en Facebook y Twitter

# İspaniya mətbuatı ermənilərin vandalizm aktlarını qınayır

İspaniyanın böyük oxuyucu auditoriyasına malik "Patrimonio Actual" və "Diplomat in Spain" internet portallarında radikal erməni qüvvələri tərəfindən Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə, Azərbaycan diasporunun üzvləri tərəfindən keçirilən aksiyalar zamanı dinc nümayişçilərə qarşı son dərəcə aqressiv təxribatçı əməllər törədilməsi kəskin şəkildə qınanılıb.

AZƏRTAC xəbər verir ki, məqalələrdə bu əməllərin özündə vandalizm və terror elementləri ehtiva etməklə cinayət məsuliyyəti doğurduğu qeyd olunur.

Vurğulanır ki, radikal erməni qüvvələri tərəfindən bu cür vandalizm əməlləri əvvəllər də törədilib. 1970-1980-ci illərdə ASALA və digər erməni terror təşkilatları 70-dən çox insanı qətlə yetirib, ümumilikdə 22 ölkədə 235-dən çox terror aktı həyata keçirib. Məqalələrdə xüsusi olaraq diqqətə çatdırılır ki, 1991-ci ildə Ermənistan Azərbaycana qarşı ərazi iddialarını həyata keçirmək məqsədilə terroru dövlət siyasəti vasitəsinə çevirib və Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və yeddi ətraf rayonunun işğalı prosesində ölkənin müxtəlif regionlarında terror vasitələrindən geniş istifadə edib, azərbaycanlı əhaliyə qarşı soyqırımı və etnik təmizləmə cinayətləri törədib. Yazılarda radikal erməni qruplarının azərbaycanlı diplomatlara, eləcə də bu ölkələrdəki azərbaycanlı icmaların üzvlərinə qarşı yönəlmiş, nifrətə əsaslanan cinayət əməlləri qətiyyətlə pislənilir, azərbaycanlılara qarşı erməni təxribatlarının törədildiyi ölkələrin aidiyyəti dövlət qurumlarının məsələyə tam məsuliyyətlə yanaşmalarının vacibliyi qeyd olunur.



# Azərbaycan və Türkiyə diasporlarının birgə fəaliyyəti müzakirə olunub

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Baş İdarəsinin rəhbəri Abdullah Erenlə videogörüşü keçirilib. Komitədən SİA-ya verilən məlumata görə, görüş zamanı Azərbaycanın Tovuz rayonu istiqamətində dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribat, hərbçilərimizin, mülki şəxslərin öldürülməsi, Ermənistanın işğalçı siyasətini davam etdirməsi ilə bağlı xaricdəki Azərbaycan icmalarının, diaspor təşkilatlarının keçirdiyi dinc aksiyalar barədə müzakirə aparılıb. Komitə sədri azərbaycanlıların müxtəlif xarici ölkələrdə dinc, icazəli, sivil formada keçirdikləri aksiyalar və bu aksiyalara əngəl törətmək istəyən ermənilərin təxribatçı hərəkətləri barədə məlumat verib. O, qeyd edib ki, ermənilər səfirliklər, konsulluqlar və nümayəndəliklərin binalarına hücum edir, müxtəlif vandalizm aktları törədir, azərbaycanlılara qarşı fiziki güc tətbiq edirlər. Faktlar sübut edir ki, ermənilər vandalizm aktlarını, təxribatçı hərəkətlərini öncədən planlaşdırırlar.

Belə bir görüş üçün təşəkkürünü bildirən Abdullah Eren, Türkiyə toplumunun hər zaman Azərbaycanın yanında olduğuna bütün dünyanın şahid olduğunu vurğulayıb və bundan sonra da hər iki ölkənin diaspor təşkilatlarının birgə fəaliyyətinin əhəmiyyətindən danışıb. Görüşdə xaricdəki Azərbaycan və Türkiyə icmalarının bundan sonrakı birliyinin YTB və Dövlət Komitəsinin koordinasiyası ilə həyata keçirilməsinin önəmi barədə geniş fikir mübadiləsi aparılıb, birgə tədbirlər planı müzakirə edilib.

# "Şəhid ailələrinə dövlət qayğısı Azərbaycanın daxili siyasətində prioritetdir"



"Prezident İlham Əliyevin Azərbaycan Respublikasının Tovuz rayonunun Ermənistan Respublikası Silahlı Qüvvələrinin intensiv atəşə tutması nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalaması bir daha göstərdi ki, Azərbaycan dövləti, Azərbaycan Prezidenti həmişə xalqın, vətəndaşın yanındadır". Bunu SİA-ya millət vəkili Anar Məmmədov deyib.

Deputatın sözlərinə görə, Prezidentin operativ reaksiyası xalqa göstərilən diqqətin daha bir bariz nümunəsidir: "Belə bir zamanda ölkə başçısının işlərin gedişini birbaşa nəzarətdə saxlaması, vəziyyətlə bilavasitə yerində tanış olmaq üçün hücuma məruz qalmış yaşayış məntəqələrində hərbi təcavüzdən zərər çəkmiş dinc əhalinin, onların əmlaklarının, dövlət obyektlərinin vəziyyətinin öyrənilməsi, ekspertlər tərəfindən obyektlərə müayinə və ekspertiza işlərinin aparılması, eyni zamanda dəymiş ziyanın qısa müddətdə qiymətləndirilməsi vətəndaşlarımız tərəfindən çox böyük razılıqla qarşılanır.

Bildiyimiz kimi Azərbaycanda həyata keçirilən uğurlu dövlət siyasətinin mərkəzində insan, vətəndaş amili dayanır. Atılan bütün addımlar, reallaşdırılan innovativ islahatlar insanların sosial rifahının daha da yaxşılaşdırılmasına, sosial müdafiəsinin etibarlı şəkildə təmin edilməsinə istiqamətlənib. Son illər möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən imzalanan fərman və sərəncamlara diqqət yetirsək, onların əksəriyyətinin sosial xarakterli olduğunu görərik. Şəhid ailələrinə diqqət və qayğı isə dövlət başçımızın xüsusi olaraq nəzarətindədir. Dövlətimiz Azərbaycanın ərazi bütövlüyü uğrunda vuruşanları, canını fəda edənləri heç vaxt unutmur, onlara və ailələrinə hər zaman həssaslıqla yanaşır. Tovuz rayonu istiqamətində döyüşlərdə də şəhid olan bütün hərbi qulluqçuların ailələrinin qayğıları öyrənilir və onların həlli istiqamətində addımlar atılır. Dövlət başçısı İlham Əliyevin tapşırığı ilə şəhid general Polad Həşimov və şəhid polkovnik İlqar Mirzəyevin ailəsinə ev verildi. Mehriban Əliyeva Tovuz istiqamətində şəhid olan 12 hərbçi ilə bağlı Heydər Əliyev Fonduna tapşırıq verdi. Eyni zamanda Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozması nəticəsində həlak olmuş şəhid hərbi qulluqçuların ailələrinin sosial müdafiəsinin, məşğulluğunun təmin edilməsi məqsədilə müvafiq tədbirlərə başlanıldı. Bütün bunlar isə bu kateqoriyadan olan insanlara nə qədər böyük qayğı, hörmət və ehtiram göstərildiyini sübut edir. Ümumiyyətlə, şəhid ailələrinə dövlət qayğısının göstərilməsi Azərbaycanın daxili siyasətində prioritetdir. Bu, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi-mənəvi yoldur. Hazırda Prezident İlham Əliyev tərəfindən bu siyasət uğurla davam etdirilir. 2003-cü ildən indiyə qədər bu istiqamətdə görülən işlər də bunun bariz nümunəsidir. Bütün bu addımlar ölkə başçısının xalqın qəlbindəki yerini daha əziz, əvəzedilməz edir, dünyaya əsl dövlət başçısı nümunəsini göstərir".

# "Daily Sabah" nəşri: "Zəifləyən Ermənistan iqtisadiyyatı işğalı davam etdirmək gücündə deyil"



Nüfuzlu "Daily Sabah" nəşrində "Zəifləyən Ermənistan iqtisadiyyatı işğalı davam etdirmək gücündə deyil" mövzusunda analitik məqalə çap olunub. SİA xəbər verir ki, məqalənin müəllifi Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru, iqtisad elmləri doktoru Vüsal Qasımlıdır.

Məqalədə deyilir ki, Ermənistan iqtisadiyyatı pandemiyanın təsiri altında turizm gəlirlərindən məhrum olub, aşağı qiymətlərə görə dağ-mədən sənayesi xammalı ixracının və emiqrantların pul köçürmələrinin azalmasından boğulur: "Ermənistan iqtisadi tənəzzülün qarşısını almaq, xüsusilə də büdcə kəsirini bağlamaq və xarici ödənişlərini etmək üçün Beynəlxalq Valyuta Fondundan Stand-By krediti almaq məcburiyyətində qalıb. Özü də bu kredit xətti Ermənistanın BVF-də olan 128 milyon SDR kvotasının 100 faizi həddindədir. Yəni Ermənistan ala biləcəyi ən yüksək borcu cəlb edir. Çünki COVİD-19-la yoluxma səviyyəsinə görə dünyada ən pis vəziyyətdə olan ölkələrdən sayılan Ermənistanın fiskal kəsiri bu il ÜDM-in 5 faizinə, borc yükü isə ÜDM-in 64,1 faizinə çatacaq."

Vüsal Qasımlı bildirib ki, Ermənistan borc aldığı BVF-nun və Dünya Bankının əsas səhmdarları olan Avropa ölkələri və ABŞ-ın maraqlarına qarşı çıxaraq Avropaya gedən əsas neft, qaz, nəqliyyat layihələrinin bir neçə kilometrliyində Azərbaycana qarşı hərbi təxribatlar törədir: "Axı, Azərbaycan məhz Ermənistanın təhdid etdiyi bu layihələri həyata keçirməklə Avropanın enerji, nəqliyyat və logistika təhlükəsizliyində rol oynayır. Avropa və Çindən başqa Avrasiyanı birləşdirən bu layihələrdə Mərkəzi Asiya və Yaxın Şərq ölkələri də maraqlıdır. Beləliklə, Ermənistanın təhdidi təkcə Azərbaycana deyil, böyük bir coğrafiyaya qarşıdır."

V.Qasımlının fikrincə, Ermənistanda iqtisadi artımın əsas drayveri istehlakdır: "Təsəvvür edin ki, Ermənistanda istehlakın iqtisadi artıma təsiri əsas kapitalın iqtisadi artıma təsirindən 11 dəfə və xalis ixracın iqtisadi artıma təsirindən isə 88 dəfə çoxdur. Bəs istehlak hardan formalaşır? Əlbəttə, xaricdən göndərilən pul köçürmələri və ev təsərrüfatlarına verilən kreditlər istehlakı dəstəkləyir. Məsələn, təkcə keçən il Ermənistanda ev təsərrüfatlarına verilən kreditlər 32 faiz və xaricdən pul köçürmələri isə 1,5 faiz artıb. İstehlak-əsaslı iqtisadi artım isə ölkənin milli təhlükəsizliyini və iqtisadi təhlükəsizliyini daim kənardan asılı vəziyyətə salır, iqtisadiyyatın immunitetini zəifledir, erməni dramının volatilliyini yüksəldir və cəmiyyətdə qeyri-bərabərlik yaradır. Bu gün rəsmi göstəricilərə əsasən, Ermənistanın hər dörd vətəndaşından biri yoxsulluq həddindən aşağıda yaşayır. Ermənistanda xalis miqrasiya dərəcəsi (immiqrantlarla emiqrantlar arasındakı fərq) hər min nəfərə mənfi işarə ilə 5,6-dır. Bu da Ermənistanda emiqrantların sayının immiqrantlardan hər 1000 nəfər üçün 5,6 dəfə çox olduğunu göstərir. Ermənistanda emiqrantların yaşı isə 15-65 arası dəyişir. Bu onu göstərir ki, həm gənclər, həm də yaşlılar üçün, yəni, daha geniş yaş spektrində olan vətəndaşlar üçün Ermənistanda yaşamaq və işləmək imkanları daha aşağıdır. Ermənistandan gedənlərə - emiqrantlara həm şəhər, həm də kənd yerlərində rast gəlinir. Digər bir fakt isə erməni emiqrantların daha çox qadın olmasıdır. Asiya İnkişaf Bankının araşdırmasına əsasən MDB ölkələri arasında yalnız Ermənistan bu göstərici ilə fərqlənir. Bu da faktiki olaraq ölkənin demoqrafik artımına mənfi təsir göstərir."

"İstehlakın yüksək səviyyəsi Ermənistanda yığımın ÜDM-dəki payını 2017-ci ildəki 16,3 faizdən ötən il 11 faizə endirib" - deyə, Vüsal Qasımlı fikrini davam etdirib: "Ermənistanda strateji ehtiyatlar bu il 2,2 milyard dollardan da aşağı düşəcək və 2025-ci ilə qədər BVF-nin proqnozuna görə heç zaman 2019-cu ilə səviyyəsinə çatmayacaq. Yığımla bərabər Ermənistanda sərmayə qoyuluşunun da ÜDM-də payı 2017-2020-ci illərdə 2,9 faiz azalıb, bu il daha da azalacağı proqnozlaşdırılır. Ermənistanın cari əməliyyatlar balansında ÜDM-in 8,2 faizi həddində kəsirin olması və bu kəsirin xroniki hal alması iqtisadi təhlükəsizliyi "plintusdan aşağı" həddə endirir. Cari əməliyyatlar hesabının kəsirini maliyyələşdirmək üçün dramın devalvasiyası Ermənistanda yoxsulluğu artırır. Cari kəsirin maliyyələşdirilməsi üçün xarici borc cəlbi isə bu ölkənin qəbul etdiyi fiskal qaydalara və borc strategiyasına ziddir. Xarici sərmayənin cəlbi yolu ilə isə cari əməliyyatlar hesabının kəsirini maliyyələşdirmək mümkün deyil. Çünki işğalçı siyasəti üzündən dörd sərhədindən ikisi bağlı, digər ikisi isə məhdud imkanlara malik olan Ermənistanda xarici sərmayə perspektivi zəifdir. Ermənistanın əsas strateji sahələri - dəmiryol, elektrik, qaz, dağ-mədən, telekommunikasiya və s. isə çoxdan öz inhisarçı sahiblərini tapıblar. Ermənistan iqtisadiyyatı xarici sərmayə üçün "doymuş məhlul"du. Əksinə bu il proqnozlaşdırılır ki, Ermənistanın maliyyə hesabı da qeyri-rezidentlərin depozitlərinin geri çəkməsi fonunda kəskin pisləşəcək."

O, həmçinin Ermənistanın əsas gəlir mənbələrinə də toxunub: "Ermənistanın ixrac gəlirlərinin illik 1 milyard dolları xammal şəklində dağ-mədən sənayesinin məhsullarıdır. Bu sahədə Paşinyan iqtidarının araşdırmalara başlaması sahiblərin dəyişdirilməsinə hesablanıb və investorların inamına zərbə vurur. Ölkəyə valyuta gətirən digər sahələr aqrar məhsulların ixracı və qumar oyunlarıdır. Hətta Ermənistanda qumar iqtisadiyyatının dövriyyəsi ölkənin hərbi büdcəsini üstələyir. Aqrar məhsulların isə bir bazardan - uzaq və çatılması məhdud olan Rusiya bazarından asılılığı bu sahənin davamlı inkişafına maneədir."

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə keçirilmiş 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr edilmiş Nazirlər Kabinetinin iclası, hər şeydən əvvəl, hazırda dünyanın qlobal pandemiya bəlası ilə üzləşdiyi çətin bir dövrdə ölkəmizdəki mövcud inkişaf proseslərinin dərindən təhlil edilib dəyərləndirilməsi, qazanılmış böyük uğurlarla yanaşı, qarşıda duran mühüm vəzifələrin müəyyən edilməsi baxımından əlamətdar hadisədir.***



*İsa HƏBİBBƏYLİ, AMEA-nın birinci vitse-prezidenti, Milli Məclisin deputatı, akademik*

# İlham Əliyevin qələbəsi

Ölkə Prezidentinin Sədrlik etdiyi Nazirlər Kabinetinin iclası Azərbaycan dövlətinin tarixinə pandemiya dövrünün sosial-iqtisadi inkişafının hesabatı kimi daxil olur. Çünki 2020-ci ilin birinci yarısının üç aydan artıq müddəti koronovirusla mübarizənin prioritet hesab edildiyi bir mərhələ olmuşdur. Azərbaycan xalqı yaxşı başa düşür ki, 2020-ci ilin birinci yarısında ölkəmizin sosial-iqtisadi prioritetləri xeyli dərəcədə dəyişərək, insanların sosial müdafiəsinə və sağlamlığına hesablanmış tədbirlərin üstünlük qazanmasına doğru istiqamətləndirilmişdir. Bununla belə, Prezident İlham Əliyevin məqsədyönlü idarəçilik bacarıqları sayəsində 2020-ci ilin ötən dövrü ərzində həm koronovirusla mübarizə sahəsində mühüm nailiyyətlər qazanılmış, həm də sosial-iqtisadi inkişafın dinamikliyi, dayanıqlığı, səmərəliliyi təmin edilmiş, mühüm nəticələr əldə olunmuşdur.

Prezidentin Nazirlər Kabinetinin iclasındakı çıxışında öz əksini tapmış diqqətəlayiq statistika bütün çətinliklərə baxmayaraq, Azərbaycan Respublikasının belə gərgin bir şəraitdə də sosial-iqtisadi inkişaf sahəsində mühüm uğurlara nail ola bildiyini diqqət mərkəzinə çəkməyə imkan yaradır. Hesab edirəm ki, Prezident İlham Əliyevin səsləndirdiyi Azərbaycan Respublikasının indiki ağır dövrdə BMT-nin "Dayanıqlı inkişaf indeksi" üzrə hesabatında keçən ilə nisbətən irəliləyərək 54-cü yerdə qərarlaşması faktı ölkəmizdəki sosial-iqtisadi inkişafın səviyyəsi və dövlətimizin beynəlxalq nüfuzunun artması baxımından mühüm göstəricidir.

Bundan başqa, pandemiya dövrünün çətinlikləri fonunda maliyyə yardımı almaq məqsədilə dünyanın 150-dən çox ölkəsinin beynəlxalq maliyyə qurumlarına müraciət etdiyi bir şəraitdə Azərbaycanın öz problemlərini daxili imkanlar hesabına uğurla həll etməsi haqqındakı məlumatlar da əldə olunmuş nailiyyətlərin mühüm amillərindən biri kimi qeyd edilməyə layiqdir. Bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin illərdən bəri apardığı ardıcıl, düşünülmüş və məqsədyönlü iqtisadi siyasətin konkret əməli nəticəsidir. Bu, dövlətimizin başçısının Azərbaycan dövlətini beynəlxalq maliyyə qurumlarının və digər təşkilatların asılılığından qorumaq, dövlət müstəqilliyini bütün sahələr üzrə öz resurslarımız əsasında təmin etmək istiqamətində apardığı ardıcıl siyasətin və yorulmaz fəaliyyətin əməli bəhrəsidir.

Prezident İlham Əliyevin dəfələrlə səsləndirdiyi və uğrunda mübarizə apardığı dayanıqlı iqtisadi müstəqillik siyasəti üzərində qurulmuş davamlı siyasi müstəqillik prinsipi ölkəmizə həmişə güc-qüdrət vermiş, yaşadıcımız qlobal böhranlardan Azərbaycan Respublikasının dünyanın əksər ölkələri ilə müqayisədə minimum itkilərlə çıxmasına şərait yaratmışdır. Pandemiya dövrünün xüsusi çətinliklər yaratdığı və yeni öhdəliklər meydana çıxardığı indiki məsuliyyətli mərhələdə Azərbaycan Respublikasının dünyanın heç bir beynəlxalq maliyyə qurumunun yardımına, dəstəyinə ehtiyac duymadan bütün problemləri daxili imkanlar hesabına həll edilməsinə nail olması Prezident İlham Əliyevin böyük qələbəsidir.

Əksinə, məlum olduğu kimi, koronovirusla mübarizə dövründə Azərbaycan Respublikası Ümumdünya Səhiyyə Təşkilatına iki dəfə böyük həcmdə maliyyə yardımı göstərmişdir. Bundan başqa, dövlətimiz dünyanın müxtəlif qitələrində koronovirusla mübarizədə xüsusi çətinliklərlə üzləşmiş ölkələrə də yardımlar ünvanlamışdır. Pandemiya ilə əlaqədar öz ölkəsinə qayıda bilməyib, Azərbaycanda qalan çoxsaylı insanlar da müstəqil Azərbaycan dövlətinin qayğısı ilə əhatə olunmuşlar. Beləliklə, Prezident İlham Əliyevin apardığı məqsədyönlü uğurlu siyasət nəticəsində müstəqil Azərbaycan Respublikası artıq çoxdandır ki, iqtisadi cəhətdən müəyyən yardım alan ölkədən başqa xalqlara və dövlətlərə yardım edən güclü dövlətə çevrilmişdir. Bu gün müstəqil Azərbaycan Respublikası dünyanın inkişafına təsir göstərən, təkan verən əsas dövlətlərdən biridir. Yer kürəsinin müxtəlif ölkələrində Azərbaycanın maliyyə dəstəyi ilə həyata keçirilən tədbirlər ölkəmizin dünyadakı yerini və imkanları əyani şəkildə nümayiş etdirir. Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin liderlik missiyasının təntənəsi, müstəqil dövlətimizin qələbəsidir.

Pandemiya ilə aparılan mübarizə şəraitində Azərbaycan Respublikasının bütün dünyaya nümayiş etdirdiyi ardıcıl qlobal həmrəylik müstəqil dövlətimizin və dövlət başçımızın beynəlxalq aləmdəki yüksək nüfuzunu daha da artırmışdır. Son bir neçə ay ərzində Türk Dövlətləri Əməkdaşlıq Şurasının üzvü olan və Qoşulmama Hərəkatında təmsil olunan dövlətlərin rəhbərləri, bir çox dövlətlərin başçıları beynəlxalq təşkilatların, maliyyə qurumlarının məsul nümayəndələri ilə keçirdiyi Zirvə toplantılarında, onlayn görüşlərdə və müzakirələrdə nümayiş etdirdiyi qlobal baxış, yüksək intellektual səviyyə, aydın siyasi mövqe, həmrəylik missiyası və praqmatik yanaşmalar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünyanın ən nüfuzlu dövlət başçılarından və yeni tarixi dövrün liderlərindən biri səviyyəsinə çatdırmışdır. Bu gün Prezident İlham Əliyev dünya siyasətinin idarə olunmasında mötəbər sözü, xüsusi yeri və mövqeyi olan əsas liderlərdən biridir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının xüsusi sessiyasının çağırılmasına planetimizin hər tərəfindən dərhal dəstək verilməsi Azərbaycan dövlətinin başçısının böyük qələbəsi, ölkəmizin mühüm uğurudur. Qeyd etdiyimiz mühüm tarixi əhəmiyyətə malik olan hadisələrdən hər biri Azərbaycan dövlətçilik tarixinin salnaməsinə qızıl hərflərlə yazılacaq parlaq səhifələrdir. Bu tarixi hadisələr Azərbaycanın bu günkü və gələcək nəsilləri üçün böyük iftixar mənbəyidir.

Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının yekunlarına həsr edilmiş iclası həm də sanki müharibə şəraitində dövlət səviyyəsində çağırılmış ölkə miqyaslı toplantı idi. Az əvvəl Prezident İlham Əliyevin Sədrliyi ilə keçirilmiş Təhlükəsizlik Şurasının iclasında Ermənistanın Azərbaycana növbəti təcavüzü ilə əlaqədar məsələlər geniş şəkildə müzakirə olunmuş, dövlət səviyyəsində zəruri bəyanatlar verilmişdi. Xüsusən, cənab Prezidentin Təhlükəsizlik Şurasının iclasındakı qətiyyətli mövqeyi və əsaslandırılmış bəyanatları xalqımızda və Azərbaycan ordusunda böyük ruh yüksəkliyi yaratmışdır. Ali Baş Komandan İlham Əliyevin Tovuz rayonunda düşmən təxribatına layiqli şəkildə cavab verən Azərbaycan ordusuna ünvanladığı vətənpərvərlik dərsləri mühüm əhəmiyyətə malik çağırışların ifadəsidir. Təhlükəsizlik Şurasının iclasındakı müdrik və sərt çıxışı ilə Prezidenti İlham Əliyev ölkə daxilində mövcud olan sabitliyi daha da möhkəmləndirmək, qəhrəman Azərbaycan əsgərinə yol göstərmək, vətənpərvərlik dərsi verməklə bərabər, həm də dünya ictimaiyyətinə obyektiv informasiyanın çatdırılması kimi məsuliyyətli bir vəzifəni də yüksək səviyyədə yerinə yetirmişdir. Bunun ardınca Tovuz-Qazax rayonu ərazisində qəhrəman Azərbaycan ordusunun qazandığı zəfər İlham Əliyev diplomatiyanın qələbəsidir. Beynəlxalq qurumların, dünya ictimaiyyətinin döyüş cəbhəsində gedən proseslərlə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə verdikləri dəstək dövlət başçımızın uzun illər ərzində apardığı ədalətli siyasətin növbəti təntənəsi və qələbəsidir.

Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayib Ərdoğanın Türkiyə dövləti adından bu çətin sınaq günlərində qardaş ölkənin bütün imkanları ilə Azərbaycanın yanında olmağa hazır olduğunu, "Biz Azərbaycanı qətiyyən tək qoymarıq" qərarını açıq şəkildə bəyan etməsi sözün böyük mənasında əsl qardaşlıq nümunəsidir. Bu, ulu öndər Heydər Əliyevin vaxtilə Azərbaycan-Türkiyə münasibətləri haqqında böyük uzaqgörənliklə ifadə etdiyi "tək millət, iki dövlət" düsturunun nə demək olduğuna hərbi and səviyyəsində qardaş ölkə tərəfindən verilmiş birmənalı cavabın əks-sədasıdır.

Bu, bir neçə il əvvəl Çexiya Respublikasında keçirilmiş bir beynəlxalq toplantıda Türkiyə Cümhuriyyətinin nümayəndəsinin iştirak etmədiyi halda qardaş ölkənin ünvanına bəyanatlar səsləndirilərkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qətiyyətlə ifadə etdiyi "Bu gün Türkiyə burada yoxdur, mən varam" kimi əsl qardaşlıq mövqeyinin ən zəruri məqamda bu dəfə Türkiyə tərəfindən yenidən meydana qoyulmasının real nümunəsidir. Azərbaycan xalqı Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayib Ərdoğanın hazırkı məsuliyyətli dövrdəki bəyanatını və dəstəyini ölkələrimiz və xalqlarımız arasındakı möhkəm qardaşlığın və birliyin əbədiyyətə qədər sarsılmaz şəkildə davam edəcək parlaq nümunəsi kimi yüksək qiymətləndirir. Təsadüfi deyildir ki, 15 iyul 2020-ci il tarixdə Nazirlər Kabinetində keçirilmiş iclasda da Prezident İlham Əliyev Tovuz rayonu ərazisində və onun ətrafında gedən prosesləri təhlil edərkən qardaş Türkiyə Cümhuriyyətinin qəti mövqeyini yüksək dəyərləndirmişdir: "Biz bu günlərdə Türkiyədən yenidən qardaşlıq, dostluq münasibəti gördük. İlk saatlardan Türkiyənin rəsmi qurumları bu məsələ ilə bağlı Azərbaycanın haqlı mövqeyini müdafiə etdilər, açıqlamalar verdilər. Dünən Prezident tərəfindən çox önəmli açıqlama verildi. Ondan əvvəl Müdafiə naziri, Xarici İşlər naziri, Prezident Administrasiyasının nümayəndələri, deputatlar ictimai fəallar. Bir daha bütün dünya, Türkiyə və Azərbaycan xalqları gördü ki, biz əsl qardaşıq. Yaxşı günlərdə də, ağır günlərdə də bir-birimizin yanındayıq. Yəqin ki, həm Türkiyə vətəndaşları, həm Azərbaycan vətəndaşları mənim dəfələrlə dediyim sözləri xatırlayırlar və görürlər ki, mən nə qədər haqlı idim deyəndə ki, dünya miqyasında Türkiyə ilə Azərbaycan qədər bir-birinə yaxın olan ikinci bir ölkə yoxdur. Bu yaşanan vəziyyət bir daha onu göstərir".

Ümumiyyətlə, Tovuz hərbi əməliyyatları cəbhədəki böyük üstünlüklərimiz və uğurlarımızla birlikdə həm də ölkəmizdə vətənpərvərlik hərəkatını genişləndirmişdir. Son günlərdə otuz mindən çox Azərbaycan gəncinin Səfərbərlik və və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edərək cəbhə xəttinə getmək, döyüşlərdə iştirak etmək arzusunda olduqlarını bildirmələri xalqımızın bütün təbəqələri kimi, gənclərimizin də Prezident İlham Əliyevin siyasətinə ürəkdən dəstək vermələrinin, dövlət başçısının ətrafında onların sıx birləşdiklərinin əməli təcəssümüdür. Bu çətin sınaq anlarında sadə zəhmətkeş insanlardan tutmuş ziyalılara, iş adamlarına, elm xadimlərinə qədər hər bir vətəndaşın Prezident İlham Əliyevin ətrafında sıx birləşmələri Azərbaycanda xalq-iqtidar birliyinin möhtəşəm təntənəsidir. İlk dəfə 2020-ci ilin iyul döyüşləri zamanı xalq tərəfindən səsləndirilmiş "Bütün xalq - ordudur" şüarı da Ali Baş Komandanla xalqın sarsılmaz birliyinin devizinə çevrilmişdir.

Bütün bunların müqabilində təxribatçı qüvvələr tərəfindən istiqamətləndirilmiş gəncliyin bir qrup emosional nümayəndələrinin Milli Məclisə soxulmaları, dövlət əmlakının dağıtmaları qətiyyən Azərbaycan gənclərinin ümumi simasını əks etdirmir. Bu cür yaramaz hərəkətlər Azərbaycan gəncliyinə heç cür yaraşmaz. Bu, vətənpərvərlik yox, cinayət hadisəsidir. Azərbaycanın çətin sınaq günlərində olduğu, cəbhədə döyüşlərin getdiyi bir şəraitdə bir qrup gənclərin cinayət törətmələri onların və arxalarında gizlənən məkrli qüvvələrin doğma xalqına və ölkəsinə içəridən vurmaq istədiyi zərbədir. Əlbəttə, Azərbaycan gəncliyinin çox cüzi bir hissəsini təşkil edən belə aldadılmış gənc adamlar layiqli cəzalarını alacaqlar. Bununla belə, fikrimcə, gənclərlə iş aparan dövlət qurumları, ictimai təşkilatlar, ailə institutları, ziyalılar da gənclər arasında ideya-siyasi işi, vətənpərvərlik tərbiyəsini daha da gücləndirmək üçün düşünülmüş tədbirlər həyata keçirməlidirlər. Prezident İlham Əliyevin Nazirlər Kabinetinin iclasında diqqət mərkəzinə çəkdiyi aşağıdakı fikirlər gənclərimizin ideya-siyasi tərbiyəsinin əsasına və hərbi andına çevrilməlidir: "Bu, milli məsələdir. Anti-Azərbaycan qüvvələri harada varsa, bloklayacayıq... Biz dövlətimizi qoruyuruq, qoruyacağıq. Azərbaycan xalqı dəfələrlə vətənpərvərlik göstəribdir. Bu, bizim növbəti şanlı qələbəmizdir. Biz bilirik nə etmək lazımdır, nə vaxt etmək lazımdır və necə etmək lazımdır. Bu günə qədər bizim bütün addımlarımız uğurlu olub".

Azərbaycan xalqı ürəkdən inanır ki, ölkəmizin Prezidenti İlham Əliyevin rəhbərliyi ilə müstəqil dövlətimiz bu günə qədər olduğu kimi, bundan sonra da Nazirlər Kabinetinin iclasında dövlət başçımızın böyük uzaqgörənliklə müəyyən etdiyi istiqamətlərin hər birində: "istər döyüş meydanlarında, istər siyasi müstəvidə, istər daxili vəziyyətlə bağlı, iqtisadi və digər sahələrdə" dönmədən inkişaf edəcək, daha böyük qələbələrə imza atacaqdır. Prezident İlham Əliyevin apardığı mükəmməl dövlət siyasəti və ölkəmizdə monolit şəkildə formalaşmış xalq-iqtidar birliyi Azərbaycan dövlətini və xalqımızı qələbədən-qələbəyə aparmağa tam təminat verir. Prezident İlham Əliyevin qələbəsi müstəqil Azərbaycan dövlətinin və xalqımızın qələbəsi deməkdir.

# "Mehriban Əliyevanın müraciəti dünyaya mesajdır"

***"Amerikanın Los-Anceles şəhərində və bəzi Avropa ölkələrinin paytaxtlarında yaxın günlərdə baş vermiş hadisələr milyonlarla azərbaycanlı kimi, məni də dərindən hiddətləndirib. Azərbaycanlıların öz Vətənini dəstəkləmək üçün müvafiq dövlət orqanları ilə əvvəlcədən razılaşdırılmış dinc, vətənpərvərlik aksiyaları erməni diasporunun nümayəndələri tərəfindən fiziki zorakılıq, aqressiya və qeyri-insani nifrət hissi ilə üzləşib...".***



**Jalə ƏLİYEVA, Millət vəkili**

Bu fikirlər ölkənin Birinci xanımı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya məxsusdur. Bu fikirlər onun Amerikanın Los-Anceles şəhərində və bəzi Avropa ölkələrinin paytaxtlarında yaxın günlərdə baş vermiş hadisələrlə bağlı həmvətənlərimizə müraciətində özünün əksini tapıb. Qəlbi daim qədirbilən Azərbaycan xalqı və dövləti ilə döyünən, onun üçün hər zaman narahatçılıq keçirən, onun ən xırda uğurlarına belə sevinən, onun naminə gecəli-gündüzlü bütün fədakarlıqlara qatlaşan, nəinki xalqının, dövlətinin, bütün dünyanın rəhm, mərhəmət, şəfqət simvoluna çevrilən bir xanımın, bir ananın, bir bacının, bir siyasətçinin, bir ictimai xadimin, bir dövlət xadiminin müraciətidir bu. Başqa cür ola da bilməzdi. Mehriban xanım bu məsələyə də, növbəti erməni təxribatı və fitnəkarlığı nəticəsində sərhəddin Tovuz istiqamətində baş verənlərə etiraz əlaməti olaraq, xarici ölkələrdə yaşayan soydaşlarımızın, həmvətənlərimizin bir andaca Vətən, Qarabağ naminə yaşadıqları ölkələrin küçələrinə axışmalarına, həm işğalçı və təcavüzkar ölkəyə, həm onu dəstəkləyənlərə, Azərbaycanın üzərinə qaldıranlara, həm də 30 ildən çoxdur ki, erməni yalanlarına, böhtanlarına inananlara, onların insanlıq əleyhinə cinayətlərinə göz yumanlara səslərini ucaltmalarına və bu zaman onların növbəti erməni barbarlığı, vandallığı ilə qarşılaşmalarına, yenə də "demokratiya", "insan hüquqları" "çarcıları"nın seyrçi qalmalarına biganəlik göstərə bilməzdi...Göstərmədi də, öz haqq, etiraz səsini bir daha yüksəltdi, ucaltdı! Həm daxildə-ölkə vətəndaşları, 32 ildən çoxdur ki, erməni zülmlərindən, onların havadarlarının ədalətsizliklərdən əziyyət çəkən xalqı ilə, həm də xaricdə yaşayan azərbaycanlılarla, soydaşlarımızla birgəliyini, həmrəyliyini nümayiş etdirdi! Hər zaman onların yanında olduğunu və olacağını bütün dünyaya, düşmənlərimizə də, elə dostlsrımıza da gur səslə duyurdu. Budur Mehriban Əliyeva Ucalığı, budur Mehriban Əliyeva Sevgisi, budur Mehriban Əliyeva İradəsi və Cəsarəti! Mehriban xanımın tarixi müraciətində də deyildiyi kimi, Los-Ancelesdən, Brüsseldən və digər şəhərlərdən çəkilmiş, düşmənlərimizin həqiqi simasını göstərən zorakılıq və vandalizm kadrları həm haqlı olaraq hiddət, həm də əsaslı suallar doğurur. Ancaq həmin ölkələrin hüquq-mühafizə orqanları azğınlaşmış bandit qruplaşmalarının bu cür hərc-mərclik törətməsinə nə üçün imkan verirlər? Bu cinayətlərə necə göz yummaq olar? Müraciətində bütün dünyada yaşayan milyonlarla azərbaycanlı adından ABŞ-ın, Belçikanın və digər dövlətlərin hüquq-mühafizə orqanlarını bu hadisələri hərtərəfli təhqiq etməyə, onlara müvafiq hüquqi qiymət verməyə və bütün təqsirkarları məsuliyyətə cəlb etməyə çağırır Mehriban Əliyeva! Çünki qanunsuz əməllər cəzalandırılmalıdır. Tamamilə, haqlı, məqamında, yerində olan tələbdir. Çünki artıq yetər, artıq Azərbaycana, azərbaycanlılara qarşı haqsızlığa, ədalətsizliyə son qoyulmalıdır, ermənilərin, Ermənistanın, onları təhrik edənlərin haqlı, layiqli cəzaları verilməlidir. Bu cəzanın vaxtı gəlib çatıb, hətta keçib belə... Müraciətində beynəlxalq qurumlara, o cümlədən, adlarını insan-hüquq müdafiə təşkilatı qoyanlara da çağırış edən Mehriban xanım haqlı olaraq deyir: "Mən, həmçinin çoxsaylı qeyri-hökumət təşkilatlarını, o cümlədən insan haqlarının müdafiəsini özlərinin missiyası elan edən "Freedom House", "Amnesty International" və "Human Rights Watch" təşkilatlarını törədilmiş hadisələrə ədalətli qiymət verməyə çağırıram. Lakin nədənsə biz hələ onların səslərini eşitmirik. Ümidvaram ki, bu qurumlar yetərincə prinsipiallıq nümayiş etdirərək ikili standartlar siyasətindən əl çəkəcək və faktlara əsaslanan bəyanatlarla çıxış edəcəklər...". Bəli, indi söz onlarındır, buyursunlar, zəhmət çəksinlər, öz mövqelərini bildirsinlər, ortaya qoysunlar. Çünki birbaşa onların vəzifəsi, borcudur. Borclarını, vəzifələrini yerinə yetirsinlər, biz də onların səmimiyyətinə, ədalətpərvərliyinə inanaq...Ancaq onlar da, digərləri də, güc mərkəzləri də, həmsədrlər də öz mövqelərini yenə ortaya qoymasalar, yenə oyun oynamaqda davam etsələr, Azərbaycan dövləti və xalqı öz liderləri-ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev və onun ən yaxın çiyindaşı, silahdaşı, ölkənin ikinci şəxsi-Mehriban xanım Əliyeva ilə birlikdə cəmi düşmənlərin cavabını layiqincə və sonunacan verəcək. Qələbə Azərbaycanın, zəfər bizim olacaq. Müraciətinin sonunda da dediyi kimi, "Qarabağ Azərbaycandır və nida işarəsi!".

## Yeni Təhsil naziri kollektivə təqdim olundu



Yeni Təhsil naziri Emin Əmrullayev kollektivə təqdim olunub. SİA-nın məlumatına görə, E.Əmrullayev Prezident İlham Əliyev tərəfindən iyulun 27-də Təhsil naziri təyin edilib. E.Əmrullayev 2013-cü ildə Təhsil Nazirliyi Təhsilin statistikası və keyfiyyətinin qiymətləndirilməsi sektorunun müdiri təyin edilib. O, daha sonra Təhsul Nazirliyin Təhsilin inkişafı proqramları şöbəsinin müdiri, Təhsil İnstitutunun direktoru vəzifələrində çalışıb.

## Bayram namazı necə qılınacaq?



Bu ilki Qurban bayramını dünyada davam edən pandemiya şəraitində qarşılayırıq. Uca Allahın yaratdığı ən müqəddəs dəyər olan insan həyatının qorunması məqsədi ilə ibadət məkanları müvəqqəti bağlıdır. Bu barədə SİA-ya Qafqaz Müsəlmanları İdarəsindən verilən məlumatda bildirilib. Məlumatda bildirilir: "Pandemiya dövrünün məcburi təcrid tədbirləri səbəbindən müqəddəs Həcc ziyarətinin belə təxirə salındığı bir dövrdə bayram namazlarının ailə daxilində qılınması məqbuldur. Karantin səbəbindən ibadət məkanlarının müvəqqəti bağlı olması dindarlığa, təqvaya xələl gətirməməlidir. Xəstəlik və çətinliklər Allaha sığınmaq, səbr, təvəkkül, tövbə üçün bir vəsilə olmalıdır. Ümidvarıq ki, insanlar bu sınaqdan mənən daha güclü, ruhən daha saflaşmış çıxarlar, inşallah!

Bayram günlərində imkansız, ehtiyacı olan insanlara qurban əti paylanması, habelə ərzaq və ya hər hansı sovqatın çatdırılması bəyənilən əməldir. Qurban kəsmək Məkkədə Həcc ziyarəti zamanı zəvvarlar üçün vacibdir, digər yerlərdə isə bu vacib deyil, müstəhəb əməl olduğundan bu il karantin rejimi şəraitində ictimai yerlərdə kəsim edilməməsi tövsiyə olunur. İnsanların kütləvi toplaşma ehtimalı olacaq kəsim yerlərində virusa yoluxma hallarının qarşısını almaq məqsədilə bir çox ölkələr bu addımı atır".

## Ermənistanın Azərbaycana qarşı son təxribatları ilə əlaqədar Londonda dinc aksiya və yürüş keçirilib




Böyük Britaniyada yaşayan azərbaycanlı icmanın 300-dək üzvü Ermənistanın Azərbaycana qarşı son təxribatları ilə əlaqədar Londonda dinc aksiya və yürüş keçirib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə BBC-nin London ofisi qarşısında aksiya keçirilib, həmyerlilərimiz səsgücləndiricilərdən istifadə edərək müxtəlif şüarlar ("Yetər!", "Erməni təcavüzünə son!") və Azərbaycanın dövlət himnini səsləndiriblər.



Sonra aksiya iştirakçıları Trafalqar meydanından və Britaniya Baş Nazirinin ofisinin önündən keçərək parlament binasına doğru yürüş edib və yolboyu "Biz sülh istəyirik!", "Biz ədalət istəyirik!", "Qarabağ bizimdir-bizim olacaq!" kimi şüarlar səsləndirib, ermənilərin Los-Ancelesdə azərbaycanlılara qarşı zorakılığına diqqət çəkərək, bu cür zorakı təxribatlara son qoyulmasının vacibliyini vurğulayıblar. Yürüş iştirakçıları Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş rayonlarının adlarını ucadan sadalayıblar.

Həmvətənlərimiz Britaniya parlamentinin qarşısında daha bir aksiya keçirib, Azərbaycan həqiqətlərinə diqqət çəkərək, Ermənistanın təcavüzünə son qoyulmasını tələb ediblər. Onlar "Sarı gəlin" mahnısını xorla oxuyublar.

Təhlükəsizliyin təmin edilməsi üçün əraziyə çoxsaylı polis qüvvələri və özəl təhlükəsizlik şirkətinin nümayəndələri cəlb edilib. Yalnız BBC-nin ofisinin qarşısında keçirilən aksiya zamanı Britaniyadakı erməni icması 50 nəfərdən az nümayəndə ilə tədbiri pozmağa çalışsa da, azərbaycanlıların sayca çox olduğunu və ərazidə güclü təhlükəsizlik tədbirlərinin həyata keçirildiyini görərək yürüşə mane olmaqdan, eləcə də parlamentin qarşısındakı aksiyaya gəlməkdən çəkinib.

## Azərbaycanda daha 631 nəfər koronavirusdan sağaldı



Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 412 yeni yoluxma faktı qeydə alınıb, 631 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 30 858 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 23 873 nəfər müalicə olunaraq sağalıb, 430 nəfər vəfat edib, 6 555 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 8 429, ötən müddət ərzində isə ümumilikdə 698 815 test aparılıb.

# Azərbaycan dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir



"Yüz illərdir ki, ayrı-ayrı xalqların və dinlərin mənsublarının mehriban ailə kimi yaşadıqları Azərbaycanda qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayış mühitinin formalaşmasında və etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında İslam dininin müstəsna rolu olmuşdur". Bu fikirləri Prezident İlham Əliyev Azərbaycan xalqına və dünyanın müxtəlif guşələrində yaşayan soydaşlarımıza müqəddəs Qurban bayramı münasibətilə təbrikində bildirib. Əlbəttə ki, milli mənəvi dəyərlərimiz, adət-ənənələrimiz xalqımızın tarixində, özünüdərkində mühüm əhəmiyyət daşıyır. Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə, istər sovet məkanında, istərsə də müstəqillik dövründə yaşadığımız illərdə milli-mənəvi dəyərlərimizin qorunub saxlanmasına və inkişafına çox böyük önəm verib. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğrula davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdəki multkultural dəyərələri, tolerant mühiti dünyaya bəyan edir. Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri birgə yaşayır və ölkəmizin uğurlu inkişafına töhfələrini verirlər. Bütün dinlərə hörmətlə yanaşan Azərbaycanın islami dəyərlərə də olan münasibəti də əməli fəaliyyətdə aydın görünür. Müxtəlif dinlərin məbədlərinə qayğı və diqqət, o cümlədən dini ocaqlarımıza məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir. Bu gün Azərbaycan dünyəvi, müasir, dünyaya açıq olan dövlət olmaqla yanaşı, milli dəyərlərə, adət-ənələrinə də böyük hörmətlə yanaşan bir ölkədir. Dövlət başçısı mütəmadi olaraq din xadimləri ilə görüşür, dini konfessiyalara maddi yardımlar edilir, dini ibadət yerləri təmir-bərpa olunub inanclı insanların istifadəsinə verilir. Azərbaycan əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh və əmin-amanlıq şəraitində birgə yaşayırlar. Bu gün Azərbaycanda xristianlığın ayrı-ayrı cərəyanlarının icmaları sərbəst şəkildə fəaliyyət göstərir və 7 sinaqoq, 4 gürcü kilsəsi də fəaliyyətdədir.

### "BUİLKİ QURBAN BAYRAMI DÜNYANIN QARŞILAŞDIĞI ÇƏTİN SINAQ DÖVRÜNƏ TƏSADÜF ETSƏ DƏ, MÖMİN VƏTƏNDAŞLARIMIZ ALLAH VƏ DİN YOLUNDA MƏNƏVİ BORCLARINI LAYİQİNCƏ YERİNƏ YETİRİR..."

Bütün dünyada, eləcə də, islam dünyasında böyük hörmətə, nüfuza malik olan, prinsipial və ədalətli mövqeyi ilə seçilən Azərbaycanın multikultural dəyərləri dünyaya örnək, nümunədəir. Əgər Azərbaycanda sovet məkanınıda yaşadığımız illərdə cəmi 17 məscid fəaliyyət göstərirdisə, hazırda onların sayı 2200-ü ötüb keçib. Ölkəmizin paytaxtında Cənubi Qafqazın ən möhtəşəm məbədi Heydər Məscidi inşa edilib. Respublikamızda həyata keçirilən din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də dövlət-din münasibətlərinin mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Bu gün ölkəmizdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi fəaliyyət göstərir. Azərbaycan Prezidentinin məlum Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılıb. Əsrlərin süzgəcindən keçərək müasir dövrümüzədək qoruyub saxladığımız milli mənəvi, dini adət-ənənələrimiz yaşayır və düzgün şəkildə insanlara çatdırılır.

Artıq bir neçə gündən sonra Azərbaycan xalqı islam dininin ən vacib sayılan fərzlərindən biri, onun təbliği və özünəməxsusluğunu nümayiş etdirən ayinləri sırasında olan Qurban bayramını qeyd edəcək. Üç səmavi dinin - yəhudilik, xristianlıq və İslamın hər üçündə müxtəlif formada qurbanlıq mövcuddur. Lakin İslamda bu ayin xüsusi mahiyyət və əhəmiyyət kəsb edir. Onun əsasında Allaha sonsuz sevgi, Onun qüdrətinə dərin inam və iman işığı durur.

İnsanları halallığa, paklığa səsləyən Qurban bayramının çox maraqlı tarixi və şərtləri var. Bu gün müstəqil Azərbaycanda bütün din bayramlar qeyd olunur. Təbrikdə dövlət başçısı bildirir ki, hər il ölkəmizdə keçirilən dini bayramlar mütərəqqi milli-mənəvi dəyərlərin, sosial yardımlaşmanın və xeyirxahlıq duyğularının təntənəsinə çevrilir: "Builki Qurban bayramı dünyanın qarşılaşdığı çətin sınaq dövrünə təsadüf etsə də, mömin vətəndaşlarımız Allah və din yolunda mənəvi borclarını layiqincə yerinə yetirir, öz nəcib əməlləri ilə cəmiyyətimizdə birlik və bərabərlik ovqatını daha da gücləndirirlər".

Dövlətimizin başçısı insanlar arasında həmrəylik və qardaşlığın, humanizm və mərhəmətin rəmzi olan Qurban bayramının İslam dininin əsas bayramlarından biri olduğunu qeyd edib. Vurğulayıb ki, müsəlmanlar bu əlamətdar gündə Uca Yaradanın adına qurbanlarla Allaha yaxınlığın sevincini yaşayır, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirirlər.

Terrorizmin baş alıb getdiyi dünyada, islama qarşı hücumların artdığı və islamafobiyanın gücləndiyi bir vaxtda Azərbaycan ekstremizm və dözümsüzlük əleyhinə çıxış edir, kənar qüvvələrin, xaricdən gələn təhlükələrin qarşısını almaqda güclü və qətiyyətlidir. "İndiki şəraitdə biz görürük ki, dünyanın müxtəlif yerlərində dini məzhəb zəminində qan tökülür, müharibələr alovlanır, böyük faciələr yaşanır" - çıxışlarının birində deyən Azərbaycan Prezidenti bildirib ki, elə etməliyik ki, həm Azərbaycanda, həm yaşadığımız bölgədə vəziyyət müsbət istiqamətdə inkişaf etsin: "Biz adada yaşamırıq, biz bu bölgədə yaşayırıq və yaşayacağıq. Ona görə biz həm ölkə daxilində bu məsələləri daim diqqət mərkəzində saxlayırıq və hesab edirəm ki, beynəlxalq təşəbbüslərlə bölgədə və dünyada dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi işinə öz töhfəmizi veririk".

Həqiqətən də. Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir.

*Nəzakət ƏLƏDDİNQIZI*

## Rusiyada koronavirus vaksininin 26 variantı hazırlanır



Rusiyada hal-hazırda koronavirus vaksininin 26 variantı hazırlanır. SİA-nın məlumatına görə, bu barədə Rusiya İstehlakçılarına Hüquqlarının Müdafiəsi və Rifah sahəsində Federal Nəzarət Xidmətinin məruzəsində deyilir. Məruzəyə əsasən, vaksin növlərinin hazırlanması ümumilikdə 17 elmi müəssisədə keçirilir. Qeyd olunur ki, bu günədək bir vaksinin insanlar üzərində kliniki sınaqları keçirilib.

# Birliyimizi heç bir qüvvə sarsıda bilməz!



Çünki dövlətimiz xalqla çiyin-çiyinə növbəti sınaqdan da üzüağ çıxdı. Bu cəmiyyət ölkədə sabitliyin pozulmasına, iğtişaşlar törədilməsinə heç zaman yol verməməlidir və verməyəcək. Aramızda radikallara, anarxistlərə yer olmamalıdır. Hər birimiz Prezidentimizin ətrafında sıx birləşməliyik. İmkan verməməliyik ki, bu birliyi hansısa qüvvə sarsıtmağa cəhd göstərsin. Bəli, bu gün bu uğurlu nailiyyətlərdən qaşınmaya düşən "sapı özümüzdən olan baltalar"ın sapı onsuz da çürükdür. Və bu çürük saplı "baltalar" hətta öz əzizlərini belə tapdalayaraq "işlək mexanizm alətinə" çevriliblər. İşlədildikdən sonra zibilliklərə atılırlar. Elə də Avropada ömür sürdüyü troqlodit düşüncəlilər kimilər .

**Avropada ömür sürən troqlodit düşüncəlilər**

Avropa ölkələrində ömür sürən, daha doğrusu, ömrün sürüdüyü troqlodit düşüncəlilərə gəldikdə isə, onların hamısı biçarələrdir, bədbəxtlərdir. Qeyri-adekvat Mirzəli, Piriyev, Ceffri Məmmədov, Aidadi İskəndərli, Sevinc Osmanqızı, Qənimət Zahid və ilaxırlaradək. Bu adamların yeganə, əsas və ümdə məqsədləri "qrant layihəsi udmaq"dır. Bu adamlar ermənilərdən də betərdir, çünki "mühacirət statistikası" baxımından Azərbaycanı qat-qat üstələyən, iqtisadiyyatı iflic, siyasəti zəlil durumda olan Ermənistanın xarici ölkələrdəki səfirləri qarşısında nə onların Orduxanı primitiv "etiraz aksiyası" adlı şou düzənləyir, nə Vidadi İsgəndərlinin bənzəri siyasəti küçə söyüşlərinin məcmusu kimi anlayaraq danışır, nə Sevinc Osmanqızı və ya Piriyev kimi primitiv subyektlərin analoqları ağızlarını qrant yoluna qoyub hərzələmirlər. Ancaq bu "siyasi mühacirlər" ayrı məxluqatlardır. Əllərində zövqsüz və orfoqrafiya səhvləri ilə dolu plakatlar tutub yüyürürlər Azərbaycan səfirliklərinin qarşısına, qışqırırlar, qiyyə çəkirlər, hırıldayırlar, söyürlər, sonra da bu sarsaqlığın videosunu çəkib sosial şəbəkələrdə paylaşırlar. Dava Vətən, demokratiya, insan haqları uğrunda yox, Azərbaycanı hədəfə almış təşkilatlardan sədəqə qismində qrant əldə etmək, "oturum" almaq, pul qazanmaqdır. Bax, budur, xəyanət, əxlaqsızlıq, satqınlıq. Ən dəhşətlisi isə, ən əziz adamın olan atanın faşist xislətli ermənilər tərəfindən öldürüldüyünü billə-bilə erməni terrorçularının müdafiəsinə qalxasan.

**Sevinc Osmanqızı ermənilərə niyə dəstək olur?**

Ermənistan silahlı qüvvələrinin son günlər cəbhədə və Azərbaycanla sərhəddə gərginliyi daha da artırdığı, təxribatlar törətdiyi, ermənilərin dünyanın bir sıra ölkələrində həmvətənlərimizə qarşı hücumlar təşkil etdiyi bir vaxtda özünü "azərbaycanlı jurnalist" qoyan Sevinc Osmanqızı düşməni müdafiə edən fikirlər səsləndirib. İlk öncə onun özünü "azərbaycanlı jurnalist" kimi təqdim etməsi əleyhinəyəm. Haqqı yoxdur, bu adla çıxış etməyə! Baxın, bu əxlaqsız və namərd satqın Osmanqızı soydaşlarımızı əli on minlərlə azərbaycanlının qanına batmış erməni terrorçularına qarşı "sivil" mübarizə aparmağa çağırış edərək, sözün həqiqi və məcazi mənasında düşmən dəyirmanına su tökür. İddia edib ki, guya bu gün "sivil" qarşıdurmanı pozan Azərbaycan tərəfidir: "Bu qarşıdurmanı təşkil edən Azərbaycan tərəfidir", - deyən S.Osmanqızının Azərbaycan xalqı, dövləti əleyhinə səsləndirdiyi fikirlər ermənilərin çoxdan axtardıqları bəhanələrdir. Bu satqın , mənəviyyatsız S.Osmanqızı üzərində "ASALA" terror təşkilatının adı olan paltarlar geyinən ermənilərin Azərbaycanın xaricdəki diplomatik konsulluqlarının binalarına təşkil etdiyi hücumları "görmürmü"? Onun ardınca "Bu, Azərbaycanın milli maraqlarının müdafiəsi deyil" deməsini eşitdikdə isə, daha sözüm bitmir. Bəli bitmir, çünki bütün mənliyini, ailəsini, vətənini, dövdətini, xalqını satan S.Osmanqızıya söz axtarışına çıxaraq ən "layiq olduğu" sözü axtardım tapa bilmədim. Çünki bütün "layiq olduğu sözlərin" hamısı deyilib. Bütün bunlar bir yana, Sevinc Osmanqızı atası Osman Mirzəyevin ermənilərin əli ilə şəhid olmasını da "yaddan çıxarıb". Bu yerdə amerikalı yazıçı Paul Austerin xəyanətkar və satqınlar haqqında dediyi fikir yadıma düşdü: "Sənə bir dəfə xəyanət edəni bağışlasan, səni yenə istifadə edər. Çünki xəyanət bir ruh halı deyil, xarakterin tökülüş formasıdır". Yəni bu xəyanətkarlar cinsindən asılı olmayaraq, şərəfsiz və mənəviyyatsızlardır ki, idarə olunurlar, mənlikləri qrantlara satırlar. Sevinc Osmanqızı kimilər də kimliklərini itirmişlərdir. Və görünür belə kimliyini itirmiş olan S.Osmanqızı üçün atasının ruhu o qədər dəyərsizdir ki, ermənipərəst mövqedən çıxış etməzdi. Və ermənilərin tərəfindən çıxış edərək azərbaycanlıların birlik aksiyasını aşağılamaqla bir daha Vətən satqını kimi xalqın nifrətini qazanmaqla öz iblis xislətini bir daha nümayiş etdirməkdən zövq alır. Amma Azərbaycan xalqı bu satqınlığı heç vaxt bağışlamayacaq. Çünki Azərbaycan güclü dövlət olduğu kimi, gücülü də qanunları var.

Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda da bildirib ki, 14-15 iyulda təxribat törədənlər qanun qarşısında cavab verəcəklər: "Onlara elə dərs veriləcək ki, bu, son dərs olacaqdır. Ona görə, bir daha demək istəyirəm, hüquq-mühafizə orqanları bu işlərlə məşğul olacaq. Onların bütün antidövlət çıxışları, çağırışları təhlil ediləcək. Əgər orada cinayət tərkibi varsa, onlar dərhal cinayət məsuliyyətinə cəlb edilməlidir. Biz "Beşinci kolon"la bu işi bitirməliyik, belə davam edə bilməz. Yəni, burada dözümlülük qətiyyən yolverilməzdir. Adi günlərdə biz bəzi hallarda gözümüzü yumuruq, deyirik ki, əhəmiyyətsiz şeydir. Amma belə vəziyyətdə bu, düşmənçilikdir. Bu gün bu düşmənçiliyin başında dayanan Azərbaycan Xalq Cəbhəsidir, onun çirkin, satqın rəhbərləridir, özünü lider sayan qorxaqlar, fərarilərdir. Onlar artıq Azərbaycan xalqı tərəfindən dəfələrlə öz yerini görüblər və görəcəklər".

Sonda Ulu Öndər Heydər Əliyevin zamanında dediyi gözəl bir kəlam var: "Rüşvətxoru, oğrunu qəhrəmana çevirmək öz xalqına xəyanət etməkdir". Göründüyü kimi, bəli, xalqının malına göz dikib, oğurluq edən şəxs xəyanətkardır. Ona görə də tarixin bütün dönəmində xəyanət və satqınlıq bağışlanmaz cinayət olub. Ələlxüsus da bu xəyanət və satqınlıq xalqına, dövlətinə və Vətənə qarşı ola. Xəyanət edən heç bir şəxsə haqq qazandırılmayıb, heç kim bağışlanmayıb. Xüsusilə də bu xəyanət və satqınlıq dövlətə, xalqa, dövlətçiliyə, insanların rifahı və təhlükəsizliyinə qarşı çevrilirsə, belə əməllər və onun icraçıları nəinki ifşa olunmalı, hətta vaxtında layiqli ictimai cavabla qarşılaşmalıdır.

***ZƏRİFƏ QULİYEVA,***
***YAP Qadınlar Şurasının İdarə Heyətinin üzvü, Nəsimi YAP təşkilatı İdarə heyətinin üzvü, "Modern ailə və inkişaf " İctimai Birliyinin sədri***

# "Azərbaycan bir çox dövlətdən və beynəlxalq təşkilatdan kifayət qədər dəstək alıb"

***Dövlət başçısı son çıxışında vurğuladığı kimi, Tovuz döyüşləri göstərdi ki, Azərbaycan bir çox dövlətdən və beynəlxalq təşkilatdan kifayət qədər dəstək alıb. Bu sözləri SİA-ya açıqlamasında "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib. Mərkəzin rəhbəri qeyd edib ki, heç bir dövlət Azərbaycan əleyhinə çıxmayıb, Türkiyə, Pakistan, Ukrayna kimi dövlətlər Azərbaycana dəstək verdi, amma bir dövlət belə Ermənistana dəstək vermədi.***

"Ermənistan, erməni lobbisi Amerika Konqresindən zərbə aldı, gözləmədiyi halda. Çünki, hər zaman ermənilər Amerika Konqresində bildiklərini edirdilər, erməni konqresmenlər Azərbaycan əleyhinə çıxışlar edirdilər, müəyyən düzəlişlərin qəbuluna çalışırdılar və çox zaman da təəssüf ki, buna nail olurdular. Amma bu dəfə ermənilər çox böyük zərbə aldılar. Amerika Konqresi Ukrayna, Moldova, Gürcüstan və Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə dəstəklədi. Ermənilərin dediyi keçmədi və son 30-40 ildə bu erməni lobbisinin, Ermənistanın Amerika Konqresindən aldığı çox ciddi zərbədir. Bu dövlət başçımızın bilavasitə xarici siyasəti ilə bağlıdır ki, Azərbaycanın dünyada dostları artır, Azərbaycana dəstək verən ölkələrin sayı çoxalır. Heç kim birbaşa bizim əleyhimizə fəaliyyət göstərmir. Bu mənada bu Azərbaycanın dövlət başçısının xarixi siyasətinin uğurunu göstərir. Bu da o deməkdir ki, gələcəkdə Azərbaycan öz torpaqlarının azad edilməsinə güc yolu ilə başlasa ki, dövlət başçısı da dünənki iclasda açıq-aşkar buna işarə edirdi, bizim qarşımızda yenə də heç kim dayanmayacaq. Dost dövlətlər var, tərəfdaşlarımız var. Kimsə ola bilsin yenə də Ermənistana dəstək verməyə çalışsın, amma artıq Azərbaycanın ərazi bütövlüyünə qarşı açıq-aşkar çıxa bilməyəcək. Çünki, torpaqlarımız işğal altındadır və bu işğalı bitirmək bizim haqqımızdır", deyə Elxan Şahinoğlu bildirib.



# İnformasiya texnologiyaları və Azərbaycan ədəbi dili

*1 Avqust Beynəlxalq Ana dili günüdür. (1-ci yazı)*

***Hər bir xalqın dili onun mənəvi kimliyinin başlıca təsdiq atributudur.Hələ ibtidai icma dövründə insanlar fikirlərini biri-birinə çatdırmaq üçün müxtəlif işarələrdən, hərəkətlərdən, səs formalarından istifadə etmişlər.Həmin dövrlərdə də ayrı-ayrı qəbilələrin hər birinin özünəməxsus anlatma, fikirçatdırma metodologiyası, eləcə də səsləndirmə formaları mövcud olmuş, zaman keçdikcə bu fərqli danışıq və yazılış formaları təkmilləşərək müxtəlif dillərin yaranmasını şərtləndirmiş, nəticədə müxtəlif dillərdə danışan insanlar müxtəlif etnik toplumlar kimi formalaşmış, inkişaf etmişlər.***

Bu inkişaf kontekstində ayrı-ayrı xalqlar, millətlər yaranıb formalaşmış, hər millət də özünün danışıq və yazılış formalarından istifadə edərək özünəməxsus tükənməz irs yaratmışdır. Bu baxımdan hansı xalqın dili tarix səhnəsində duruş gətirə bilməyib, sıradan çıxırsa, həmin xalqın tarixi, ədəbi,elmi, mədəni irsini də özü ilə arxivə gömdürür. Azərbaycan xalqı dünyanın ən qədim xalqlarından biridir.Bunu Azərbaycan ərazilərində tapılan arxeoloji materiallar, təkzibolunmaz dəlillər də sübut edir.

Qədim tarixə malik xalqımızın min illər boyu yaratmış, formalaşdıraraq günümüzə qədər qoruyub saxlamış, inkişaf etdirmiş olduğu dili də özü qədər qədim tarixə malikdir.Eramızın əvvəllərindən başlayaraq əsrlərlə yadellilərin əsarəti altında yaşamağa məcbur olan xalqımız, özünün ən böyük sərvəti kimi doğma dilini qoruyub saxlamış, onu inkişaf etdirərək bu günümüzə qədər gətirib çıxarmışdır. Bu dildə yaranan həm şifahi, həm də yazılı əsərlər bu gün dünyanın ən qiymətli irsləri sırasında yer tutur. "Kitabi-Dədəm Qorqud", "Koroğlu" kimi monumental qəhrəmanlıq dastanları, cildlərə sığmayan məhəbbət dastanları, nağıllar,bayatılar, laylalar,tapmacalar, zərb-məsəllər Azərbaycan dilinin zəngin leksik tərkibinin ən bariz nümunələridir. Vətəndən uzaqlarda yaşamaq məcburiyyətində qalan Nəsimi, Füzuli kimi qələm ustadlarının məhz doğma Ana dilində yaratdıqları zəngin poeziya bu gün bəşəriyyətin əvəzolunmaz qeyri-maddi irsi kimi tanınır.Məhz dilimizin qədimliyini və zənginliyini yüksək dəyərləndirdiyindəndir ki, xalqımızın ümummilli lideri, Ulu Öndər Heydər Əliyev istər Sovet dönəmində, istərsə də müstəqillik dövründə ölkəmizə rəhbərlik etdiyi zamanlarda Azərbaycan dilinin qorunması və dilimizin inkişafına daim xüsusi önəm vermişdir.

Ulu Öndərin siyasi kursunun layiqli, müdrik və yaradıcı davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də ölkəyə rəhbərlik etdiyi müddətdə, bütün digər sahələrdə olduğu kimi Ana dilinin inkişafı sahəsində də tarixi qərarlar qəbul etmiş, dilimizin inkişafını daim diqqət mərkəzində saxlamışdır. Ölkə başçısı 9 noyabr 2015-ci ildə Milli Elmlər Akademiyasının 70 illiyi ilə bağlı yubiley tədbirində çıxış edərkən Ana dilinə münasibətlə bağlı çox ciddi məsələlərə toxunmuş, sanki həyəcan təbili çalmaqla cəmiyyəti bu sahədə məsuliyyətli olmağa çağırmış, bütün vasitələrdən istifadə edərək Azərbaycan dilinin saflığının təmin edilməsini səlahiyyət sahiblərinin qarşısına vəzifə olaraq qoymuşdr. Sitat: "Əsrlər boyu Azərbaycan xalqını bir xalq kimi qoruyan bizim mədəniyyətimiz, incəsənətimiz, musiqimiz, xalçaçılıq sənətimiz və digər ənənələrimiz olubdur. Bizim bu sahədəki bütün fəaliyyətimizin əsasında Azərbaycan dili dayanır. Azərbaycan dili bizi bir xalq, millət kimi qoruyub. Əsrlər boyu biz başqa ölkələrin, imperiyaların tərkibində yaşadığımız, müstəqil olmadığımız dövrdə milli dəyərlərimizi, Ana dilimizi qoruya, saxlaya bilmişik. Azərbaycan dilinin saflığını qoruya bilmişik. Ona görə, bu gün bəzi hallarda görəndə ki, dilimizə xaricdən müdaxilələr edilir və bəzi hallarda bu müdaxilələr Azərbaycanda da dəstək qazanır, bu, məni doğrudan da çox narahat edir. Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur. Bir daha demək istəyirəm ki, biz əsrlər boyu dilimizi qorumuşuq. Bu gün də qorumalıyıq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik...




Digər tərəfdən, imkan verilməmelidir ki, ana dilimizə yad kəlmələr daxil olsun...Əlbəttə, mən bu sahədə mütəxəssis deyiləm, ancaq bir vətəndaş kimi hesab edirəm ki, yeni kəlmələrin icad edilməsinə heç bir ehtiyac yoxdur. Lüğətimiz o qədər zəngindir ki, bunu qorusaq və gələcək nəsillərə əmanət kimi təhvil versək bu, bizim bu sahədəki ən böyük nailiyyətimiz olacaqdır".

"Azadlıq Hərakatçıları" İctimai Birliyi olaraq rəhbərlik etdiyim Qeyri-Hökumət Təşkilatı uzun illərdir ki, bu sahədə Azərbaycan dövlətinin apardığı məqsədyönlü siyasətə dəstək vermək məqsədi ilə çoxsalı layihələr, iri miqyaslı tədbirlər həyata keçirir. Bu sıradan Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökmə Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə televiziya efirlərində, film və seriallarda, reklam bazarında,mahnıların ifasında Azərbaycan ədəbi dilinin tələblərinə əməl edilməsi ilə bağlı apardığımız və nəticələri barədə cəmiyyəti məlumatlandırdığımız araşdırmalar,hesab edirik ki, bütün bu sahələrdə mövcud olan qüsurların aradan qaldırılmasında və ya azaldılmasında əhəmiyyətli rol oynamışdır.

Təşkilatımız ənənəsinə sadiq qalaraq cari ildə də bu mühüm mövzuya müraciət etmiş, Şurasının dəstəyi ilə "İformasiya Texnologiyalarından istifadədə Azərbaycan dilinin saflığının qorunması: araşdırma, təhlil və təkliflərin hazırlanması" layihəsini həyata keçirir. Layihə çərçivəsidə aparılan ilkin araşdırmalar onu deməyə tam əsas verir ki, bir neçə il əvvəllə müqayisədə internet portallarından istifadədə dil qüsurları əsaslı şəkildə azalmışdır. Heç şübhəsiz, bu da Azərbaycan Dövlətinin bu mühüm sahəyə həssas yanaşmasının, eləcə də cəmiyyətin Dövlət tərəfindən irəli sürülən təşəbbüslərə dəstəyinin sevindirici nəticəsidir. Lakin bununla belə, informasiya texnologiyalarından isifadədə hələ də qüsurlar kifayət qədərdir və bunların da aradan qaldırılması günün tələbidir. Çünki yeni nəslin ən çox məşğul olduğu sahə məhz informasiya exnologiyalarıdır və burda yol verilən hər bir dil qüsuru gənc nəslin nitq mədəniyyətinin formalaşmasına ciddi mənfi təsir göstərir.

Daha bir sevindirici məqam ondan ibarətdir ki, əvvəlki illərdən fərqli olaraq dövlət və hakimiyyət orqanları tərəfindən yaradılan və idarə edilən portallarda Azərbaycan ədəbi dilinin pozulması halları, demək olar ki, sıfıra bərabərdir. Ancaq bizi, eləcə də layihənin işində çalışan ekspertləri narahat edən bir faktdır ki, özəl sektorların, o cümlədən ayrı-ayrı şirkətlərin, onlayn media vasitələrinin, habelə intellektual oyun tərtibçilərinin saytlarında, digər internet resurslarında hələ də ciddi qüsurlara yol verilir.

***Təhmasib Novruzov,***
***"Azadlıq Hərakatçıları" İctimai Birliyinin sədri***

# Çək köçünü Qarabağdan, uzaqlaş!





Erməni, mənimlə şahmat oynama,
Səni mat qoyaram bu oyunda mən.
Özgə dodusuyla hərdən qaynama,
Neçə yol olub ki, uduzmusan sən
Çək köçünü Qarabağdan uzaqlaş!

Ay erməni, qoyun kimi mələrdin
Ac-yalavac çöllərdə sülənərdin.
Yersiz-yurdsuz küçədə dilənərdin
Gecə çadır qurub, gündüz sökərdin
Çək köçünü Qarabağdan uzaqlaş!

Erməni, əzəldən satqın, qorxaqsan
Həm başıboş, həm də ki, çox axmaqsan.
Tülkü kimi sülənənsən, yaltaqsan,
Düşüncəsiz, dərrakəsiz, sarsaqsan
Çək köçünü Qarabağdan uzaqlaş!

Qarabaqda sən təm-təraq qurursan,
Nahaq yerə öznü belə yorursan.
Kimin qarşısında qul tək durursan
Hansı mükafata sahib olursan?
Çək köçünü Qarabağdan uzaqlaş!

Döyüşlərdə qırılırlar balalar
Bax, necə də nalə çəkir analar.
Heç bir zaman sağalmaz bu yaralar,
Su başında ağlayırlar sonalar
Çək köçünü Qarabağdan uzaqlaş!

Otuz ildir bəsdir həddini aşdın
Yalquzaq tək bizim eldə dolaşdın.
Andranik yada düşdü savaşdın
Vəhşi bəbir kimi sən quduzlaşdın
Çək köçünü Qarabağdan uzaqlaş!

***Ofeliya Mürsəlqızı Mürsəlova***
***ADPU-nun sabiq pedaqoqu***

# Ağ Evdə təlaş: Trampın müşaviri infeksiyaya yoluxdu

ABŞ Prezidenti Donald Trampın Milli Təhlükəsizlik məsələləri üzrə müşaviri Robert O'Brayen koronavirusa yoluxub. SİA xəbər verir ki, bu barədə ABŞ mətbuatı məlumat yayıb. "Bloomberg"in müxbiri Cennifer Yakobs şəxsi tvitter səhifəsində Brayenin evdə izolyasiya olunduğunu və uzaqdan işlədiyini yazıb.



Nüfuzlu mətbuat orqanlarının yüksək vəzifəli Ağ Ev nümayəndələrinə istinadən verdiyi xəbərə görə, Brayenin ailəvi tədbirdə infeksiyaya yoluxduğu ehtimal edilir. Qeyd edək ki, Robert O'Brayen bu günə qədər Ağ Evdə COVID-19-a yoluxan ən yüksək vəzifəli şəxsdir.

# Su çatışmazlığı öz həllini tapacaq



MƏŞHUR MƏMMƏDOV,
Milli Məclisin üzvü

*Suya qənaət olunmalı, qanunsuz qoşulmalar tezliklə aradan qaldırılmalı və buna yol verənlərə qarşı hüquqi tədbirlər həyata keçirilməlidir*

Ölkə vətəndaşlarının sosial-rifah halının dahada yaxşılaşdırılması, onun maddi, mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması Azərbaycan Prezidenti İlham Əliyevin apardığı siyasətin mühüm prinsiplərindəndir. Məhz Prezident İlham Əliyev rəhbərliyi ilə ölkəmizdə uğurlu sosial siyasətin həyata keçirilməsi ilk növbədə belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, bu siyasətin əsas məqsədi Azərbaycanda sosialyönümlü dövlət quruculuğunu təmin etməkdir. Vaxtaşırı olaraq insanların məşğulluğunun artırılması, müxtəlif sahələrə olan tələbatlarının ödənilməsi üçün müxtəlif layihələr, dövlət proqramları həyata keçirilir. Bu layihələri arasında içməli su və meliorasiya layihələrinin icrası mühüm layihələrdəndir. Məhz içməli su və meliorasiya layihələrinin uğula icrası nəticəsində əhalinin su təminatında ciddi nailiyyətlər əldə olunub. Azərbaycanda nəhəng su layihələrindən olan Oğuz-Qəbələ-Bakı su kəməri xüsusilə qeyd edilməlidir.

Taxtakörpü su anbarının tikintisi, Ceyranbatan su anbarının yenidən qurulması və müasir təmizləyici qurğuların inşa edilməsi, Şəmkirçay, Göytəpə və Tovuzçay su anbarlarının inşa edilməsi su ehtiyatlarının yaradılmasında mühüm rol oynayır. Amma mütəxəssilərin qeyd etdiyi kimi, ölkəmizdə içməli suya olan tələbat artmaqdadadır. 2004-cü ildə Azərbaycanda içməli suya təminat 40 faiz səviyyəsində idisə, bu gün bu rəqəm 70 faizə təşkil edir. Bakı şəhərində içməli suyu davamlı şəkildə alan əhalinin sayı 29 faiz idi. Bu gün bu rəqəm təxminən 82 faizə çatıbdır. Regionlarda isə əhalinin içməli su ilə əhatə dairəsi cəmi 9 faiz idi. Bu gün bu rəqəm 63 faizdir. Müvafiq qurumlar, təşkilatlar tərəfindən ölkənin çay-su ehtiyatlarından səmərli istifadə məsələsi ilə bağlı işlər görülür. Son dövürlərdə respublikada su anbarlarının tikintisi, su təminatı, sudan səmərəli istifadə, xüsusilə kənd təsərrüfatı sistemində sudan səmərli istifadə gündəmdə duran məsələlərdəndir. Bu günlərdə Prezident İlham Əliyevin yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş müşavirədə, Cənab Prezident su probleminin Azərbaycan dövləti üçün ən vacib və prioritet məsələ olduğunu bildirdi. Dövlət başçısı ölkədə su itkisinin 40-50 faiz təşkil etməsini "dözülməz hal" adlandırdı və bildirdi ki, bu itkilərin kimlərinsə marağındadır.

Dövlət başçısı onu da əlavə etdi ki, itkilərin əsas mənbəyi torpaq kanallardır, amma təkcə torpaq kanallar deyil. Digər mərhələlərdə də itkilərə yol verilir: "Bəzi hallarda bu itkilər süni şəkildə şişirdilir. Bəzi hallarda heç itki olmur, amma suyun həcmi itkilərə silinir. Mənə verilən məlumata görə, burada da xoşagəlməz hallar kifayət qədər geniş vüsət alıb. Ona görə, birincisi, biz bu itkiləri azaltmalıyıq. Çünki 40-50 faiz itki dözülməz səviyyədir. Mən yenə də deyirəm, əgər itkilər aradan qaldırılsa, bizim mövcud su mənbələrimiz və su resurslarımız kifayətdir".

Müşavirədə də qeyd olunduğu kimi, bəzi bölgələrimiz, xüsusilədə, Nefçala rayonu su sarıdan ciddi şəkildə korluq çəkir. Artıq rayon mərkəzi daxil olmaqla, 15 kənd su ilə təminatı maşınlar vasitəsi ilə həyata keçirilir. Ancaq problem öz həllini qısa zamanda tapacağı şübhəsizdir. Çünki, problemin həll olunması üçün Cənab Prezident ciddi tapşırıqlar, göstərişlər verib. Ümumiyyətlə su probleminin köklü şəkildə həll edilməsi üçün hər zaman dövlət müvafiq işlər görür. Hələ cari ilin aprelində ölkə Prezidenti İlham Əliyevin sərəncamı ilə su təchizatı ilə məşğul olan mərkəzi icra qurumlarının fəaliyyətini koordinasiya edən komissiya yaradılmışdır. Komissiyaya rəhbər Baş Nazirin müavini Şahin Mustafayev təyin olunmuşdur. Müşavirədə də qeyd edildiyi kimi, komissiya qısa vaxtda xeyli iş görmüşdür. Su ehtiyatları barədə operativ məlumat sistemi qurulmuş, aidiyyəti qurumlardan alınan məlumatlar təhlil edilmiş, sudan səmərəli istifadə ilə bağlı verilmiş tapşırıqların gündəlik nəzarəti təmin edilmişdir. Bunlardan əlavə, mövcud su ehtiyatlarının ədalətli, optimal və proporsional bölgüsü prinsipi əsasında 580 mindən çox əkin sahəsi üzrə suvarma qrafikləri tərtib olunmuş, eləcə də suyun mənbədən götürülməsindən son istehlakçıyadək bütün mənbələr üzrə uçotun və dəqiq qiymətləndirmənin aparılması ilə bağlı tədbirlərin görülməsinə başlanmışdır. Suyun çatışmazlığı iqtisadiyyatımıza, kənd təsərrüfatının inkişafına, fermerlərin gəlirlərinə mənfi təsir göstərir. Bu baxımdan suya qənaət olunmalı, qanunsuz qoşulmalar tezliklə aradan qaldırılmalı və buna yol verənlərə qarşı hüquqi tədbirlər həyata keçirilməlidir. Azərbaycan Prezidenti İlham Əliyev su təsərrüfatının vəziyyəti ilə bağlı keçirdiyi müşavirədə bildirmişdir ki, su resursları ekoloji tarazlığa, kənd təsərrüfatının inkişafına çox böyük təsir göstərir: "Biz kənd təsərrüfatımızı intensiv yollarla inkişaf etdirməliyik və buna nail olmaq üçün kifayət qədər su mənbələrimiz olmalıdır və bu, var. Sadəcə olaraq, əgər, dəhşətli dərəcədə bu itkilər olmasaydı, biz mövcud su resursları ilə özümüzü tam təmin edə bilərdik. İndi bu məsələ araşdırılır, bəzi hallarda itkilər 40 faizdir və 50 faizə çatır, bu, dözülməzdir. Biz suyu itiririk. Beləliklə, o, əkin sahəsinə, insanların evinə çatmır, əksinə, torpaqlara ziyan vurur. Bizim indi ən çox əməktutumlu sahələr taxılçılıq və pambıqçılıqdır. Pambıqçılıq, ümumiyyətlə, su olmadan inkişaf edə bilməz. Pambıqçılıqda təqribən 200-300 min adam işləyir, öz ailə büdcəsini təmin edir. Biz müasir texnologiyaların, o cümlədən müasir suvarma sistemlərinin mövcud olduğu taxılçılıq təsərrüfatlarında hər hektardan təqribən 70-80 sentner buğda alırıq. Bu, inkişaf etmiş ölkələrin səviyyəsindədir".

Bir sözlə, həyata keçirilən tədbirlər, görülən məqsədyönlü işlər onu deməyə əsas verir ki, yaxın vaxtlar içməli su ilə bağl bəzi bölgələrdə yaranan problemlər tamamilə aradan qaldırılacaq. Eyni zmanda kənd təssərrüfatı sahələrinin üzləşdiyi su çatışmazlığı öz həllini tapacaq.

## ÜST: "Koronavirusun mövsümiliyi təsdiqlənməyib"

COVID-19 xəstəliyinə səbəb olan koronavirusun mövsümi xarakteri hazırda təsdiqlənməyib. Bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəsmi nümayəndəsi Marqaret Harris açıqlayıb. "Mövsüm virusun ötürülməsinə təsir göstərmir", - deyə, o bildirib. Onun dediyinə görə, buna koronavirusun həm şimal, həm də cənub yarımkürəsində fərqli mövsümlərdə, fərqli enliklərdə yerləşən bir sıra ölkələrdə sürətlə yayılması sübutdur.

Harris bildirib ki, xəstəliyin yayılmasında sosial məsafəni qorumayan insanların təsiri çoxdur. O, qripin koronavirusdan fərqli olaraq, mövsümi xəstəlik olduğunu da qeyd edib. ÜST mövsümi qripin koronavirusun yayılması ilə üst-üstə düşəcəyi təqdirdə səhiyyə sistemlərinin tamamilə yüklənəcəyindən narahatdır. Harris izah edib ki, koronavirusun hazırkı mərhələsi birinci mərhələ olaraq qəbul edilməlidir, ikincisi isə gah artıb, gah azalan "böyük dalğa" olaraq gələcək.



## Könül Məmmədova: "Prezidentimizə inamımız böyükdür"



"İyulun 12-də Ermənistan-Azərbaycan dövlət sərhədində başlayan düşmən təcavüzünün qarşısı qəhrəman Ordumuz tərəfindən qətiyyətlə alındı. Şəhid olan hərbçilərimizin qisası da yerdə qalmadı". Bunu SİA-ya açıqlaçasında YAP Qadınlar Şurasının üzvü Könül Məmmədova deyib.

Könül Məmmədova bildirdirib ki, azğın düşmən haq etdiyi cəzanı artıqlaması ilə aldı: "Bir neçə gün sonra minlərlə insan küçələrə axışıb Sizə, şanlı Ordumuza, dövlətimizə möhtəşəm həmrəylik nümunəsi göstərdi,- çoxu gənc idi. Onların könül coşqusu ilə dedikləri "Azərbaycan", "Şəhidlər ölməz, Vətən bölünməz" nidaları biz anaların da qəlbini böyük həyəcan və sevinc, qürur hissi ilə doldurdu. Xalqımızın Sizinlə birgə olması, bölünməzliyi, bütövlüyü dövlətimizlə xalqımızın sarsılmaz birliyinin daha bir bariz nümunəsi oldu. Həmrəylik yürüşündə bir qrup təxribatçının törətdikləri yaramaz əməllər heç vaxt bu birliyin üstə kölgə sala bilməz. Sevimli Prezidentimiz! Biz övladlarımızı xalqımıza, dövlətimizə sədaqət, vətənpərvər ruhda böyüdürük. Əmin olun ki, gənc nəsl Ulu Öndərimiz Heydər Əliyev ideyalarını hər zaman uca tutur, Vətənə layiq övlad olmağı, ölkəmizin inkişafına öz töhfələrini vermək arzusu ilə yaşayırlar. İşğal altındakı torpaqlarımızın azadlığı isə bütün istəklərinin fövqündə dayanır. Sizin çıxışlarınızı hər zaman diqqətlə dinləmişəm. Qarabağ məsələsinin həlli üçün necə böyük fədakarlıqla çalışdığınız hamımıza məlumdur. İyulun 21-də Bakıda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində dedikləriniz biz anaların qəlbində inam hissini daha da artırdı, hamımızı işğal olunmuş ərazilərimizin tezliklə azad ediləcəyinə inandırdı. Dediklərinizdən bir fikri yenidən yada salmaq istəyirəm: "Azərbaycan xalqı bilsin ki, bu, milli məsələdir. Biz bu məsələni elə həll etməliyik ki, bu həll Azərbaycan xalqını tam təmin etsin. Hər hansı bir yarımçıq həll bizə lazım deyil. Çünki bu, müvəqqəti olacaq. Yarımçıq, sadəcə, mərhələ ola bilər. Ancaq məsələnin həlli tam olmalıdır. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü tam təmin edilməlidir. İşğal edilmiş bütün torpaqlar istisnasız azad edilməlidir". Cənab Prezident! Mən Şamaxı rayonunda yaşayan bütün analar adından Sizə ölkəmizin inkişafı, xalqımızın rifahı, doğma Qarabağın azadlığı yolunda fəaliyyətinizdə daha böyük uğurlar arzulayıram. Prezidentimizə olan inamımız böyükdür. Komandanlığınız altında Qarabağımıza qovuşacağımıza tam əminik. O sevincli, unudulmaz günü Sizinlə, qüdrətli Ordumuzla birgə yaşayacağıq".

## Neft Fondunun gəlirlərinin gələcək nəsillərə faydası nə olacaq?



"Azərbaycan Respublikası Neft Fondu vəsaitlərinin gələcək nəsillərə faydası daha çox həmin vəsaitdən ölkədə dayanıqlı iqtisadiyyatın formalaşdırılması, ölkədə təhsilin, səhiyyənin gücləndirilməsinə nail olmaqla mümkündür ki, ölkədə yaşam şəraiti daha sərfəli olsun". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti, iqtisadi məsələlər üzrə ekspert Azər Mehtiyev Azərbaycan Respublikası Dövlət Neft Fondunun gəlirlərinin səmərəli istifadə olunması ilə bağlı danışarkən deyib. Onun sözlərinə görə, Azərbaycan Respublikası Dövlət Neft Fondunun həm birbaşa özündən layihələr maliyyələşir, həm də Fondun xərclənmiş vəsaitinin təqribən 90 faizindən çoxu dövlət büdcəsi vasitəsilə xərclənilib: "Biz Fondun vəsaitlərinin səmərəli istifadə olunmasından danışarkən ilk növbədə dövlət büdcəsindən ayrılan vəsaitlərin nə qədər səmərəli olmasından danışmalıyıq. Bu yaxınlarda ölkədə suyun vəziyyəti ilə bağlı keçirilmiş tədbirdə dövlət başçısı suya yönəlik layihələrin istifadəsi və idarə olunmasından danışdı. Təəssüf ki, aparılan müşahidələr onu göstərir ki, dövlət büdcəsindən, xüsusilə, investisiya layihələrinə ayrılan vəsaitlərdə səmərəlilik gözlənilməyib və layihələr şişirdilib. Əksər hallarda əldə olunan nəticələrlə xərclənən vəsaitlər arasında uyğunsuzluq olub. Bu layihələrdən əldə olunan nəticələr xərclənən vəsaitlərə uyğun olmayıb. Bu problem ciddi olaraq qalır. Bu baxımdan biz deyə bilərik ki, Dövlət Neft Fondunun vəsaitlərinin istifadə olunmuş həcmi ilə ölkənin onunla əldə etdiyi fayda arasında böyük fərq var. Bu dəfələrlə çox ola bilərdi".

İqtisadçı əlavə edib ki, Dövlət Neft Fondunun birbaşa özündən həyata keçirilən layihələrlə bağlı da oxşar şeyləri söyləmək olar: "Bu layihələrin bir hissəsi beynəlxalq layihələr olub və onlara nəzarət bir qədər fərqlidir. Bu layihələrdə səmərəlilik səviyyəsi normal olub. Ölkədaxilində maliyyələşən layihələr, xüsusilə də, qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı layihələr, su layihələri və digər ölkədaxili layihələrlə, investisiya layihələri və s. ilə bağlı eyni şeyi deyə bilərik. 2009-cu ildə ildə dövlət başçısı göstəriş vermişdi ki, investisiya layihələrinin iqtisadiyyata əsaslandırılması və nəticələrin qiymətləndirilməsi ilə bağlı xüsusi qaydalar hazırlanmalıdır. Lakin, təəssüf ki, həmin qaydalar bu günə qədər hazırlanmayıb. Eyni zamanda, ictimai nəzarət də bu sahədə zəifdir".

Neft Fondu gəlirlərinin gələcək nəsillər üçün qorunub saxlanılan hissəsindən danışan Azər Mehtiyev bildirib ki, bu biraz mübahisəli məsələdir və təbii ki, ölkənin özünün infrostrukturunun qorunması baxımından da böyük layihələrə və vəsaitlərə ehtiyac var idi: "Əslində bu vəsaitlər daha səmərəli xərclənsə idi Neft Fondunun vəsaitləri indi daha çox ola bilərdi. Lakin, indiki böhran dövründə ölkədə maliyyə sabitliyinin qoruması baxımından təhlükəsizliyi təmin edə biləcək qədər vəsait var. Bu vəsaitin gələcək nəsillərə faydası daha çox həmin vəsaitdən ölkədə dayanıqlı iqtisadiyyatın formalaşdırılması, ölkədə təhsilin, səhiyyənin gücləndirilməsinə nail olmaqla mümkündür ki, ölkədə yaşam şəraiti daha sərfəli olsun. İnsanlar gələcəkdə öz bilik və bacarıqlarını artırmaq üçün daha real şəraitə nail olsunlar. Əgər, bu olsa həmin vəsaitdən daha səmərəli istifadə etmək mümkün olar. Təbii ki, ölkəmizdə məktəblər, xəstəxanalar və s. infrostrukturlar tikilib. Lakin, bura sərf olunan vəsaitlər oradan əldə olunan nəticələr arasında uyğunsuzluq mövcuddur".

***Nigar Məmmədova***

# "Sevinc Osmanqızı, sən özünü yandırdın!"

*"Ən maraqlı məqam isə artıq Sevinc Osmanqızının el dili ilə desək xalq içində xar olmasından iki gündən çox vaxt keçməsinə baxmayaraq günaşırı onun youtube kanalında çıxış edən Ali Karimli (Əli Kərimli)dən səs-səmir çıxmır"*




YAP-ın gənc fəalı Anar Şahmuradovun Sevinc Osmanqızının xəyanət obrazını müdafiə edənlərə qarşı maraqlı status paylaşımı edib. SİA-nın məlumatına görə, statusda qeyd olunur ki, Amerikada yaşayan youtube Sevinc Osmanqızının ermənimövqeyindən çıxış etməsi və azərbaycanlıları baş verən hadisələrdə günahkar bilməsi Azərbaycan ictimaiyyətində çox sərt formada qəzəb və ikrah hissləri yaradıb. Hətta sosial şəbəkələrdə Sevinc Osmanqızının Azərbaycan vətəndaşlığından çıxarılması tələbi ilə çıxış edən sadə vətəndaşların şərhlərinə də rast gəlinir. SİTAT: "Bir sözlə. "Sevinc Osmanqızı" adı gəldikdə azərbaycanlı olan şəxslərin gözündə artıq bir satqın obrazı yaranır. Xalqın Sevinc Osmanqızına qarşı qəzəbini özündə əks etdirən paylaşımların ilk mərhələsində AXCP trolları onu müdafiə etməyə cəhd göstərsələr də, sonradan onlar da bu fikirdən daşınmalı oldular. Ən maraqlı məqam isə artıq Sevinc Osmanqızının el dili ilə desək, xalq içində xar olmasından iki gündən çox vaxt keçməsinə baxmayaraq, günaşırı onun youtube kanalında çıxış edən Ali Karimli (Əli Kərimli)dən səs-səmir çıxmır. Halbuki, Sevinc Osmanqızı özünün kanalında onu dayanmadan-durmadan raskrutka edir, video müsahibələri təm-təraqlı olsun deyə "canlı" adı ilə tamaşaçılara sırıyır, bir müsahibəni 15 yerə bölüb klip formatında kanalına yükləyirdi. Uzun sözün qısası, Sevinc Osmanqızı Əli Kərimli üçün məşhur mahnıda deyildiyi kimi, "alışıb yanardım köz istəsəydin" prinsipi ilə yaşayırdı".

**"İşdir, sönüb sağ qalsan, unutma "eşkiya katibəyə yar olmaz!"**

Gənc fəalın sözlərinə görə, ancaq dar gündə "bəy" yoxdur: "Admin heyəti səhifəni öz bildiyi kimi "yazır". Əli Kərimli niyə, nədən admin heyətinə Sevinc Osmanqızı haqqında paylaşmaq üçün namə göndərmir? Bu qədərmi "naxələflik" olar? Niyə bir çıxdığınız "yolu" bir getmədiniz? Əksinə, Sevinc Osmanqızına Əli Kərimlidən əlavə bir zərbə də gəlməkdədir. Belə ki, Əli Kərimli ciddi-cəhdlə Xədicə İsmayılı raskrutka eləməyə başlayıb. Olsun ki, Əli Kərimli o düşüncədədir ki, o olmasın, bu olsun. Sevinc Osmanqızı, sən özünü yandırdın, bu, öz yerində! Əli Kərimli isə sənin külünü ərşə sovurur. İşdir, sönüb sağ qalsan, unutma "eşkiya katibəyə yar olmaz"!

***Rövşən RƏSULOV***

# AXCP bir daha rəsmən parçalandı

*Razi Nurullayevin MCP-si hesab edir ki, Əli Kərimli və partiyası xəyanətkar və satqındır!*




Hazırkı dövrə qədər, AXCP adını zorla mənimsəmiş və işğal etmiş Əli Kərimliyə qarşı etiraz əlaməti olaraq onun təşkilatından yüzlərlə şəxs istefa verib ya da ayrı-ayrılıqda siyasi partiya yaradaraq fəaliyyətlərini öz istiqamətlərində qurublar. Onlardan biri də, vaxtilə Ə.Kərimlinin müavini olmuş Razi Nurullayevdir. Qeyd edək ki, R.Nurullayev uzun müddət sədri olduğu partiyasını alternativ AXCP olaraq idarə edirdi, bu günlərdə isə o MCP (Milli Xalq Cəbhəsi) adlı siyasi təşkilat yaradaraq bu partiyanın sədri olduğunu bəyan edib.

Bəyanatdan: **"AXCP adından imtina edir, siyasi proseslərdə partiya olaraq iştirakımıza hüquqi zəmin yaratmaq üçün Milli Cəbhə Partiyası təsis etdiyimizi elan edirik"**

Bu amil həm də onu təsdiq edir ki, R.Nurullayev MCP adlı siyasi təşkilatını təsis edərkən, Ə.Kərimliyə qarşı haqlı ittihamlarını irəli sürüb. SİTAT: "Əli Kərimlinin partiya daxilində yaratdığı avtoritarizm, fərqli fikrə dözümsüzlük və partiya sədrliyindən əl çəkməməsi təşkilatı öz mübarizə strategiyasından və taktikasından yayındırmış, partiyada Əbülfəz Elçibəy ideyaları arxa plana keçirilmiş, şəxsi mənafelər və kosmopolit düşüncələr sistemi hakim kəsilmişdi. Ona görə də AXCP növbəti dəfə 2015-ci ildə bu böhranı yaşamalı oldu. Nəticə etibarı ilə AXCP toparlana bildi. Qurultaydan keçən dövr ərzində partiya xeyli güclənmiş, demokratik prinsiplər bərqərar olunmuş, partiyaya kifayət qədər milli ruhlu insanlar cəlb edilmiş, cəbhəçilər demokratik prinsiplərlə idarə olunan partiyaya sahib çıxmışlar".

"Bütün bunları nəzərə alaraq, AXCP adından imtina edir, siyasi proseslərdə partiya olaraq iştirakımıza hüquqi zəmin yaratmaq üçün Milli Cəbhə Partiyası təsis etdiyimizi elan edirik", deyə qeyd edilən bəyanatda o da bildirilir ki, onlar bu addımla müxalif düşərgədə ilk həmrəyliyin yaranması istiqamətində addım atmış olurlar: "Eyni zamanda, fəal siyasi kəsimə seçim üçün imkan yaradırıq ki, siyasi mübarizələrini sağlam formada və millətə sevgi və dövlətə etiqad prinsipində olan bir partiyada davam etdirə bilsinlər. Hesab edirik ki, MCP-nin yaranması ilə siyasi qüvvələr arasında təmərküzləşməyə nail olmaq və bütün siyasi qüvvələrlə qarşılıqlı əməkdaşlıq mümkündür".

Bu amildən həm də belə nəticə çıxarmaq olar ki, belə bir yeni düşüncəli siyasi müxalifət partiyalarının yaranması eyni zamanda satqın, xəyanətkar və əsasən, Əli Kərimli siyasi manqurtların çıxdaş olunması üçün mühüm addımlardır.

***Rövşən NURƏDDİNOĞLU***

# "Osmanqızının anti-milli çıxışları "N" qədərdir"



"Sevinc Osmanqızının bütün arqumentlərinin əsassızlığını sübut edən faktlar uzaqda deyil, onun öz arxivində var. "Yalançının yaddaşı qısa olar" deyiblər. Amma rəqəmsal yaddaş indi yalanlar üçün yol qoymur". Bunu SİA-ya açıqlamasında Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli deyib.

Onun sözlərinə görə, 2019-cu il oktyabrın 31-də ABŞ-da yaşayan azərbaycanlılar Konqresin "Reynbörn" zalının qarşısında aksiya keçirmişdilər: "Soydaşlarımız işğal edilmiş Azərbaycan torpaqlarında yaradılan qondarma rejimin dırnaqarası xarici işlər naziri kimi təqdim edən Masis Mayılyanın Birləşmiş Ştatlara səfərinə etiraz edirdilər. Zalın qarşısına toplaşan erməni diasporun nümayəndələri buraya etiraza gələn Azərbaycan diaspor təmsilçilərinə qarşı təxribat, insident törətmişdilər. Həmin vaxtı Sevinc Osmanqızı öz verilişində erməniləri deyil, məhz azərbaycanlıları qınamışdı. İndiki kimi eyni iddia ilə çıxış etmişdi ki, "Konqres binasının qarşısına toplaşmaq absurddur" və sair. Bunu Sevinc Osmanqızının iki gün öncə etdiyi və qalmaqala səbəb olan çıxışı fonunda xatırladım. O, ciddi etirazlara səbəb olmuş fikirlərinin kontekstdən çıxarıldığını iddia edir. Məsələn, "azərbaycanlılar nə üçün Brüsseldəki, ABŞ-dakı səfirliklərin qarşısına toplaşıb onları müdafiə etməlidirlər?!" fikrini belə əsaslandırır ki, bu səfirliklər mövcud olduqları ölkələrin hüquq-mühafizə orqanları tərəfindən ciddi şəkildə mühafizə olunduqları üçün oraya toplaşmaq lazım deyilmiş. Davam edir ki, Qarabağ probleminin həlli üçün səfirliklərin qarşısına deyil, digər qurumların, o cümlədən Konqresin qarşısına toplaşıb tələblər irəli sürmək lazımdır və sair. Amma səmimi deyil, sadəcə vəziyyətdən çıxmaq üçün belə danışır. İndi Konqresin qarşısını ünvan göstərir, amma 7-8 ay öncə Konqresin qarşısına gedənləri "mənasız hərəkətlər etdikləri üçün" qınamışdı, təhqir etmişdi. Özünü inkar edən bütün arqumentlər onun arxivində var və çox zəngindirlər. Adamın anti-milli çıxışları "N" qədərdir".

# "Azərbaycan tək başına çox güclüdür"




"Bu, 2019-cu ilin hazırkı vaxtına hazırlanmış və qrafik əsasında əvvəlcədən planlaşdırılmış təlimlərdir". Bu sözləri SİA-ya açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri, siyasi məsələlər üzrə ekspert Mübariz Əhmədoğlu Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasındakı hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq birgə hərbi təlimlərin keçirilməsi məsələsinə münasibət bildirərkən deyib.

Onun sözlərinə görə, təlimlər əvvəlcədən hazırlanmış qrafik əsasında təşkil olunub və həmin qrafikə uyğun olaraq da Azərbaycan və Türkiyənin birgə hərbi təlimləri keçiriləcək. Mübariz Əhmədoğlu bildirib ki, hazırda Azərbaycan Dağlıq Qarabağ məsələsində həm hərbi baxımdan, həm də diplomatik baxımdan Ermənistana qalib gələ bilər və bu, özünü 2016-cı ilin Aprel döyüşlərində də göstərdi: "Bu döyüşlərin ən vacib əhəmiyyəti ondan ibarət idi ki, qələbəni Azərbaycan tək başına qazandı. Elə məhz, Azərbaycan tək olduğuna görə də belə bir möhtəşəm qələbə çaldı. Hazırda, Tovuz təxribatları ilə bağlı məsələdə Türkiyənin adı da hallandı və sanki, bəzi qüvvələr elə etdi ki, Azərbaycanın Tovuz təxribatlarındakı qələbəsi o qədər də gözə görünmədi. Biz çox ciddi şəkildə çalışmalıyıq ki, belə əməliyyatlar aparılarkən Türkiyənin adı Azərbaycanın adı ilə az hallansın. Azərbaycan tək başına çox güclüdür. Rusiya üçün biz çox güclü bir müttəfiqik. Dünyanın böyük bir regionunda Suriyada, Livanda, Liviyada, İraqda, Yunanıstanda, Aralıq dənizində Rusiya ilə Türkiyə biri-biri ilə intriqa aparır. Rusiya elə fikirləşir ki, Türkiyə bununla Qafqaza girir və belə halda Rusiya hər cürə addım ata bilər. Azərbaycan Rusiya və Türkiyə qarşıdurmasının meydanına çevrilə bilər. Biz bundan qaçmalıyıq".

Siyasi ekspert qeyd edib ki, ermənilər Tovuzda təxribat törətdiyi zaman, Rusiya da Şimali Qafqazdakı qoşun hissələrini yoxlama adı ilə ayağa qaldırdı, lakin, sonradan Rusiyanın Müdafiə Naziri 3 dəfə bəyan etdi ki, bizim qoşunları ayağa qaldırmağımıza səbəb əvvəlki plan üzrə həyata keçirilib və biz bunu Azərbaycanın hərbi əməliyyatlarına görə etməmişik. O vurğulayıb ki, bu gün istənilən halda bir dövlət belə Ermənistanı müdafiə etmədi və yalnız ayrı-ayrı dövlətlərdən əbədi ermənipərəst siyasətçilər Ermənistanın müdafiəsinə qalxdı: "Hətta, Yunanıstan belə Ermənistanın tərəfindən çıxış etmədi və bütün dünya ölkələri bu məsələdə Azərbaycanı müdafiə etdilər. ATƏT-in Minsk qrupunun son bəyanatı isə Paşinyanın ağzının üstünə böyük bir yumruq idi".

***Nigar Məmmədova***

# Bu il 12 min işsiz şəxs özünüməşğulluq proqramına cəlb ediləcək

Özünüməşğulluq proqramının əhatə dairəsinin genişləndirilməsi və icrasının sürətləndirilməsi işləri davam etdirilir. Bu il ərzində 12 min işsiz şəxsin proqrama cəlb edilməsi planlaşdırılır. Artıq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 3700-dən çox vətəndaş həmin proqrama cəlb edilib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, özünüməşğulluq proqramının genişləndirilməsində bu il Dünya Bankı ilə birgə layihə həyata keçiriləcək. Layihə çərçivəsində hər il 5 min, bu il isə 2 min ailənin özünüməşğulluğu təmin ediləcək. Həmçinin nazirlik tərəfindən BMT-nin İnkişaf Proqramı ilə əməkdaşlıq çərçivəsində 500 nəfər əlilliyi olan şəxsin aktivlərlə təmin edilməsi işləri həyata keçirilir. Özünüməşğulluq proqramına dəstək məqsədilə Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyi ilə əməkdaşlıq da bu il üzrə davam etdiriləcək. Belə ki, 2020-ci ildə daha 250 ailə üçün bağçılıq təsərrüfatlarının yaradılması nəzərdə tutulub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Mərkəzi Bankı və Azərbaycan Banklar Assosiasiyası arasında həssas əhali qruplarının özünüməşğulluğunun təşkilinə köməklik göstərilməsi sahəsində əməkdaşlığa dair memoranduma əsasən özünüməşğulluq proqramının genişləndirilməsində banklarla da əməkdaşlıq edilir. Artıq 200-dən çox proqram iştirakçısına seçdikləri fəaliyyət sahəsi üzrə kiçik bizneslərini qurmaq üçün banklar tərəfindən mal və materiallar formasında aktivlər təqdim edilib.

# “Şəhid atanın nankor qızı”

***Belə bir deyim var: “Torpaq nankor bir insandan daha rəzil bir şey yetişdirməz”. Bu rəzillik ən çox o zaman özünün ən aşağı səviyyəsinə qədər düşər ki, zülmə və təzavüzə uğrayan xalqına qarşı bədnam niyyətlərə qapılar. Sevinc Osmanqızı da məlum verilişində bu rəzilliyin ən pik nöqtəsində olduğunu nümayiş etdirdi. SİA-nın məlumatına görə, bunu məsələ ilə əlaqədar yazısında Avropa.info-nun baş redaktoru Rəsul Mirhəşimli deyib. Jurnalist sübut istəyənələr üçün Sevinc Osmanqızının öz dilindən səsləndirdiyi fikirlərdən nümunələr gətirib. Nüminələrdə deyilir; “Ermənilər ABŞ-da dinc aksiya keçirirdi”.***





RESIDENTIAL PURCHASE AGREEMENT

**I. The Parties**. This Real Estate Purchase Agreement (“Agreement”) made on June 22nd 2018 (“Effective Date”) between:

One (1) individual(s) known as Sevinj Mirzayeva (“Buyer”) with a mailing address of 1730 S , S Fillmore St , Arlington, Virginia, 22204.

AND

One (1) individual(s) known as James Levelier ("Seller") with a mailing address that is the same as the Property.

**II. Legal Description.** The real property is a condominium with a mailing address of 2001 Biscayne blvd, [redacted] Miami, Florida, 33137.

Tax Parcel Information (i.e., “Parcel ID” or “Tax Map & Lot”): N/A

**III. Personal Property**. There shall be no personal property included in this Agreement or included in the purchase of the real property. All removable items from the real property, i.e. "non-fixtures", shall be retained by the Seller at closing.

The real property and personal property shall be collectively known as the “Property”.

**IV. Fixtures**. The Parties agree that all fixtures located on or in the Property, including but not limited to storm windows, screens, shades, blinds, heating systems, HVAC components, stoves, air conditioners, pumps, electrical fixtures, and any other equipment, appliance, or furniture that is fixed in position shall be included in the sale of the Property.

**V. Earnest Money**. The Buyer shall not be required to make a payment, down payment, or any other type of monetary deposit that would be deemed consideration ("Earnest Money"). Consideration under this Agreement, unless otherwise required by State law, shall be the full faith of the Buyer's ability to perform under the terms of this Agreement.

**VI. Purchase Price and Terms.** The Buyer agrees to purchase the Property by payment of $261,000.00 (two hundred and sixty one thousand Dollars) as follows:

**All Cash Offer**. No loan or financing of any kind is required in order to purchase the Property. Buyer shall provide Seller written third (3rd) party documentation verifying sufficient funds to close no later than June 22nd 2018 at 05:00 PM. Seller shall have three (3) business days after the receipt of such documentation to notify Buyer, in writing, if the verification of funds is not acceptable. If Buyer fails to provide such documentation, or if Seller finds such verification of funds is not acceptable, Seller may terminate this Agreement. Failure of Seller to provide Buyer written notice of objection to such verification shall be considered acceptance to verification of funds.

**VII. Sale of Another Property**. Buyer's performance under this Agreement shall not be contingent upon selling another property.

**VIII. Closing Costs**. The costs attributed to the Closing of the Property shall be the responsibility of both Parties shared equally. The fees and costs related to the Closing shall include but not be limited to a title search (including the abstract and any owner's title policy), preparation of the deed, transfer taxes,

Page 1

***“Həqiqətən, insan çox azğınlıq edir. Çünki o, özünün heç bir şeyə ehtiyacı olmadığını düşünür”***

*(“Ələq” surəsi, ayə 6-7).*

İnsan özünü bu həddə qədər düşürüb, öz xalqının şərəfi ilə oynamağa çalışırsa, bunun başqa bir adı yoxdur, adam nankordur. Alman şairi və mütəfəkkiri Höte belə deyir: “Nankorluq zəif insanların işidir, güclü insanların içində əsla nankora rast gəlmədim”. ABŞ-da aksiyaların dinc şəkildə keçməsini polis təmin edirsə, Los Ancelesdə ermənilər azərbaycanlılara hücum edib, onlara xəsarət yetirəndə niyə bunu təmin etmədi? İnsan vicdanını hara qədər itirə, ölkəsinə nə qədər nifrət edə bilər ki, “ermənilər ABŞ-da dinc aksiya keçirirdi” deyə bilsin?

Sevinc Osmanqızı bunları deyir və efirdə açıq şəkildə erməni tərəfkeşliyini görən Vətən sevgisindən dəm vuran müxalifət fəalları onun verilişini bəyənir. Bu qədər alçaqlıqla yaşamaq sizin nəyinizə lazımdır?!

Bir insan gərək o həddə qədər nankorluq edə bilsin ki, “Bu qarşıdurmanı təşkil edən Azərbaycan tərəfidir”, deyə bilsin.

“Mən yenə də davanın kim başlaması məsələsinə girməyəcəm. Bunu ayırd etmək çətin məsələdir və əhəmiyyətli məsələ də deyil”. Bu da Sevinc Osmanqızının söylədiklərindədir.

Özünü jurnalist adlandıran şəxs ən azından münaqişənin kimin başlamasını araşdırmalı idi. Təəssübkeşlik və vətənpərliyi bir kənara qoysaq belə, ən azından peşəkarlıq və obyektivlik baxımından bunları araşdırmaq jurnalistin peşəsində şübhəli şəxslərdən asılılıq dərəcəsini nisbətən azaltmış olardı.

İyulun 12-də Tovuzda hücuma keçən biz deyildik. Azərbaycanın sərhəd rayonunda mövqelərimizi atəşə tutub, generlaımızla birlikdə 12 nəfər hərbçimizi şəhid edən də ermənilər idi. Eyni zamanda, rayonun sərhəd kəndlərində evləri atəşə tutan, mülki əhalidən olan insanları öldürən də ermənilər idi. Jurnalist bunları bilir və demək istəmirsə, çox şübhəli qaynaqlardan “qidalanır”. Bunu ölkədə və xaricdə baş verən prosesləri anlayan bir çox insanlar da gözəl bilir ki, Sevinc Osmanqızının qidalandığı qaynaq haradır və ya kimdir?!

Jurnalistikanı şübhəli qaynağına satan birinin dəyəri mənim gözümdə ermənidən heç nə ilə fərqlənmir. Sevinc Osmanqızının ermənilər bu qədər ciddi-cəhdlə müdafiə etməsinin səbəblərini axtaranda bir də onun barəsində bir neçə il əvvəl mətbuatda dərc edilmiş faktlara diqqət etmək lazımdır. ABŞ-da yaşayan azərbaycanlılardan bir belə deyir:

“ABŞ-da yaşayan azərbaycanlılar arasında belə məlumat yayıldı ki, S. Osmanqızı daimi olaraq Rusiya Federasiyasının Vaşinqtondakı səfirliyinin inzibati binasında keçirilən müxtəlif tədbirlər zamanı sözügedən ölkənin diplomatları ilə əlaqə yaradır. Bundan sonra isə belə münasibətləri gizli təmaslar formatında davam etdirdiyinə dair məlumatlar yayıldı. Bəzi məlumatlara görə, Sevinc Osmanqızı rus səfirliyində müşavir Serqey Koşelyev ilə də tanış olub. ABŞ-dakı diplomatik korpusda yayılmış informasiyaya əsasən, Koşelyev adi müşavir deyildi: bu şəxs RF Xarici Kəşfiyyat Xidmətinin ABŞ-da fəaliyyət göstərən zabiti idi. Çox güman ki, az əhəmiyyətli tərcümə işlərinin Sevinc Osmanqızına tapşırılmasını da bu şəxs təşkil etmişdi. İstisna etmək olmaz ki, S.Osmanqızı nəinki ingilis, habelə Azərbaycan dilindən də tərcümələr edir, jurnalist kimi topladığı məlumatları rus dilində RF səfirliyi üçün hazırlayırdı. Bu kimi işlər adətən belədə tədricən təşkil olunur və insan özü də hiss etməyərək kəşfiyyatın “tor”una düşür”.

“Sənədlərə əsasən, 261 min ABŞ dolları dəyərində olan sözügedən mənzil Florida ştatının varlılar məkanı kimi tanınan Mayami şəhərinin prestijli məhəlləsində - Biscayne küçəsində yerləşir. Maraqlısı odur ki, Osmanqızı bu mənzili ötən il iyun ayının 22-də özünə “ad günü hədiyyəsi” kimi alıb. Mənbəmiz bizim xahişimizlə sözügedən məkana gedərək Osmanqızının qonşuları ilə məlumat əldə etməyə də çalışıb”

Dahası da var! Onların - rus kəşfiyyat zabiti ilə Azərbaycan müxalifətinin Sevincinin övladları Virciniyadakı eyni məktəbdə oxuyurmuş! Bu da Koşelyevin Sevinclə münasibətlərinin genişlənməsinə daha da geniş təkan verməzmi...”

Həqiqətən nankor insanlar heç bir şey anlada bilməzsiniz. Çünki onların şəxsi mənfəəti hər şeydən yüksəkdə dayanar. Onlar üçün bu dünyada milli və mənəvi dəyərlər, dövlətin toxunulmazlığı heç bir dəyər ifadə etməz. Onların düşüncələrinin görüş dairəsi məhduddur. Həqiqəti görməz və düşünmək istəməzlər.

Bir də bu cür nankorluğa haqq qazandırmaq meylləri var. Özünü peşəkar jurnalistikada əvəzolunmaz sima sayan biri iddia edir ki, Sevinc Osmanqızının efirdən söylədikləri montaj olunaraq yayılıb. Canlı yayım zamanı efirdən səslənən fikirlərin montaj olunduğunu iddia etdiyini deyən birinin həqiqəti inkar etməsi ilə yanaşı, ağlında çatışmazlıqların olduğu aydın görünür.

Başqa bir məsələ, milli mücadilə, vətən sevgisindən pafosla danışan müxalifət təmsilçiləri və fəallarının Sevinc Osmanqızının müdafiəsinə qalxmasıdır. Mənim gözümdə ermənini müdafiə edən Sevinc Osmanqızı ilə onun dediklərinə haqq qazandıranlar eyni dəyərdədir. Bələlərinə nəyisə sübut etməyə qalxmaq əlavə vaxt itkisindən başqa bir şey deyil.

Həmin verilişdə səsləndirdiyi sözlərə görə, Sevinc Osmanqızı hər şeydən əvvəl nankor övlad olduğunu sübuta yetirdi. Təkcə bu vətənin, bu xalqın övladı kimi nankorluq etmədi. Sevinc həm də öz ailəsinə nankorluq etdi. Erməni mövqeyində dayanıb, Azərbaycan xalqına, dövlətinə “atəş açmaqla” düşmənin xain hücumunda şəhid edilmiş atasına xəyanət etdi.

Ləyaqətli valideynin nankor övladı olur, bunu çoxlarımız görmüşük. Amma Sevinc nankorluğu ilə bir ilk yaşadı. Şəhid atanın nankor qızı olmaqla...

QEYD: Sevinc Osmanqızının məlum verilişi efirə getdikdən sonra sosial şəbəkədə bir müzakirə başladı: Kimsə onun verilişinə çıxmasın. Məncə, müzakirələrin əhəmiyyəti onun efirində növbəyə duranlara təsir edəcək deyil. Əxlaqsız azlığı müdafiə edib, hələ utanmadan ona irad tutanlara savaş açan professor, ictimai və şəxsi davranışında mənəvi keyfiyyətlər məcmusundan məhrum olmuş müxalif partiya sədri, Milli Şura adlanan siyasi qeybətxananın digər üzvləri bu adamın efirinin siması olacaq yenə. Mahiyyətcə Sevinc Osmanqızı düşüncəsindən heç bir fərqi yoxdu bunların. Çünki bu adamların indiyədək “fəth” edə bildiyi ən “uca” “zirvə” elə Sevinc Osmanqızının efiri olub.

***Aysel Məmmədova***

## Bəd əməlləri ilə, nəsil-nəcabətlərini söydürənlər

*Görən, Sevinc Osmanqızı, Orduxan Temurxan, Məhəmməd Mirzəli, Arif Məmmədov, Vidadi İsgəndərli və digərləri bunun fərqindədirlərmi?*



Bu bir reallıqdır ki, hikkələrini və iddialarını reallaşdıra bilməyənlər qarşıdurma və iğtişaşlara cəhdlər göstərir, pozucu xarakterli açıqlamalarla çıxışlar edirlər. Bununla da maddi və mənəvi dəstək aldıqları xarici havadarlarının gözündə yüksələcəklərini düşünürlər. Son nəticədə isə daha acınacaqlı və rüsvayçı vəziyyətlə üzləşirlər. Amerikanın paytaxtı Vaşinqton şəhərində Ermənistan səfirliyinin binası qarşısında erməni silahlı qüvvələrinin Azərbaycanın Tovuz rayonu istiqamətindəki dövlət sərhədində təxribat törətməsi və Ermənistanın 30 ildən çox Azərbaycana qarşı davam edən təcavüzü ilə bağlı etiraz aksiyası keçirilib. Aksiya iştirakçıları ”Qarabağ Azərbaycandır”, ”İşğalçı Ermənistan”, ”Uşaq qatilləri” şüarları səsləndiriblər. Ümumiyyətlə bu günə qədər dünyanın 30 dövlətində, 70-ə yaxın aksiya keçirilib. Bu kimi aksiyalarla yanaşı, beynəlxalq təşkilatlara erməni vandalizmi haqqında müraciətlər, bəyanatlarda ünvanlanır. Belə vaxtda bəzi üzdəniraq mühacirlər bu aksiyaların ruhuna kölgə salmaq üçün hər cür cür vasitədən istifadə edirlər. Xaricdə ermənilərin Azərbaycan səfirliklərinə və həmyerlilərimizə olan hücumlarına haqq qazandıran Əli Kərimli, Sevinc Osmanqızı, Arif Məmmədov, Vidadi İsgəndərli və digərləri bununla erməni yalından bəhrələndiklərini və düşmən maraqlarına xidmət etdiklərini nümayiş etdirilər. Onlar xaricdə azərbaycanlıların Ermənistanın işğalçılıq siyasətinin əleyhinə olan aksiyalarını xuliqanlıq, quldurluq, vətənşüvənlik kimi qələmə verirlər.

Bu şəxslər azərbaycanlıların vətənpərvərlik aksiyasını ləkələməyə, onun mahiyyətini təhrif etməyə çalışır, bununla da ermənilərin mövqeyinə xidmət göstərir, onların cinayətkar əməllərinə bəraət qazandırmağa cəhd edilər. Xüsusi ilə də, AXCP sədri Ə. Kərimlinin buyruq qulu rolunda çıxış edən S.Osmanqızı ”ASALA” erməni terror təşkilatının üzvlərinin soydaşlarımıza qarşı vandal hərəkətlərini dəstəkləyib və baş verənlərdə günahkar özlərini müdafiə edən azərbaycanlılarda olduğunu bildirib. Bu isə bir daha onu təsdiq edir ki, ABŞ da ömür sürən bu xanım yaşlaşdıqca ağlını və düşünmək qabiliyyətini itirməkdədir. Həm də, S. Osmanqızı şəcərəsi haqqında, əsasən də böyük fədakarlıqla Azərbaycana xidmət etmiş atası Osman Mirzəyevlə bağlı heç də, xoş olmayan mənfi fikirlərin səslənməsinə imkanlar yaratmış olur. Daha doğrusu artıq sosial şəbəkələri izlədikdə, istifadəçilərin S.Osmanqızının yaxınları haqqında təhqiramiz ifadələrə rast gəlmək olar. Bəlkə də , haradasa, tənqidi fikirlər səsləndirən sosial şəbəkə istifadəçilərini başa düşmək olar. Çünki, ürəkləri torpaq sevgisi, Qarabağla eşqi ilə döyünən vətənsevərlərin vətənşüvən adlandırılması artıq bütün dəyərlərin aşılmasına yol açmış olur. Təəssüf ki, qəzəbli insanların əlləri S.Osmanqızna çatmadığından əsəblərini başqa ünvanlara tənqidi fikirlər səsləndirməklə sakitləşdirməyə çalışırlar.

Bu yerdə yaxşı deyiblər övlad böyüdüb, boya başa çatdırırsan ki, ailəyə başa ucalığı gətirsin, Vətən, xalq bəhrəsini görsün. Ancaq xarici ölkələrə sığınıb dövlətimizə və millətimizə qarşı mübarizə aparan Sevinc Osmanqızı, Orduxan Temurxan, Məhəmməd Mirzəli, Arif Məmmədov, Vidadi İsgəndərli nəsil-nəcabətlərinə ancaq söyüş gətirirlər. Sual yaranır, pul, yaşadıqları ölkələrdə oturum izni almaq istəyi, doğulub, boya-başa çatdıqları Azərbaycandan üstündürmü? Bu qədərmi xarici maraqlı dairələrin tələbləri qarşısında erməniyə təslim olmaq və erməni maraqlarına xidmət etmək onlar üçün asandır? Başqa dost ölkələrinin insanları Azərbaycanın haqlı mövqeyini müdafiə edib, erməniyə tərs sillə vurduğu halda, öz içimizdən çıxan azərbaycanlı Azərbaycana düşmən kəsilir.

Böyük fateh Teymurləng yaxşı deyib, ”aramızda satqın və xəyanətkar olmasa idi, biz bütün dünyanın hakimi olardıq”. 1992-1993-cü illərdə AXC-Müsavat iqtidarının xəyanəti nəticəsində, torpaqlarımız ermənilər tərəfindən işğal edildi, dövlət müstəqilliyimiz təhlükələrlə üzləşdi, əhali ciddi sarsıntılara məruz qaldı. Xəyanətkar ünsürlərin səyi nəticəsində yenidən özünün inkişafını qurmaqda olan Azərbaycanda 1994 və 1995-ci illərdə silahlı qarşıdurma yaradılmasına cəhdlər göstərildi. Yəni bu günə qədər Azərbaycan dövləti sapı özümüzdən olan balaların çoxsaylı satqınlığını və xəyanətini görüb.

Ölkəmiz bu gündə, xəyanətlə üzləşməkdədir. Bu gündə Ə.Kərimli, A.Hacılı, S. Osmanqızı, O. Temurxan, M. Mirzəli, A.Məmmədov, V. İsgəndərli və digərləri ermənipərəst mövqe sərgiləməklə, dövlət və milli maraqlarımıza zərbə vurmağa çalışırlar. Ancaq xəyanətkarlar bu günə qədər öz bəd istəklərinə nail ola bilmədikləri kimi, bundan sonra əliboş qalacaqlar. Qazancları ancaq xalqın nifrəti, nəsil-nəcabətlərinin söyülməsi olacaq. Bu münasibətlərin davamını istəyirlərsə, buyursunlar, bəd əməllərini davam etdirsinlər.

***İ.ƏLİYEV***

# Milli ailə dəyərləri və qloballaşma

***Müasir dünyanın, çağdaş həyatın bütün sahələrinin elektronlaşdığı, qloballaşdığı, internetləşdiyi bir vaxtda xalqımızın yeni nəsil nümayəndələri, eləcə də başqa ölkələrdə yaşayan və yad mədəniyyətlərin daşıyıcılarına çevrilən soydaşlarımız arasında Azərbaycan milli-mənəvi yaşam düşüncəsində etnik kimliyimizin bir hissəsinə çevrilən ailə kultumuzun ayrılmaz tərkib hissəsi hesab edilən ağsaqqallıq-ağbirçəklik dəyərlərinin dirçəldilməsi zəmanəmizin əsas milli-mental məsələlərindən biridir. Tarixi Azərbaycan coğrafiyasının zaman-zaman qonşu dövlətlər tərəfindən parçalanıb işğal altına alınması və bu dövlətlərin tərkibində milli-mənəvi assimilyasiyaya məruz qalması problemin həssaslığını şərtləndirən amillərdəndir.***

Xüsusilə xalqımızın böyük bir kəsiminin - Qərbi Azərbaycan türklərinin uzun illər Azərbaycan Respublikasından kənarda-tarixi düşmənimiz olan ermənilərin siyasi və sosial basqısı altında yaşaması və 1988-1991-ci illərdə Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti nəticəsində minillər boyu yaşadıqları ata-baba yurdlarından vəhşicəsinə deportasiyası və Qarabağ münaqişəsi nəticəsində insanlarımızın Qarabağdakı doğma yurdlarından qovulub çıxarılması xalqımızın ailə dəyərlərinə sarsıdıcı zərbə vurmuşdur.

Problemin kəskinliyini nisbətən azaltmaq, müxtəlif nəsillər arasında dərinləşən mənəvi-ruhi uçrumları aradan qaldırmaq üçün əsrlər boyu formalaşan milli məişət-ailə institutunu, sosial-mənəvi təsisatı daha da möhkəmləndirməklə qədim və modern dəyərlərin sintezini tədqiq etmək günümüzün vacib problemlərindəndir. Azərbaycan cəmiyyətinin tarixən qazandığı mənəvi dəyər konseptləri və mədəni institutları içərisində ailə ilə bağlı kultların, eyni zamanda onların əsasını təşkil edən ağsaqqallıq-ağbirçəklik institutunun xüsusi yeri vardır.

Təəssüflər olsun ki, son zamanlar bu mənəvi-ruhi dəyərlərə qarşı xaricdən geniş hücumlar olur və çox hallarda gənclərimizin böyük bir hissəsi də liberal dəyərlər - insan haqları, qadın azadlığı, gender bərabərliyi, cinsi azlıqların hüquqlarının qorunması kimi “dəbli trendlər” altında insanlarımıza sırınan o qarayaxma kampaniyalarına, internet və sosial şəbəkələrdəki mənfi tendensiyalı virtual aksiyalara qoşulurlar. Qloballaşma dövründə Qərb tendensiyasının beyinlərinə yeridiyi şəxslər bir şeyi unutmamalıdırlar ki, insan həm də sosial varlıqdır. Onun dünyaya gəlməsi, fərd kimi yetişməsi üçün isti bir ailənin mövcudluğu mütləqdir. Fərdin şəxsiyyətə çevrilməsi üçün də ailə ilkin mərhələdir. İnsan yaşadığı cəmiyyətin dəyərlərinə hörmət etməlidir. Əgər yeni birisini kəşf edə bilmiriksə, köhnəni silmək olmaz. Qloballaşmanın məhv etdiyi dəyər cəmiyyətin eroziyasıdır.

Azərbaycan ailəsində də kişi başçı, ailənin iqtisadi dayağıdır. O, qərarverici, idarəedici, nəzarətedici kimi funksiyaları yerinə yetirir. Lakin məsuliyyətin ağırlığı əsasən qadının çiyinlərinə düşür. “Yuvanı dişi quş qurur” fikri də buradan qaynaqlana bilər. Qadının dözümü və müdrikliyi ailəni qoruyur. Azərbaycan qadını bu milli xüsusiyyəti- güzəştə getmək bacarığı, fədakarlığı ilə Avropa qadınından çox fərqlənir.

Ailə dəyərlərimizi xarakterizə edərkən burada övlad sevgisinin xüsusi önəm daşıdığını görürük. Azərbaycan ailəsində övlada olan sevgi, bəlkə də, dünyanın heç bir xalqı ilə müqayisə olunmayacaq qədər güclüdür. Zənnimcə, Azərbaycan ailəsinin üzunömürlüyünün əsas səbəblərindən biri də budur. Ailənin mənəvi şəxsiyyətinin təşəkkülündə, təbii ki, ilk növbədə ata-anaya böyük vəzifələr düşür. Fədəkarlıq, öncə başqalarını düşünmə, eqoizmdən uzaq davranış, hörmət, sevgi, yardım etmək, səbir göstərmək və s. xüsusiyyətlər mənəvi şəxsiyyəti yetişdirir. Mənəvi şəxsiyyətin meydana çıxmadığı ailələrdə təbii ki, maddi ünsürlər ön plandadır. Ailənin yaşaması, ayaqda durması üçün iqtisadi dayağı önəmli olsa da, təkcə pul, mövqe, gözəllik, şöhrət kimi maddi amillər ailəni bir yerdə tuta bilməz. Çünki maddi elementlərin heç biri daimi deyil, ailənin gerçək bir ailə olması üçün burada mənəvi dəyərlərin hakim olması mütləqdir.

Qeyd etdiyim kimi, ailə birgə yaşayışın ilk modeli olaraq xoşbəxtlik qaynağı, millətin həyatı baxımından müqəddəs bir dəyər və təməldir. Bu təməlin düzgün qurulması, bu dəyərin yaşadılması üçün müasir Azərbaycan ailəsi həm novator, həm də konservator olmalıdır. O, zamanın sınaqlarından keçib bu gün də mövcud olan ailə dəyərlərimizi mühafizə etməli, yaşatmalı, böyüyə hörmət, kiçiyə diqqət, mərhəmət kimi amilləri üstün tutmalıdır. Eyni zamanda, demokratik prinsipləri qavramalı, zamanın, dövrün nəbzini tutub müsbət ənənələrimizə zərbə vurmayacaq yenilikləri qəbul etməli, fərdlərin müstəqil düşüncə tərzinə, seçiminə qadağalar qoyulmamalıdır.

Ailə dəyərlərimizin təbliğində ictimai rəyi formalaşdıran KİV-in, xüsusilə televiziyanın üzərinə böyük iş düşür. Milli-mənəvi dəyərlərin təbliği ictimai və dövlət televiziyalarının başlıca fəaliyyət prinsiplərinə daxil olduğundan bunu görmək olar. Lakin özəl telekanallarda ailə dəyərlərimiz demək olar ki, təbliğ olunmur. Şou və reklam dalınca qaçan TV kanallar sosial-məişət mövzulu proqramlarda yalnız cəmiyyətin neqativ hissəsini nümayiş etdirirlər. Halbuki Azərbaycan cəmiyyətinin nümunəvi ailələri müqayisə olunmayacaq dərəcədə üstünlük təşkil edir və bu nisbətdə qat-qat çoxdur. Düzdür, ailələrin problemlərini işıqlandırmaqla cəmiyyətin qüsurlarını göstərmək olar, lakin burada balans pozulmamalıdır. KİV-in dünyaya inteqrasiyası, əhatə dairəsi nəzərə alınaraq, xalqı təmsil edən ailələrin həmin xalq haqqında rəy formalaşdırması unudulmamalıdır. Media həm də müxtəlif sosial təbəqələrdən olan sağlam fikirli, adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaşadan nümunəvi ailələri göstərməli, təbliğ etməlidir. Və bu tip ailələrin mükəmməlliyinin, uzunömürlüyünün sirlərini açmaqla yeni həyat quracaq gəncləri maarifləndirmiş ola bilər.

Dünyaya səpələnən 50 milyonluq soydaşımız, eyni zamanda Qarabağ köçkünləri timsalında sosial-kulturoloji hərəkata başlamaqla, Azərbaycan cəmiyyətində get-gedə zəifləyən ailə dəyərlərinin, ağsaqqallıq və ağbirçəklik institutu prinsiplərinin bərpası və genişlənməsi istiqamətində aksiyaları həyata keçirməklə, sadalanan halları nisbətən zəiflətməyin, yaşlılara olan sayğı və sevgini artırmağın, bu istiqamətlərdəki gərginlikləri azaltmağın vaxtı çoxdan yetişib. Milli-mental ailə dəyərlərimizin dirçəldilməsi, daha da inkişaf etdirilməsi məsələlərinin araşdırılmasına, bu istiqamətdə aktual addımların, innovativ-kreativ, sosial-psixoloji təşəbbüslərin dəstəklənməsinə böyük ehtiyac duyulur.

Yeri gəlmişkən, Qərbin inkişaf etmiş öklələrində bu istiqamətdə hələ XX əsrin ortalarından etibarən elmi-tədqiqat işləri aparılmağa başlanmış, tədqiqat əsərləri yazılmış, təcrübələr sınaqdan keçirilmiş, ailə mərkəzləri yaradılmışdır. Sadalanan istiqamətlərin əsas hədəfi milli Azərbaycan ailəsi, eləcə də ağsaqqallıq-ağbirçəklik dəyərlərinin zənginləşməsində, qorunmasında, inkişaf etdirilməsində, tədqiqi və təbliğində, yeni nəslə çatdırılmasında, internet və qlobal elektron resurslarında, sosial şəbəkələrdə geniş yayılmasında gənclərin rolunun artmasına nail olunmasına, bu yöndə yeni metodların, forma və üsulların axtarılaraq tapılmasına, ictimaiyyət tərəfindən tanıdılmasına və dəstəklənməsinə yönəldilməlidir.

Qloballaşma Azərbaycana xeyli təsir göstərib. “Amma şükürlər olsun ki, Azərbaycan özünə aid olan mədəniyyət nümunələrini qoruyub saxlaya bilib. Məsələn, muğam mədəniyyəti, aşıq musiqisi, mədəniyyətmizin Üzeyir Hacıbəyovla başlayan bir çox nümunələri, klassik musiqi nümunələri və sairənin qorunması ilə biz özünəməxsus bir mədəniyyət fomalaşdıra bilmişik. Bununla yanaşı kütləvi bazar mədəniyyəti kapitalizmin kütləvi mədəniyyəti, şou biznes kimi adlar altında həyatımıza daxil olur. Bu isə mədəniyyətin kommersiyalaşmasına və bir növ mənəvi təlabatı ödəməkdə daha çox gəlir mənbəyinə çevrilməsinə yol açır. Onda mədəniyyət artıq insanın dünyagörüşünü, onda milli özünəməxsusluğu, milli keyfiyyətləri formalaşdıran amildən daha çox, bir növ insanı kosmopolitləşdirən, öz milli mənəvi kimliyindən uzaqlaşdıran bir amil rolunu oynayır. Məhz kütləvi mədəniyyətin təsiri altında insan öz milli kimliyini itirir və yaxud başqa bir məxluqa çevrilir”. Onun sözlərinə görə, qloballaşma cəmiyyətdə milli münasibətlər sisteminin bütün strukturuna təsir edir. Bu təsir bəzən dəyişdirici, bəzən dağıdıcı, bəzən də tənzimləyici olur. Hər üç halda baş verənlər millinin xeyrinə olmur. Kütləvi mədəniyyətin, güc mərkəzlərin yaratdığı dəyərlərin xeyrinə olur. Bu məqamların milli dəyərlərimizdən olan ailəyə, ailə daxili münasibətlərə təsiri necədir? Qabil Hüseynli deyir ki, ailə də ictimai münasibətlər sisteminin bir formatı, tərkib hissəsidir. “Bu məqamlar təbii ki, ailə münasibətlərinə də təsir edir. Azərbaycanda ailə münasibətləri ənənəvi formasından fərqli bir forma almaqdadır. Tutalım, Azərbaycanda indi çoxuşaqlı ailələrə rast gəlmək mümkün deyil. Vaxtilə qəhrəman analar var idi. Ən azı ailədə 4-5 uşaq olurdu. İndi Avropada olduğu kimi Azərbaycan ailəsində də bir uşaq, bəzən isə uşaqsızlıq halları artıq dəbə çevrilib. Hətta bu kənd yerlərinə də ayaq açmağa başlayıb. Boşanma hallarının artmasını xüsusilə qeyd etmək lazımdır. Nikah yaşının çoxalması da Azərbaycanın bir demoqrafik problemlə üzləşdiyini söyləməyə əsas verir. Kim nə deyir desin, statistika nə göstərir göstərsin, Azərbaycan xalqı daha artmır. Azərbaycan xalqı qocalır. Əhalinin ümumi balansında gənclərin sayı azalır. Qocalar da çox yaşamır. Yaşı 50-dən yuxarı olanların sayı 10 il əvvəllə müqayisədə kəskin dəyişib. Bütün bunlar onu göstərir ki,ölkədə demoqrafik problem də baş qaldırmaqdadır. Bu problem bütün problemlərdən daha ziyanlı və qorxuludur. Çünki bu millətin varlığı, gələcəyi ilə bağlı olan məəsələdir”. Politoloq deyir ki, insan, kütləsi, millətin fərdləri yoxdursa, bu millətin varlığını təhdid edən amillərdəndir. Bir gün belə vəziyyət onsuz da kiçik olan millətləri daha da kiçildə və barmaqla sayılacaq səviyyə gətirib çıxara bilər. Bəs qloballaşmanın müsbət məqamları varmı? Q.Hüseynlinin fikrincə, bəziləri pozitiv məqamları vurğulaya bilər.”Məsələn, gender bərabərliyindən danışırlar, homeseksuallara sərbəstlik verilməsindən danışıb, bunları uğur kimi təqdim edirlər. Gender bərabərliyinin əleyhinə deyiləm, hətta bunu təqdir edirəm. Amma Azərbaycan xalqının özünün adət-ənənələri var ki, buna görə ailədə kişinin və qadının mövqeləri dəqiq müəyyənləşdirilib. Bu bəzən mühafizəkarlıq kimi görünsə də, hər halda qadının bir ana, ailə ocağının qoruyucusu kimi funksiyasını daha dəqiq müəyyənləşdirir, kişini isə bir növ evə çörək gətirən, təminatını həyata keçirən şəxs kimi təqdim edir. Əgər kişi bir qədər mühafizəkar olmasa, kosmopolit olsa, bir gün görərsən ki, o qısa müddət ərzində kosmopolit dəyərlərin içində əriyib yox olub, nəticədə vaxtilə çərkəzi papaq qoyan, döşünə patrondaş taxan, xəncər gəzdirən Qafqaz kişisi indi uzunsaçlı, şortik geyinən, homoseksualizmi təbliğ edən qəribə bir varlığa çevrilib. Burda artıq söhbət başın içindən, ətraf aləmə münasibətdən, intellektual səviyyədən gedir. Yabançı xarici dəyərləri mənimsəmiş insanların toplusuna çevrilmək təhlükəsini hiss edirik, bu təhlükənin qarşısını almaq üçün səylər göstərilməlidir”.

Hələ də ekranlarımızda uşaqlarımızın gülüş payını hansısa “ulduzların” söyüşməsi alır. Gənclərin asudə vaxtının təşkili ilə bağlı elmi-fəlsəfi proqramların yerini kimlərinsə necə geyinməsi, necə oturması, hansı maşını minməsi və bu kimi heç kəsə lazım olmayan informasiyalar tutur. “Belə vəziyyət Azərbaycan xalqına hansı dəyərləri aşılaya bilər, bu efiri zəbt edənlər kimdir axı? Bəlkə böyük əsərlər yaradıblar, xalq qarşısında böyük xidmətləri olub, yaxud Nobel mükafatı laureatlığını gətiriblər Azərbaycana?! Bəlkə Motsartın, Baxın, Bethovenin əsərlərinə bərabər əsərlər yaradıblar. Yox, sadəcə olaraq, musiqi dünyamızı, zövqümüzü, mənəviyyatımızı korlayırlar. Təbii, kiminsə xoşuna gələ bilərlər. Çünki zövqlər müxtəlifdir. Amma milli zövqdən söhbət gedirsə, artıq musiqimiz bəlli dəyərlər içərisində bəslənilməli, köklənməli və o dəyərlərin kölgəsində inkişaf etməlidir”. Prezident yanında Dövlət İdarəçilik Akademiyasının müəllimi Rövşən Məcidov isə deyir ki, qloballaşma, milli sərhədlərin şəffaflığı təkcə əməkdaşlığın genişlənməsi ilə nəticələnmir, əvvəllər lokal və milli səviyyədə olan, həll edilə bilməyən bəzi problemlər də qloballaşır və qlobal səviyyədə daha effektiv, kompleks, qərəzsiz yanaşma tələb edir. “Məsələn, terrorizm, separatizm, narkotika, insan alveri, etnik münaqişələr, milli özünəməxsusluğun tədricən pozulması, ekoloji böhran, əmək və istehsal bazarında mövcud olan dispraporsiya kimi amillər antiqloballizm hərəkatını doğurur.

Qloballaşmanın əsas əlamətlərindən biri nəqliyyat şəbəkəsinin, kütləvi informasiya və kommunikasiya vasitələrinin sürətlə genişlənməsi və inkişaf etməsidir. Buna görə də dünyanın hər hansı bir yerində baş verən hadisə operativ şəkildə bütün planetə yayıla bilir. Bu, imkan verir ki, bəzi qurumlar yayımladıqları informasiya ilə bütün bəşəriyyəti anındaca manipulyasiya edib(şüurlarını yönəldib) öz ideologiyalarını, düşüncə və davranış tərzlərini, musiqilərini, geyimlərini və başqa cəhətlərini təbliğ etsinlər.

**_Vahid Ömərov, f.ü.f.d.dos._**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

29 iyul

Son səhifə


## Pele Ronaldo və “Yuventus”u təbrik etdi



Dünya futbolunun canlı əfsanəsi Pele “Yuventus”u A seriyasının qalibi olmasına münasibət bildirib. Xarici KİV-lərin bu barədə yazdıqlarına görə, dünya futbolunun canlı əfsanəsi Turin klubunun çempionluq qazanmasında Kriştiano Ronaldonun rolunun xüsusilə vurğulayıb. “Ronaldo hamıya müvəffəqiyyətin həmişə onunla gəldiyini sübut edir. O, müasir idmançıdır. Bundan başqa, möhtşəm oyunçular Duqlas Kosta, Aleks Sandro və Danilo Luisə də təşəkkür etmək istəyirəm. “Yuventus”u İtaliya çempionu olmaq münasibətilə təbrik edirəm”. Qeyd edək ki, “Yuventus” ardıcıl 9-cu dəfə ölkə çempionu olub.

## “Bavariya”dan 20 yaşlı futbolçu üçün 20 milyon avro



***“Bavariya” “Norviç”in müdafiəçisi Maks Aaronsla maraqlanır. Qol.az Almaniya mətbuatına istinadən xəbər verir ki, Münhen klubunun 20 yaşlı müdafiəçi üçün 20 milyon avro ödəməyə hazır olduğu bildirilir. İngilis oyunçu ilə “Bayer”in də maraqlandığı vurğulanıb.***

Qeyd edək ki, M.Aarons “Norviç”də bu mövsüm 40 matçda 2 qol ötürməsi verib. Xatırladaq ki, “Norviç” Premyer Liqanı 20 xalla 21-ci pillədə başa vurub və elitanı tərk edib.

## Monika Belluççinin görünüşü pərəstişkarlarını şoka saldı



Paris küçələrində şəkli çəkilən italiyalı aktrisa və model Monika Belluçi xarici görünüşü ilə hər kəsi şoka salıb. Lenta.ru-nun məlumatına görə, pərəstişkarları Belluçinin simasının qocalığından dəhşətə düşdüklərini, onun üzündə həddən artıq qırış və nahamarlıqlar olduğunu bildiriblər: İstifadəçilər “Cavanlıqda olan gözəlliyi itirmək çox ağrılıdır. Sanki şedevr yoxa çıxır”, “Gözəl idi, ancaq 55 yaşımda belə görünmək istəməzdim. Üzə qulluq etmək lazımdır”, “55 yaşda 70 yaşlı kimi görünmək”, “Sanki 70 yaşı var, üzü niyə bu qədər qırışıqdır?”, “55 yaş üçün çox pis görünür” və s. şərhlərlə məyusluqlarını bildiriblər.

## Yunan Papaz: Türklər olmasaydı Ayasofya çoxdan çökərdi



“Türklərin olduğu yerlər hər zaman daha yaxşıdır. Bizim üçün utanverici olsa da reallıq budur. Ayasofyanı qoruyan türklər olmasaydı, Ayasofya çoxdan çökərdi”. SİA “Anadolu”ya istinadla xəbər verir ki, bunu Yunanıstanın paytaxtı Afina yaxınlarında yerləşən Analipseos Kilisəsində keçirilən ayindən sonra çıxış edən papaz Evanqelos Papanikolaou deyib: “Ayasofiya kimi böyük bir tikilini kim qoruyacaqdı? Türklər qorudu. Türklər Qritdə adasında heç bir kilsəni bağlamadı. Amma Yunanıstanda Othonasın əmri ilə çox sayda manastır və kilsə bağlandı”.

“İnsanlar deyiblər ki, Latın serpuşu (dini baş örtüyü) yerinə türk sarığını (dini baş örtüyü) görməyi seçirik. Mənə qalsa heç biri görülməsin. Amma ikisindən birini seçmək məcburiyyətində qalsaydım türklərin sarığını seçərdim. Ayasofyaya turistlər uyğun olmayan libaslarda girirdilər. Bundan sonra ayaqqabısız, uzun qiyafədə və baş örtüyü ilə girəcəklər. Bu saygı göstəricisi deyilmi? Bəlkə də bunu bir lənət olaraq deyil, bir düzəliş olaraq qəbul etməliyik”, - deyə Evanqelos Papanikolao bildirib.

## İranda koronavirusdan ölənlərin sayı 16 mini keçdi

İranda öt?n sutka ?rzind? daha 235 nəfərin koronavirusdan (COVID-19) ölməsi ilə bu virusdan ölənlərin sayı 16 147 nəfərə yüksəlib. Bunu İranın Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyinin sözçüsü Sima Sadat Lari deyib. S.Sadat Larinin sözlərinə görə, ötən 24 saat ərzində daha 2 667 nəfər koronavirusa yoluxub. Beləliklə bu virusa yoluxanların sayı 296 273 nəfərə çatıb. Virus daşıyıcılarından 3 902 nəfərin vəziyyəti ağırdır.

Sadat Lari ?lav? edib ki, indiyədək 257 019 nəfər koronavirusdan sağalıb. Sadat Lari bildirib ki, Tehran, Mazandaran, Gülüstan, Fars, Şərqi Azərbaycan, Ərdəbil, İsfahan, Əlborz, İlam, Rəzəvi Xorasanı, Kirman, Şimali Xorasan, Simnan, Lorestan və Hörmüzqan vilayətləri qırmızı zonalardır. İranda indiy?d?k 2,38 milyondan çox diaqnoz testi h?yata keçirilib.



## Türkiyəli aktrisa biznesmenə ərə getdi

Türkiyəli aktrisa Songu?l O?den ailə həyatı qurub. SİA-nın türk mətbuatına istinadən verdiyi xəbərə görə, sənətçi dörd ildir eşq yaşadığı biznesmen Arman Bıc?akc?ı ilə nikah masasına əyləşib. Mərasimdə cütlüyün ailə üzvləri, yaxınları iştirak edib. Nikah Armanın ailəsinin evində baş tutub. Songül və Arman pandemiyadan sonra böyük toy edəcəyini bildirib.

## Sürücü velosipedçini vurub öldürdü

Bakıda ölümlə nəticələnən yol qəzası baş verib. SİA-nın məlumatına görə, hadisə paytaxtın Binəqədi rayonu, Binəqədi şosesində qeydə alınıb. Ağsu rayon sakini Teymur Zeynalov idarə etdiyi “VAZ 2106” markalı avtomobillə velosipedçi, 1981-ci il təvəllüdlü Rəşad Şəfiyevi vurub. Velosipedçi aldığı xəsarətdən hadisə yerində keçinib. Faktla bağlı Binəqədi rayon Polis İdarəsində cinayət işi başlanıb.


**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**